AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

QƏRİBƏ VAHİD QIZI RƏHİMOVA

# MÜASİR PSİXOLOGİYADA ŞƏXSİYYƏTİN İNKİŞAFI PROBLEMİ

BAKI- 2016

**ANAM RƏHİMOVA SOLMAZ VƏ QAYNANAM BEYBUDOVA ANAGÜLÜN ƏZİZ XATİRƏSİNƏ İTHAF EDİRƏM**

**Elmi redaktor:** **prof. Ə.T.Baxşəliyev**

**Rəyçilər:** **prof.R.I.Əliyev**

**dos: Z.İ.Əliyeva**

**Qəribə Vahid qızı Rəhimova.Müasir psixologiyada şəxsiyyətin inkişaf problemi. (Dərs vəsaiti). ADPU-nəş. Bakı-2016. 105 səh.**

Kitabda müxtəlif illərdə yaşanmış və bilavasitə respublika psixoloqlarının tədqiqat obyektinə çevrilmiş dahi mütəfəkkirləin yaradıcılıqları psixoloji baxımdan bir daha araşdıılmış, bu istiqamətdə görülən işlər təhlil edilmiş, onların müasir dövür üçün əhəmiyyəti konkret faktlarla göstərilmişdir.Kitabdan bakalavr və magistr təhsil pilləsində oxuyan tələbələr, magistrantlar, valideynlər, tərbiyəcilər, müəllimlər, pedaqoq və psixoloqlar dərs vəsaiti kimi istifadə edə bilərlər.

# MÜNDƏRİCAT

**GİRİŞ** .......................................................................4

**I FƏSİL. ŞƏXSİYYƏT VƏ ONUN İNKİŞAFI HAQQINDA ANLAYIŞ**
1.1.Şəxsiyyət və onun inkişafı müasir psixologiyanın aktual problemi kimi ...........................................6
1.2.Fərd, şəxsiyyət və fərdiyyət anlayışları ..............................22
1.3.Milli xarakter və şəxsiyyətin inkişafı.................................38

**II FƏSİL. AZƏRBAYCAN MÜTƏFƏKKİRLƏRİNİN ŞƏXSİYYƏTİN İNKİŞAFI HAQQINDA FİKİRLƏRİ**
2.1. N.Tusi şəxsiyyətin formalaşmasında təlim-tərbiyənin rolu haqqında ........................................................55
2.2. İ.Nəsimi yaradıcılığında şəxsiyyətin özünüdərki haqqında.....................................................................69
2.3. M.Füzuli yaradıcılığında şəxsiyyət problemi ..................76
2.4. A.A.Bakıxanovun şəxsiyyətin mənəvi-psixoloji təkmilləşməsi haqqında fikirləri .............................................83

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**................................99

# GİRİŞ

Son dövrlərdə cəmiyyət həyatında baş verən dəyişikliklər şəxsiyyət probleminə diqqətin artmasına səbəb olmuşdur. İndi dünyada təxminən yeddi milyarddan artıq insan yaşayır. Onlar təkcə bioloji və fizioloji xarakterlərinə görə yox, həm də fərdi-psixoloji xüsusiyyətlərinə görə bir-birlərindən fərqlənirlər. Şəxsiyyətin formalaşmasına müxtəlif amillər təsir edir,bununla belə şəxsiyyətin sosial-psixoloji problemləri müasir psixologiyanın ən mühüm və aktual problemlərindən biridir. Şəxsiyyət problemi istər ümumi psixologiya, istərsə də sosial psixologiyada xüsusi yer tutur. Psixologiyada şəxsiyyətin tədqiqində daha çox, fərdin əşyavi fəaliyyətində və ünsiyyətində mənimsədiyi sistemli keyfiyyətlər nəzərdə tutulur. Bu keyfiyyətlər fərddə ictimai münasibətlərin təmsil olunma səviyyəsini səciyyələndirir. Qeyd etməliyik ki, şəxsiyyət probleminin elə məqamları vardır ki, onları sosial psixologiya tədqiq edir. Şəxsiyyətin sosializasiyası, onun sosial yönümü, qrup və kollektivlərdə şəxsiyyətin formalaşması, insanların ünsiyyəti və qarşılıqlı təsiri və bir çox digər məsələləri buraya aid etmək olar. Ünsiyyət və qarışılıqlı münasibətlər sosial-psixoloji hadisələrin mənbəyini təşkil edir. Kommunikativ, interaktiv və perseptiv ünsiyyət formaları bu baxımdan daha çox xarakterikdir. Sosial psixologiyada şəxsiyyət problemini tədqiq edərkən, subyekt-subyekt münasibəti ön plana keçir. Bu sahədə xeyli tədqiqatların aparılmasına, yeni baxış və nəzəriyyələrin yaranmasına baxmayaraq, problemin öyrənilməmiş aspektləri də çoxdur. İstər ümumi, istərsə də sosial psixologiyada şəxsiyyətin aktuallığı təbiidir. Çünki hər hansı bir cəmiyyətin, dövlətin sosial-iqtisadi sahəsinin  inkişafı şəxsiyyətin necə formalaşmasından asılı olur. Sosial elmlər sisteminə daxil olan psixologiya, digər humanitar bilik  sahələrindən fərqli olaraq, başlıca diqqəti insan şəxsiyyətinin formalaşması qanunauyğunluqlarına, xüsusilə insanın mənəvi aləminin strukturuna yönəldir. Bu mənada psixologiya çox zaman “İnsanşünaslıq elmi” də adlandırılır.

Qeyd etmək lazımdır ki, şəxsiyyət haqqında bilik və təcrübələr, şəxsiyyətin məzmun və keyfiyyətləri, idrak xüsusiyyətləri, emosional-iradi cəhətləri, fərdi-psixoloji, ədəbii-bədii surətlər, obrazlar vasitəsilə daha dolğun ifadə olunur. Odur ki, bəşəriyyətin çoxəsrlik söz sənəti nümunələrinin psixoloji kontekstdə tədqiqi psixologiya elminin aktual problemlərindən birinə çevrilmişdir. Digər tərəfdən, müxtəlif dövrlərdə yaşayıb-yaratmış bədii söz ustaları insan şəxsiyyəti, onun təşəkkülü, məzmunu, mənəvi, sosial, psixoloji keyfiyyətləri haqqında özünəməxsus biliklərə malik olmuş, həmin baxışları ya birbaşa, və yaxud dolayı yolla yaratdıqları obrazlarda ifadə etmişlər.

Bu fikir və ideyaların diqqətlə öyrənilməsi, siyasi, ideoloji, təlim-tərbiyə baxımından, o cümlədən müasir sosial psixologiyanın yeni ideyalarla zənginləşdirilməsi nöqteyi-nəzərindən də aktuallıq kəsb edir. Belə tarixi şəxsiyyətlərin yaradıcılığını, mənalı ömür yolunu öyrənmək, onu təbliğ etmək ideoloji və siyasi əhəmiyyət kəsb edir. Bu cür tədqiqatlarla dünya alimləri, siyasətçi və ideoloqlar bir daha dərk edirlər ki, Azərbaycanın belə bəşəri şəxsiyyətləri olub və olacaq. Azərbaycanın tanınmış söz ustalarının əsərlərində təsvir olunan obrazlarda müasir gənclər üçün tərbiyəvi əhəmiyyətə malik olan mənəvi, sosial-psixoloji keyfiyyətlər var ki, onlardan geniş istifadə etmək olar.

Haqqında danışılan tədris vəsaiti “Təhsildə sosial-psixoloji xidmət” ixtisası üzrə təhsil alan magistrantlar üçün nəzərdə tutulmuşdur. “Müasir psixologiyada şəxsiyyətin inkişafı problemi” adlı həmin fənnin tədrisinə 45 saat ayrılmışdır. Bunu nəzərə alaraq belə bir tədris vəsaitini tərtib etməyi məqsədəuyğun saydıq. Vəsaitdən müəllimlər, valideynlər, magistrantlar geniş şəkildə istifadə edə bilərlər.

# I FƏSİL. ŞƏXSİYYƏT VƏ ONUN İNKİŞAFI HAQQINDA ANLAYIŞ

## 1.1. Şəxsiyyət və onun inkişafı müasir psixologiyanın aktual problemi kimi

Şəxsiyyət probleminin tədqiqi ilə bağlı keçən əsrdən başlayaraq istər Azərbaycanda, istərsə də xarici ölkələrdə alimlər, xüsusilə pedaqoq və psixoloqlar daha ciddi və sistemli tədqiqat işləri aparmış, çoxsaylı məqalələr, elmi əsərlər yazıb-yaratmışlar. Bu sahədə aparılan tədqiqat işləri çox geniş bir sahəni əhatə etdiyindən müəlliflər şəxsiyyətin çoxyönlü sahələrini, müxtəlif cəhətlərini diqqətlə araşdırmışlar. Digər tərəfdən də şəxsiyyət problemi ilə təkcə pedaqoq və psixoloqlar deyil,həmçinin filosoflar, sosioloqlar, bioloqlar, fizioloqlar, məşğul olmuşlar.

Şəxsiyyət anlayışı müasir psixologiyanın ən mühüm kateqoriyalarından biridir. İnsan sadəcə bioloji varlıq deyil, həm də sosial varlıqdır. O, daim ictimai sistemi səciyyələndirən, sosial keyfiyyətlərin məcmu daşıyıcısı kimi çıxış edir. Şəxsiyyətin quruluşu, insanın digər insanlarla əlaqələrinə, cəmiyyətə uyğunlaşmasına, özünüifadə formasına təsir edir. Ona görə də bir insanı şəxsiyyət kimi qiymətləndirərkən onun xasiyyətinə, ya da şəxsiyyətinin quruluşuna diqqət yetirilir. Şəxsiyyət – bir fərdin bütün marağını, istedadını, danışıq tərzini, xarici görünüşünü və ətrafa uyğunlaşma formasının xüsusiyyətlərini özündə cəmləyən bir termindir.

Şəxsiyyətin psixoloji siması psixoloji xüsusiyyətlərin uzlaşması (xarakter əlamətləri, temperament tipləri, ağlın keyfiyyətləri, üstünlük təşkil edən maraqlar,motivasiya və s.) hər bir insanda möhkəm vəhdət yaradır ki, bu da şəxsiyyətin psixi simasının nisbi sabitliyi kimi nəzərdən keçirilə bilər. Psixi vəziyyətlərin fasiləsiz olaraq dəyişilməsi (hisslər, arzular və s.) insanın müxtəlif sosial qruplarda və müxtəlif həyati şəraitdə öz üzərinə götürdüyü rollarla əlaqədar olaraq şəxsiyyətin psixi siması bu və ya digər səviyyədə sabit qalır.

Şəxsiyyətin nisbətən davamlı və nisbətən dəyişkən xüsusiyyətləri şəxsiyyətin əlamətlərinin mürəkkəb vəhdəti kimi onun dinamik strukturunu təşkil edir. Şəxsiyyət fərdi fərqliliyə söykənən duyğuların, düşüncələrin, bacarıqların, qabiliyyətlərin, vərdişlərin meydana gətirdiyi funksional bir toplumdur.

İnsan şəxsiyyəti birbaşa və dolayı mənada onun siması, sifətidir. Birbaşa mənada insanın siması, sifəti onun başlıca identifikatorudur. Dolayı mənada insan şəxsiyyəti onun "ruhunun", başqa sözlə, onun bütün psixi təzahürünün "sifətidir". Bütün bunları nəzərə alaraq deyə bilərik ki, şəxsiyyət fərdin özünü cəmiyyətlə eyniləşdirməsinə imkan verən davamlı fiziki və psixi xarakteristikasının məcmusundan ibarətdir.

Məlumdur ki, şəxsiyyət haqqında müxtəlif nəzəriyyə və mövqelər mövcuddur.Bir sıra psixoloqlar hesab edirlər ki, şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamdır. Digər mövqeyə görə şəxsiyyət müəyyən tarixi dövrdə yaşayıb, fəaliyyət göstərən, gerçəkliyi dərk edib, müəyyən istiqamətdə dəyişdirən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır.

Tarixən insanın şəxsiyyəti birbaşa və dolayısıyla onun siması, sifəti ilə əlaqələndirilmişdir. Şəxsiyyət- yüksək düşüncəsi, öz hərəkət və davranışları üçün məsuliyyət hissini, şəxsi ləyaqəti və başqa yüksək mənəvi keyfiyyətləri özündə birləşdirən insandır.

Şəxsiyyət- sosial və mədəni həyatın subyekti kimi məqsədyönlü fəaliyyət göstərən, sosial münasibətləri və yüksək mənəvi dəyərləri olan insandır.

Şəxsiyyət problemi elmin müxtəlif sahələrində çalışan alim və mütəfəkkirlərin illərlə diqqət mərkəzində dayanan mühüm problemlərdən olmuş və müasir dövrdə də öz aktuallığını saxlamaqdadır. Müasir psixologiyada şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi məsələlər, ümumiyyətlə şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. Bu bir daha həmin problemin mürəkkəb və çətin olduğunu təsdiq

edir. Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan, öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamdır. Lakin bir sıra səbəblər üzündən şəxsiyyətin inkişafı düzgün getmir və ya artıq formalaşmış şəxsiyyətin daxilində xoşagəlməz dəyişikliklər baş verir. Bu səbəblər müxtəlifdir.

Şəxsiyyət çoxölçülü hadisədir. Jorj Sand yazırdı: «Elə saatlar olur ki, mən öz-özümdən qaçıram, özümü at, quş, ağacın başı, bulud, axar su, üfüq, çiçək, ötüb keçən qeyri-müəyyən forma və duyğular şəklində hiss edirəm… mənim varlığımın genişlənməsi üçün inkişaf mühitini nə təşkil edirsə, onda yaşayıram». Alimlər tez-tez sual verirlər: «Özünüdərkin ilk mərhələsi haradan başlanır, özünün digərlərindən daha xeyirxah görülməsinə nail olmuş «Mən»in özü harada yaranır…?» Materialist nöqteyinəzərindən şəxsiyyətin inkişafında onun başqa insanlarla münasibətlərinin təyinedici rolu ilk dəfə Lüdviq Feyerbax tərəfindən dərk edilmişdir. O, yazırdı: «Ayrı-ayrılıqda götürülmüş hər bir insan nə əxlaqi, nə də düşünən bir varlıq kimi insan məğzinə malik olmur. İnsan məğzi ancaq ünsiyyətdə, insanın insanla birliyində, yalnız Mən və Sən arasında olan fərdlərin reallığına əsaslanan birlikdə mövcuddur». Bu ideyalar marksizmin hakim «ideyalarından biri olmuşdur «…insan ilk əvvəl güzgüyə baxan kimi başqa insana baxır».

İnsanlar təkcə gözlərinin rənginə, səslərinin tembrinə, barmaq izlərinə və s görə deyil, şəxsiyyətinin xarakteristikasına görə də bir-birindən fərqlənirlər. İnsanların gözlərinin rənginə, səslərinin tembrinə və ya digər biofiziki xüsusiyyətlərinə görə xarakterizə etməyə nisbətən onları bir şəxsiyyət kimi xarakterizə etmək olduqca çətindir. Şəxsiyyət anlayışı mürəkkəb anlayışdır. Onun adekvat şəkildə anlaşılmasının çətinliyi bir sıra amillərlə bağlıdır. Həmin mühüm amillərdən bir neçəsini nəzərdən keçirək:

1. İnsan şəxsiyyəti maddi və toxunula bilən, hiss edilən deyildir. O, bir sıra amillərin, şəraitin, imkanların və determinantların təsiri altında formalaşan psixoloji törəmədir.

2. İnsan şəxsiyyəti bir sıra amillərin təsirinə məruz qalsa da yalnız onlardan asılı bir törəmə kimi şərh oluna bilməz, çünki o formalaşdığı həmin əsası dialektik olaraq rədd edir.

3. İnsan davranışının determinasiyasında şəxsiyyətin mühüm əhəmiyyət kəsb etməsi barədə çoxlu nəzəriyyə və konsepsiya mövcuddur ki, bunların bir çoxunun "şəxsiyyət" anlayışını şərh etməsi ziddiyyətlidir.

4. Nəhayət, şəxsiyyəti anlamaq insan fenomenini anlamaqla birbaşa əlaqədardır.

Şəxsiyyət yalnız o zaman insanın əsası, özəyi kimi onun başlıca parametri, onun eyniləşdirmə vasitəsi kimi şərh oluna bilər ki, antropologiya və insan haqqında biliklər insanın öz təbiətini anlamaq səviyyəsinə yüksəlmiş olsun. Lakin bütün bu qeyd olunanlar heç də şəxsiyyətin tədqiqi imkanlarının mümkün olduğunu rədd etməyə imkan vermir. Əksinə, şəxsiyyət problemi son nəzəri və eksperimental tədqiqatlar onun öyrənilməsi imkanlarını artırır.

"Şəxsiyyət" sözü Azərbaycan, rus və ingilis dillərində maraqlı və faktiki olaraq eyni etimologiyaya malikdir. Azərbaycan dilində "şəxsiyyət" sözü öz əsasını ərəb sözü olan "şəxs" sözündən götürmüş və hər hansı bir konkret şəxsi, simanı bildirir. Rus dilində "şəxsiyyət" (личность) sözü də "личо", "личина" (üz, sifət) sözləri ilə bağlıdır. İngilis dilində "şəxsiyyət" mənasını ifadə edən "personality" sözü öz əsasını iki latın sözündən –"per" və "sona" sözlərindən götürmüşdür ki, bu da bir növ "vasitəli danışır" mənasını ifadə edir.Qədim Yunanıstanda və Roma imperiyasında şəxsiyyət sözü teatr tamaşasında aktyorun "maskası" şəklində özünü birüzə vermişdir. Adətən, səhnə hərəkətindən asılı olaraq "maska" dəyişilir, aktyor rola daxil olur. Lakin xeyli vaxt keçəndən sonra "persona" sözü hazırki dövrdə daşıdığı məna yükünü daşımağa başlamış, "personality"- "şəxsiyyət" mənasında işlənməyə başlanmışdır.

Beləliklə, şəxsiyyət müasir psixologiya elmində biogenetik, sosiogenetik və psixogenetik elementlərin məcmusu hesab edilir. Şəxsiyyət insan varlığının bir sıra keyfiyyət və vəziyyə-

tinin təzahürü formasıdır. İnsan ümumi anlayışdır. O, bioloji növün bir kateqoriyasıdır. Fərd bioloji varlığın insan növüdür. Şəxsiyyət isə insanı digər bioloji canlılardan fərqləndirən sosial varlıqdır. Şəxsiyyətin sosial mahiyyətini insanın tərbiyə aldığı və iştirak etdiyi ictimai quruluş, mədəniyyət müəyyənləşdirir. Müasir psixologiyada şəxsiyyət anlayışına birmənalı yanaşmamışlar.

Tədqiqatçıların əksəriyyəti hesab edir ki, həyatı boyu formalaşan, özünəməxsus fərdi xüsusiyyətləri, müəyyən təfəkkürü, davranış tərzi, hissləri, ictimai münasibət və ünsiyyəti olan insan şəxsiyyət adlanır (Şəxsiyyət haqqında başqa tərif və fikirlər də vardır).

Şəxsiyyət ətraf mühitin obyektiv qanunları əsasında formalaşır. Bunun da nəticəsində onun sosial davranışı müəyyən məzmun kəsb edir. İnsanın onu əhatə edən fiziki və sosial mühiti öyrənməsi uzun çəkən bir prosesdir. Bu öyrənmə prosesi onun həyatının sonunadək davam edir. Uşaq bir yaş yarımdan sonra "mən" anlayışını başa düşür. Uşaq daim özünü başqaları ilə müqayisə edir. Nəticədə o, ətraf mühitin sosial təcrübəsini qəbul edir, özü də sosiallaşır və formalaşır.

Şəxsiyyətin başqa şəxsiyyətlərlə əlaqəsi olmasa, o, özünü də dərk edə bilməz. Belə ilkin əlaqələr sosial qrup daxilində yaranır. Sosial mühit insanın formalaşmasında güzgü rolunu oynayır. Şəxsiyyətin sosiallaşmasında şəxsi nümunələr, normal həyat tərzi, normal məişət, xoş ailə münasibətləri, yoldaşlar, bilikli müəllimlər, onu əhatə edən insanların ona qayğısı və s. müsbət rol oynayır.

Elmi (psixoloji sahə üzrə) mənbələrdə göstərilir ki, şəxsiyyətin doğulması prosesi dövrlərə ayrıla biləndir. İnsan şəxsiyyət kimi kiçik yaşlarından başlayaraq formalaşmağa başlayır. Psixoloji baxımdan birinci dövrdə şəxsiyyətin "təvəllüd tarixi" əsasən üç yaşında uşağın özünə "Mən" deməsi ilə başlayır. Bu özünəməxsus təvəllüd tarixi bilavasitə pasport yaşı ilə deyil, mahiyyətcə psixoloji yaşla müəyyən olunur, yalnız psixoloji ölçülərlə sistemli araşdırıla bilər. Şəxsiyyətin doğulma-

sının ilk əlamətləri uşağın tələbat-motivasiya sahəsində əmələ gələn dəyişikliklərdə nəzərə çarpır.

İnsanın bir şəxsiyyət kimi formalaşmasının ən mühüm dövrü yeniyetməlik yaşına təsadüf edir. L.İ.Bojoviçin fikrincə, şəxsiyyəti səciyyələndirmək imkanı verən ikinci mühüm meyar davranış motivlərinin məhz dərk olunması, onların sosial normalarla şüurlu surətdə şərtlənməsini nəzərdə tutur. Motivlərin dərk olunmasının psixoloji kökləri var. İkinci dövrdə şəxsiyyətin xüsusi instansiyası kimi mənlik şüuru formalaşır və "Mən - konsepsiya" əmələ gəlir. Mənlik şüuru çoxcəhətlidir, lakin onun strukturunda iki cəhət - psixoloji avtoportret (Mən - obraz) və özünə münasibət xüsusi yer tutur. Mənlik şüurunun üç başlıca funksiyasını - özünüdərketmə, özünütəkmilləşdirmə və həyatın mənasının axtarılması funksiyalarını fərqləndirirlər. Şagirdin bir şəxsiyyət kimi formalaşması prosesində mənlik şüuru əxlaqi şüurla qarşılıqlı əlaqədə inkişaf edir. Mənlik şüuru və əxlaqi şüur – şəxsiyyətin "Mən – konsepsiya"sı mahiyyətcə bu ölçülərə söykənir. Onun başqa insanlara, əməyə, şeylərə və özünə münasibətləri sistemli şəkildə formalaşmağa başlayır.

Şəxsiyyətin aşağıdakı əlamətləri vardır:

1) Şəxsiyyət şüura malik olmalıdır.

2) Şəxsiyyət nitqə malik olmalıdır.

3) Şəxsiyyət ictimai-tarixi təcrübəni mənimsəyə bilməlidir.

4) Şəxsiyyət ictimai-tarixi təcrübəni başqalarına ötürə bilməlidir.

5) Şəxsiyyət əmək alətlərindən istifadə etməyi bacarmalıdır.

6) Şəxsiyət əməyi və əmək alətlərini qoruya bilməlidir.

7) Şəxsiyyət ətraf aləmi yaxşılaşdırmaq haqqında düşünməli və fəaliyyət göstərmilidir.

Şəxsiyyətin təsiri ilə fərdin bütün xüsusiyyətləri inteqrasiyaya uğrayır, riyazi terminlə desək onlar hamısı şəxsiyyət adlanan ümumi məxrəcə gətirilir. Psixologiyada bu cəhəti təhlil etmək üçün inteqral (latınca inteqer – bütöv deməkdir) fərdiyyət

anlayışından istifadə olunur. İnsana bir fərd kimi xas olan xüsusiyyətlər şəxsiyyətin təsirilə yeni məzmun və forma kəsb edirlər.

Psixoloqların fikrincə, hər bir fərdin şəxsiyyətinin formalaşmasında üç mühüm amil əsas rol oynayır ki, bunların da hər biri şəxsiyyətin vücuda gəlib möhkəmlənməsində müstəsna əhəmiyyətə malikdir. Bu, insanın əhval ruhiyyəsi, xüsusiyyətləri və təfəkkür tərzi kimi üç tilin birləşməsindən əmələ gələn üçbucağa oxşayır. Deyilən üç amil aşağıdakılardır: İrsiyyət, təlim-tərbiyə, yaşadığı mühit (şərait).

Şəxsiyyətin inkişafında tərbiyə amili mühüm əhəmiyyət kəsb etməkdədir. Hələ antik dövrün böyük filosofu Platon deyirdi ki, insanı düzgün tərbiyə etsək, o, ən sakit və ilahi məxluq olar. Əgər onu tərbiyə etməsələr və ya yanlış tərbiyə versələr, o zaman o, yer üzərində olan heyvanların ən vəhşisi olar. O, deyirdi ki, dövlətin gücü insanların tərbiyəsindən asılıdır.

İlk dəfə fitri qabiliyyətlər nəzəriyyəsinə zərbəni ingilis filosofu Con Lokk vurmuşdur. O, "Ağ lövhə" nəzəriyyəsini irəli sürərək demişdir ki, insan doğularkən "Ağ lövhə" kimi doğulur. Bu lövhəyə nə yazılarsa, insan da elə inkişaf edəcəkdir. O, belə hesab edirdi ki, uşaq dünyaya nə şair, nə həkim, nə də ağa kimi gəlir, irsən uşağa heç nə verilmir. Con Lokk insan xarakterini axar çaya, tərbiyəni isə bəndlərə bənzədirdi. Axar çayın qarşısına bəndlər vurub onun istiqamətini dəyişmək mümkün olduğu kimi, tərbiyənin gücü ilə insan xarakterini istənilən səmtə yönəltmək olar. Con Lokk iddia edirdi ki, təsadüf etdiyimiz adamların onda doqquzu mövcud olduqları vəziyyətdə-rəhmdil və ya zalım, faydalı və ya faydasız olmalarında tərbiyəyə minnətdardırlar. İnsanlar arasındakı fərqləri məhz tərbiyə yaradır.

XVIII əsrin fransız materialistləri Helvetsi, Didro və başqaları "Ağ lövhə" nəzəriyyəsini əsasən qəbul etmiş və müəyyən qədər yaymağa çalışmışlar. Helvetsi irsiyyət amilini inkar edərək tərbiyə amilini həddən çox şişirdərək deyirdi ki, "Tərbiyə hər şeyə qadirdir". Deni Didro Helvetsiyə və Con Lokka cavab yazaraq deyirdi ki, tərbiyə amilini çox da şişirtmək lazım

deyildir. "Tərbiyə hər şeyə yox, çox şeyə qadirdir. "Ağ lövhə"yə yazmaq əsas şərt deyildir. Əsas şərt "Ağ lövhə"yə kim yazır, nə yazır, necə yazır və hansı alətlə yazır" – budur əsas şərt. Deni Didro demək istəyirdi ki, şəxsiyyətin inkişafı və tərbiyəsində tərbiyəçinin də rolu böyükdür. O necə tərbiyə edir, hansı üsullarla tərbiyə edir, kimi tərbiyə edir və kim tərbiyə edir - əsas məsələ budur.

V.Q.Belinski də uşağın inkişafında irsiyyətin rolunu tam inkar edib, tərbiyənin rolunu həddən artıq şişirdənləri tənqid edərək yazırdı ki, körpənin ruhu üzərində istənilən şeylər yazıla bilən "ağ lövhə" deyildir: "O elə bir toxumdur ki, ondan ağac ola bilər, elə bir imkandır ki, ondan adam ola bilər". Palıd ağacını alma yetişdirməyə məcbur etmək olmaz, çünki, onda alma yetişdirmək imkanı yoxdur, lakin meşədə cır alma ağacını peyvənd etməklə böyük və dadlı almalar yetişdirməyə məcbur emək olar. Bununla V.Q.Belinski insanda qabiliyyətlərin inkişaf etməsi üçün müəyyən təbii imkanların müəyyən rol oynadığını göstərmişdir.

Y.A.Komenski (XVII əsr), K.A.Helvetsi (XVIII əsr) tərbiyənin roluna böyük qiymət vermişlər. Y.A.Komenskiyə görə, insan tərbiyə sayəsində insan olur. O, "hamıya hər şeyi öyrətməyin" (Pansofiya ideyası) mümkün olduğunu qeyd edirdi. XVII əsr fransız pedaqoqu və filosofu Mişel Lepeletye irəli sürdüyü layihələrdə göstərirdi ki, təhsil və tərbiyə vasitəsilə yeni insanlar hazırlamaq və cəmiyyəti təzələmək olar. Onun layihəsinə görə uşaqları milli məktəblərə cəlb etmək və mühitin mənfi təsirindən onları qorumaq mümkündür. Lakin, *Lepeletyenin ideyalarını həyata keçirmək mümkün olmamışdır.*

İrsiyyət dedikdə, valideynlərdən uşaqlara müəyyən keyfiyyət və xüsusiyyətlərin irsən keçməsi başa düşülür. Fiziologiyada isbat olunmuşdur ki, cinsi hüceyrədə olan xromosomlar nəsillər arasında bir növ keçid körpüsü rolunu oynayır; bu əsasda yaranan sinir sistemi insanın təlim almasına və tərbiyə olunmasına imkan yaradır. Fiziologiyada o da isbat olunmuşdur ki, insanların böyük əksəriyyətinin irsi imkanları normada olduğundan,

onların psixoloji inkişaf imkanları da oxşardır; eyni yaş dövründə və eyni şəraitdə normal inkişaf edən insanların əksəriyyətində psixoloji xüsusiyyətlər təqribən bir-birinə yaxın olur. Uşağın malik olduğu irsi və anadangəlmə əlamətlər uşaq şəxsiyyətinin inkişafı üçün müəyyən fizioloji imkan rolunu oynayır. İrsiyyətin daşıyıcısı genlərdir. Müasir elm sübut etmişdir ki, orqanizmin xassələri gen kodunda şifrələnmişdir. Orqanizmin xassələri haqqında bütün informasiyalar məhz orada toplanmışdır. Valideynlərdən uşaqlara həm fiziki əlamətlər (bədən quruluşunun xüsusiyyətləri, saçın, gözün və dərinin rəngi və s.), həm də fizioloji əlamətlər (ali sinir sisteminin xüsusiyyətləri, sinir hüceyrələrinin sayı, psixi pozğunluqları yaradan patoloji qüsurlar, bəzi xəstəliklər – hemofiliya, şəkər və s.) irsən keçir.

Nəzərə almaq lazımdır ki, anadangəlmə əlamətlərin heç də hamısı irsi əlamət hesab edilə bilməz. Bu cür əlamətlərin bəziləri ana bətnində daxili və xarici mühitin təsiri ilə yarana bilir. İrsi əlamət bir nəsildə deyil, bir çox nəsillərdə üzə çıxır və mühitin təsirinə davamlı olur. Anadangəlmə əlamətlər isə bir nəsildə müşahidə edilir və sonrakı nəslə keçməyə də bilir. Odur ki, irsi əlamətlərlə anadan-gəlmə əlamətlər arasında fərq vardır. Pedaqogika elmində şəxsiyyətin formalaşması, inkişafı və tərbiyəsi məsələsində irsiyyətin mövcudluğu nəzərə alınmaqdadır.

Pedaqogikada belə bir fikir formalaşmışdır ki, şəxsiyyətin əxlaqi keyfiyyətləri irsən keçmir, onlar orqanizmin xarici mühitlə qarşılıqlı təsiri prosesində əldə edilir. İnsan anadan xeyirxah, bədxah, səxavətli və ya xəsis kimi doğulmur. Uşaqlar valideynlərinin əxlaqi keyfiyyətlərini irsən götürmürlər. İnsanın necəliyi mühit və tərbiyədən asılıdır, tərbiyə aparıcı rol oynayır. Alimlər genetik proqramı öyrənərkən orada nə xeyir, nə şər, nə də əxlaqla bağlı digər genləri tapa bilməmişlər. Bununla belə, bir çox alimlər “anadangəlmə şər” nəzəriyyəsinə əsaslanaraq iddia edirlər ki, insanlar xeyirxah və bədxah, doğruçul və ya yalançı doğulurlar. İnsanların və heyvanların davranışını öyrənən zaman əldə edilən məlumatlar belə fikir söyləməyə əsas verir.

İnsanın yaxşı və ya pis sifətləri, eləcə də ali və ya alçaq, rəzil xasiyyətləri bu üç amilin vasitəsi ilə formalaşıb inkişaf edir. İrsiyyət barəsində bunu demək kifayətdir ki, bizim təkcə qiyafə və bədən quruluşu kimi zahiri sifətlərimiz övladlarımıza irsən keçmir, həm də valideynlərin batini sifətləri və əxlaqi ruhiyyələri də irsi olaraq onlara nəql olunur.

İnsan şəxsiyyətinin formalaşmasında digər iki amil: təlim-tərbiyə və mühit, yaradanın insan zatında əmanət qoyduğu ali-insani səciyyələrin, onun çiçəklənməsində, eləcə də uşağın valideyndən irsi olaraq onun aldığı xüsusiyyətlərin inkişaf etməsində mühüm rol oynayır. Müəllim bir uşağın, yaxud bir sinfin müqəddəratını tam mənada dəyişə bilər. Çox hallarda mühit tərbiyəsi aşağı səviyyədə olan fərdləri saflaşdıra, yaxud pak fərdləri əxlaqsızlığa uğrada bilər. İnsan şəxsiyyətinin formalaşmasında bu iki amilin təsiri o qədər aydındır ki, bu barədə əlavə izaha ehtiyac duyulmur. Əlbəttə, bunu da yaddan çıxarmayaq ki, (insanın əxlaqının düzgün formalaşmasında) bu üç amildən sonra insanın öz iradəsi və istəyi az əhəmiyyət daşımır.

Mühit dedikdə, başlıca olaraq, ictimai, qismən isə təbii-coğrafi mühit nəzərdə tutulur. Aparılmış tədqiqatlardan belə bir nəticə çıxır ki, sosial mühit şəxsiyyətin inkişafına birbaşa deyil, həyat tərzi vasitəsilə təsir göstərir. Əgər belə olmasaydı, onda mühitin təsiri hamıya eyni cür olardı, həyat tərzinin müxtəlifliyi mühitin təsirinin transformasiya edilməsinə gətirib çıxarır. Eyni mühit daxilində hərənin bir cür həyat tərzi ola bilər ki, həmin həyat tərzi mühitin təsirini transformasiya edir. “Azad tərbiyə” nəzəriyyəsinin əsasını qoyan J.J.Russo (1712-1778) mühitin təsir gücünə müstəsna əhəmiyyət vermişdir. J.J.Russo şəxsiyyətin formalaşmasında irsiyyətin rolunu inkar etmiş və tərbiyənin rolunu isə faktik olaraq kölgədə qoymuşdur. J.J.Russo, düzdür, sözdə tərbiyəni qəbul etmiş, hətta pedaqoji sistemində “azad tərbiyə” və “təbii tərbiyə” anlayışları da işlətmişdir. O, “təbii tərbiyə” dedikdə təbiətin, ətrafdakı adamların, əşyaların uşağa təsirini, “azad tərbiyə” dedikdə isə, təşkil olunmuş mühitin uşağa təsirini nəzərdə tutmuşdur. Göründüyü kimi, Russo

mahiyyətcə mühitin təsir gücünü mütləqləşdirmişdir. O, demişdir: "İnsan azad doğulur, lakin o hər yerdə buxovlanır".

Şəxsiyyətin formalaşması hansı amillərə əsaslanır? Şəxsiyyətin formalaşması dedikdə, hər şeydən əvvəl, təbii, bioloji və anadangəlmə amillərlə xarici, yəni tərbiyənin, təlimin və sosial mühitin qarşılıqlı təsiri nəticəsində baş verən inkişaf prosesi nəzərdə tutulur. Şəxsiyyətin təşəkkülündə bioloji və sosial amillər məsələsi hələ də mübahisəli şəkildə qalır. Lakin məlumdur ki, insan bioloji, təbii quruluşa malik olsa da o, tarixi inkişafın məhsuludur. İnsanın bütün psixi prosesləri ictimai amillərin təsiri ilə şərtlənir. Bu da məlumdur ki, şəxsiyyətin mahiyyəti öz təbiəti etibarilə ictimaidir və onun bütün psixi xassə və keyfiyyətlərinin inkişaf mənbəyi və yaradıcı fəallığı sosial mühitdə və cəmiyyətdədir. Lakin bütün bunlar heç də şəxsiyyətin bioloji, təbii varlıq olduğunu inkar etmək demək deyildir. Aydındır ki, insanın psixi inkişafı üçün müvafiq təbii, bioloji imkanının olması da zəruridir. İnsanın beyni, sinir sistemi və s. olmalıdır. İnsanın təbii xassələri psixi inkişafın zəruri şərtini təşkil edir. Lakin bununla bərabər, təbii xassələr özlüyündə nə insanın xarakterini, qabiliyyətlərini, nə də maraqlarını, əqidələrini, ideallarını təyin etmir. Beynin quruluşu bir bioloji orqan kimi şəxsiyyətin əsasıdır. Şəxsiyyətin bütün keyfiyyət və xassələri isə ictimai varlığın məhsuludur. Ona görə də normal beyinə malik uşaq cəmiyyətin xaricində böyüdülərsə, o heç vaxt şəxsiyyətə çevrilə bilməz. İnsanın sinir sistemi ətraf aləmi dərk etmək üçün müəyyən anadangəlmə imkanlara malikdir. Lakin insanın müvafiq qabiliyyəti məhz fəaliyyət prosesində, ictimai həyat şəraitində təlim – tərbiyə nəticəsində formalaşır. Psixologiya tarixinə nəzər salsaq, şəxsiyyətin formalaşması sahəsində bir-birinin əksini təşkil edən iki nəzəriyyənin – inkişafın endogen və ekzogen nəzəriyyəsinin mövcud olduğunu görərik. Endogen (yunanca endon – daxili, genes – mənşə deməkdir) nəzəriyyələr şəxsiyyətin inkişafını bioloji amillərlə əlaqələndirərək irsiyyətin roluna xüsusi əhəmiyyət verir. Ekzogen nəzəriyyələrdə isə insan bir növ tabula rasaya (ağ lövhə) bənzədilir, formalaşması ancaq

sosial amillərin təsirilə izah olunur. Şəxsiyyətin sosializasiyası ilə bağlı müasir burjua nəzəriyyələrini də mahiyyət etibarilə ekzogen nəzəriyyələr sırasına aid etmək lazımdır. Xarici ölkələrin müasir psixologiyasında insan şəxsiyyətində iki amilin – bioloji və sosial amillərin təsirilə formalaşan iki başlıca yarımstrukturu ayırd edən nəzəriyyələr əsas yer tutur.

Şəxsiyyət nəzəriyyəsinin işlənməsi problemində görkəmli pedaqoq və psixoloqların rolu olduqca böyükdür. Onlar öz əsərlərində şəxsiyyətin münasibətlər sisteminin sosial həyat şəraitindən asılı olduğunu birmənalı şəkildə göstərmişlər. İnsan bir fərd kimi dünyaya gəlir, sosial həyat şəraitində inkişaf edərək şəxsiyyətə çevrilir

Şəxsiyyət haqqında bir sıra nəzəriyyələr vardır. Bu nəzəriyyələri fərqləndirən başlıca cəhət ondan ibarətdir ki, bunların heç də hamısı bir başa şəxsiyyətin psixoloji mahiyyətini müəyyənləşdirməyə yönəldilməyib. Psixoanalitik Z.Freyd qeyd edir ki, şəxsiyyət bir sistem kimi inkişafının konkret hərəkətverici mexanizmlərinə malikdir. O, şəxsiyyətin strukturunu müəyyənləşdirib. Freydə görə 3 instansiya əsas yer tutur:

- İd (O);
- Eqo (Mən);
- Super eqo (Super mən).

Freyd belə hesab edirdi ki, şəxsiyyətin inkişafının hərəkətverici qüvvəsi, hər şeydən əvvəl, libido, cinsi enerjidir. Freydin fikrincə, həyata keçirilməyən arzular nevroz yaradır. O, qeyd edir ki, insana heç vaxt ağıldan bəla gəlmir, bəla arzudan gəlir. Arzuların çoxluğu patologiya yaradır. Arzu və onun ödənilməməsi arasındakı uyğunsuzluq insanın xəstələnməsinə səbəb olur. Bütün bunları əsas götürən Freydin fikrincə, şəxsiyyətin formalaşmasında həmin tələbatların ödənilməsi şəxsiyyətin normal inkişafını təmin edir. Həmçinin o qeyd edirdi ki, qorxunu qorxu ilə müalicə etmək olar.

Şəxsiyyət haqqında digər nəzəriyyə Pavlovun nəzəriyyəsidir. Bu nəzəriyyədə biogen, psixogen və sosiogen elementlərin sintezinin yaradılmasına cəhd edilir. Rus sosioloqu İ.Kon

belə hesab edir ki, şəxsiyyət anlayışı çoxmənalıdır. Bir tərəfdən o, fəaliyyət subyekti kimi konkret fərdi, onun fərdi xüsusiyyətləri (təkcə) ilə sosial rollarını (ümumi) vəhdəti ilə birlikdə göstərir. Digər tərəfdən şəxsiyyət fərdin sosial xüsusiyyəti kimi, onda cəmlənmiş sosial əhəmiyyət daşıyan müəyyən şəxsin başqa adamlarla vasitəsiz və vasitəli qarşılıqlı təsir prosesində yaranmış və öz növbəsində, onu əmək, idrak və ünsiyyət subyekti edən xüsusiyyətlərin toplusu kimi başa düşülür. Ayrı-ayrı adamların fəaliyyətində, davranışında uyğun cəhətlər vardır. Ona görə də insanların uyğun, oxşar sosial əlamətlərinə görə qruplara ayırmaq olar ki, bunu da adətən şəxsiyyət tipləri adlandırırlar. Alman psixoloqu E.Şpanqer şəxsiyyətin 6 tipini nəzərdən keçirir: nəzəri tip (həqiqəti aşkara çıxarmağa meyllilik, tənqidi yanaşma), iqtisadi tip (faydaya meyllilik, praktiklik), estetik tip (dünyanın obrazlı qurulmasına meyllilik), sosial tip (insanlara sevgi), siyasi tip (hakimiyyətə meyllilik), dini tip (fövqəltəbiiliyə inam).

K.Xorni şəxsiyyətin 3 tipini qeyd edir: güzəştə gedən (insanlara istiqamətlənmə), təcrid edilmiş (insanlardan), düşmən (insanlara qarşı).

K.Yunq əsas psixoloji tipləri 2 qismə ayırır: ekstravertlər və introvertlər.

E.Fromm şəxsiyyətin 5 tipini göstərir: reseptiv, istismarçı, yığıcı, bazar və məhsuldar.

Amerikan psixoloqu Karen Xorni (1885-1952) insan şəxsiyyətinin əsasında anadangəlmə narahatlıq hissini qoymuşdur. Onun fikrincə, uşaq həmin hisslə doğulur. Doğulduğu gündən uşaq güclü səviyyədə narahatlıq hissi keçirməyə başlayır və həmin hisslər onun bütün sonrakı həyatına təsir edir, onu bəzəyir, psixi fəaliyyətinin daxili xassəsi kimi özünü göstərməyə başlayır. Mövcud olduğu ilk saniyədən başlayaraq insan dünyaya qarşı düşmənçilik hissi keçirməyə başlayır. Məhz buna əsaslanaraq K.Xorni narahatlıq hissini insan davranışının əsas motivasiyası hesab edir və onu "köklü həyəcan" adlandırır. Onun fikrincə,

“köklü həyəcan” insanı təhlükəsizliyə cəhd göstərməyə məcbur edir.

Şəxsiyyətin iki əsas psixoloji meylləri mövcuddur: ekstraversiya, intraversiya; … Xarici mühitdən həmişə stimulyasiya, “qidalanma”nı tələb edən insanlar ekstravert adlanır. Bu tip insanlar ünsiyyəti sevən, yeni-yeni təəssüratlara can atan, risqə meylli, dəyişiklikləri sevən olur. Həyat fəallığı üçün öz daxilindən stimul götürən, əsasən öz daxili aləmi ilə yaşayan insanlar intravert adlanır. Bu tip insanlar qapalıdır, intizamı sevir, az adamla dostluq edir, lakin dostluqda sadiq olurlar. Şəxsiyyətin psixoloji meyillərindən danışarkən emosional sabitlikdən də danışmaq yerinə düşər. Emosional cəhətdən dəyişkən insanlar daimi emosional gərginliyi, şəxsi təhlükəyə, uğursuzluğa və səhvlərə qarşı həddindən artıq həssaslığı ilə səciyyələnirlər. Emosional cəhətdən sabit insanlara emosional tarazlıq xasdır, onlar başqalarının həyəcanını dərindən hiss etməyə qadir deyil. Şəxsiyyətin xarakter xüsusiyyətinin göstərilən tipologiyası Karl Yung (1875-1961-ci illər) tərəfindən «Psixoloji tiplər» (1921-ci il) kitabında verilmişdir. Adı çəkilən kitab bu günədək ən əsaslı kitablardan biri sayılır, ondan həm nəzəri, həm də praktiki psixologiyada geniş istifadə edilir. A.Adlerin fikrinə görə xaraktrerin formalaşması insan həyatının ilk beş ili ərzində baş verir. Həmin dövrdə insan onda keyfiyyətsizlik kompleksini yaradan mənfi amillərin təsirini öz üzərində hiss edir. Sonralar həmin kompleks şəxsiyyətin davranışına, onun fəallığına, təfəkkür tərzinə və s. mühüm təsir göstərir. Bu tipologiya inandırıcı surətdə göstərir ki, insanların xarakteri müxtəlifdir (ən azı 16 tipli xarakter mövcuddur). Xarakter tiplərinin bir-birinə uyğun gəlməməsinə görə anlaşılmazlıqlar hər kəsin yalnız öz istəklərini heç bir güzəştə yol vermədən müdafiə etdikdə başlanır. İnsanlar öz xarakterlərinin xüsusiyyətlərini nə qədər yaxşı bilsələr, bir o qədər başqa insanlarla onların qarşılıqlı əlaqələri xeyirli ola bilər.

Erik Eriksonun (1902-1994) nəzəriyyəsinin məğzi ondan ibarətdir ki, o, şəxsiyyətin psixososial inkişafında hər bir insan

tərəfindən öz böhranının keçirilməsi ilə bağlı olan mərhələləri ideyasını irəli sürüb və əsaslandırıb. Lakin hər bir yaş dövründə böhran vəziyyətinin ya əlverişli, ya da əlverişsiz surətdə dəf edilməsi baş verir, şəxsiyyətin inkişaf səviyyəsi şəxsiyyətlərarası münaqişələrin yaranmasına təsir göstərən daha bir vacib amildir. Şəxsiyyət özünün sosiallaşması, sosial təcrübənin fəal surətdə mənimsəməsi və təkrar istehsal etməsi prosesində inkişaf edir və təkmilləşir. İnsan öz hərəkətlərini hamı tərəfindən qəbul edilmiş normalara və ətrafdakıların davranış qaydalarına uyğun dəyişdirməyə məcburdur. Bunun üçün də o öz temperamentinin və xasiyyətinin təzahürünü daim nəzarət altında saxlamalı olur.

Şəxsiyyətin strukturunda aşağıdakı üç vacib psixoloji xarakteristika ayırd edilir:

1) Şəxsiyyətin sabitliyi. Bu zaman şəxsiyyətin psixi təzahürlərinin dəyişkənliyi və sabitliyi bu və ya digər məqamlarda onun davranışının qabaqcadan müəyyənləşməsini açıq şəkildə ortaya çıxarır. Davamlı motivlər sistemi şəxsiyyətin istiqamətini müəyyən edir.

2) Şəxsiyyətin tamlığı. Bu zaman onun bütün cəhətləri digər cəhətləri ilə sıx əlaqədə olur və buna görə də şəxsiyyətin bütün cəhətləri onun digər cəhətləri üçün vacib əhəmiyyət kəsb edir. Məsələn, insanın qarşıya qoyduğu məqsədinə çatması bacarığı, çətinlikləri dəf etməsi yalnız yüksək mənəvi keyfiyyətlərlə vəhdətdə olduqda müsbət əhəmiyyət kəsb edir.

3) Şəxsiyyətin fəallığı. Şəxsiyyətin çoxtərəfli fəaliyyətində ortaya çıxır və bu da öz növbəsində nəyi isə dərk etmək, dəyişmək, ətraf aləmi yeniləşdirmək, öz təbiətini, öz psixi xarakterini dəyişdirməklə özünütərbiyədə aşkarlanır.

Şəxsiyyətin özünə məxsus psixoloji strukturu var. Psixoloji ədəbiyyatda qeyd olunduğu kimi, insanın şəxsiyyətə çevrilməsi üç psixoloji kateqoriyanın nəticəsidir. bunlar: inikas – ünsiyyət - fəaliyyətdir. Bu baxımdan şəxsiyyətin psixoloji strukturunun əsasında birinci növbədə onun idrak prosesləri durur. İnsan həyata gəldikdən sonra duyğu orqanları vasitəsi ilə cisim və hadisələrini əks etdirərək psixi inkişafa nail olur. Şəxsiyyətin

strukturunda onun idrak prosesləri əsasında və onunla yanaşı aşağıda başlıca yarımstrukturlar, komponentlər qeyd olunur:

Şəxsiyyətin istiqaməti. Buraya onun dünyagörüşü, ictimai mövqeyi, tələbatları, maraq və meylləri, əqidə və idealları, adət və ənənələri, ideya və praktik yönəlişlik sistemi və s daxildir. Bu zaman yönəlişliyin komponentlərindən biri dominantlıq təşkil edir və aparıcı olur. Dominantlıq təşkil edən istiqamət şəxsiyyətin bütün psixi fəaliyyətini müəyyənləşdirir.

Şəxsiyyətin strukturunda sonrakı mühüm yarımstrukturu onun hazırlıq səviyyəsi təşkil edir. Buraya şəxsiyyətin əldə etdiyi bilik, bacarıq və vərdişlər sistemi daxildir.

Şəxsiyyətin strukturunda mühüm yer tutan yarımstrukturlardan, komponentlərdən biri də onun imkanlarını müəyyənləşdirən və fəaliyyətin müvəffəqiyyətini təmin edən qabiliyyətlər sistemindən ibarətdir.

Şəxsiyyətin strukturunda mühüm yer tutan digər komponenti insanın həyatda qazandığı davranış forması, başqa sözlə onun xarakteridir.

Nəhayət, bu komponentlərin hamısının üzərində şəxsiyyətin mənliyi, yəni özünü dərk edib anlaması, öz davranışını nizama salıb idarə etməsi "hökmranlıq" edir.

**Sual və tapşırıqlar**

1.Şəxsiyyətin inkişafının psixoloji əsasları hansılardır?

2.Şəxsiyyətin inişafında irsiyyət və mühitin rolu nədən ibarətdir?

3.Şəxsiyyətin inkişafında milli-mənəvi dəyərlərdən istifadə imkanları.

4.Şəxsiyyətin inkişafında və formalaşmasında ailə mühiti əsas amil kimi.

5.Şəxsiyyət haqqında nəzəriyyələr.

## Ədəbiyyat

1. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri, Bakı: Azərnəşr, 1981, 190 s.
2. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya Bakı: Qapp-Poliqraf korporasiyası,2003, 540 s.
3. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Sosial psixologiya, Bakı: Qapp-Poliqraf korporasiyası, 2003, 356 s.
4. Əliyev R.İ. Psixologiya. Bakı: Nurlan, 2008, 351 s.
5. Əliyev R. İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 196 s.
6. Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Bakı: "MBM", 2007, 200 s.
7. Seyidov S., Həmzəyev M. Psixologiya, Bakı, Nurlan,2007.

## 1.2 Fərd, şəxsiyyət və fərdiyyət anlayışları

Şəxsiyyət psixologiyası problemi ictimai ideallların, sərvətlərin, ictimai münasibətlərin, insanların fəaliyyətinin və ünsiyyətinin ifadəsi və subyekti kimi araşdırılır. İnsan problemi psixologiya elmi üçün ən əhəmiyyətli məsələdir, tarixin inkişafının dönüş mərhələsində xüsusi aktuallıq kəsb edir. Bu problem nəinki ayrıca fərdin, həm də bütün cəmiyyətin mövcudluğunun mənası və məqsədi baxımından həmişə daha kəskin məsələ kimi səciyyələnir. Antik dövrün müdriklərindən biri çox dəqiq və obrazlı şəkildə demişdir: "İnsan üçün insanın özündən maraqlı obyekt yoxdur".

Şəxsiyyət anlayışının geniş təhlili baxımından ilk öncə "insan", "fərd" və "fərdiyyət" anlayışlarının konkret müqayisəli izahı əsas kimi götürülür.

İnsan həqiqətən sirli varlıqdır. Bu varlıq öz mahiyyətində bioloji, sosial, mənəvi-psixoloji komponentləri ehtiva edir.

İnsan nə deməkdir? Bu suala fəlsəfə, antropologiya, psixologiya və sosiologiya kimi bir çox elmlər cavab verməyə çalışmışlar. İnsan hər şeydən əvvəl bioloji varlıqdır və bioloji təsnifata görə «Homo Sapiens» (ağıllı insan) növünə daxildir. Bioloji növ kimi xüsusi bədən quruluşuna, müəyyən anatomik-fizioloji imkanlara malik olur. Elə imkanlara ki, onlar bu növün şəxsiyyətə çevrilməsini mümkün edir. Ona görə də demək olar ki, insan – gələcəkdə şəxsiyyətə çevrilə biləcək, anadangəlmə irsi imkanlara malik canlı varlıqdır. İnsan öz təbiəti etibarilə bioloji olduğu halda, mahiyyət etibarilə sosialdır. İnsanı fərqləndirən xüsusiyyətlərdən biri ondan ibarətdir ki, o, özünün subyektiv aləmində gedən prosesləri dərk edir. Həm filogenetik və həm də ontogenetik inkişaf prosesində özünüdərketmə insanın inkişafının zirvəsini təşkil edir.

Məşhur Amerika futuroloqları Con Nesbitt və Patrisiya Eburdinin fikrincə, XXI əsrdə ən heyrətamiz kəşflər elmin və texnikanın inkişafı sayəsində deyil, "insan" anlayışının yeni baxımda qiymətləndirilməsi sayəsində ediləcəkdir. İnsan anlayışı isə dəyişir: vaxtilə homo sapines (ağıllı insan) anlamı geniş yayılmışdı. Sonralar homo habilis (bacarıqlı insan) anlamı əmələ gəldi. Bu gün isə insan anlamında onun yaradıcılıq əzmi xüsusilə vurğulanır. Elmi-texniki inqilab şəraitində homo libens, homo pictor (sənətkar insan, yaradıcı insan) anlamının yaranması bəşəriyyət üçün xüsusilə aktualdır.Təsadüfi deyildir ki, müasir psixologiya məhz uşağın yaradıcılıq imkanlarının üzə çıxarılması və həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılmasını təhsilin başlıca məqsədi sayır. İnsan idrakının üfüqləri genişləndikcə, elm və texnikanın uğurları artdıqca, bəşəriyyət şəxsiyyəti daha ülvi ölçülərlə qiymətləndirməyə başlayır.

İnsan mürəkkəb bütöv sistemdir, lakin öz növbəsində daha mürəkkəb sistemin - bioloji və sosial sistemlərin komponentidir. Bu onunla şərtlənir ki, insan həm bioloji və eləcə də sosial varlıqdır. İnsan məhz biososial varlıq kimi yaranır və inkişaf edir. İnsan mahiyyətində bioloji ilə sosialın nisbəti məsələsinə dair müxtəlif fikirlər mövcud olsa da, bu məsələ ilə bağlı iki mövqe

diqqəti daha çox cəlb edir. Həmin mövqelərdən birinə görə insanın təbiəti bütövlükdə sosial məna daşıyır. Digər nöqteyi-nəzər insanın təbiətinin nəinki bioloji eləcə də, sosial mahiyyətə malik olduğunu iddia edir. Həmin amillərin mövcudluğunu hamı etiraf etsə də, insanın inkişafında sosial və bioloji amillərin nisbəti məsələsi bu günə qədər elmi mübahisələr obyektidir.

Sosial və istehsal əlaqələrinin çoxşaxəliliyində insan inkişaf edir və bu inkişaf onun psixikasının formalaşması, şəxsiyyətin xüsusiyyətlərinin təkmilləşməsi üçün real zəmin yaradır. Şəxsiyyətin xassələrinin formalaşması sinir sistemi fəaliyyətinin xüsusiyyətlərindən - temperamentdən, neyrodinamik və konstitusion-biokimyəvi proseslərdən də asılıdır.

Şəxsiyyət probleminin öyrənilməsi baxımından "fərd" anlayışının izahı daha vacibdir. O, hər hansı bütövün bölünməz hissəsi kimi səciyyələnir. İnsan fərd kimi insan nəslinin ayrıca nümayəndəsi baxımından nəzərdən keçirilir. Fərd çoxsaylı insan varlıqlarından biridir və həmişə qeyri-şəxsiyyət kimi səciyyələnir. Bu mənada "fərd" və "şəxsiyyət" həm həcminə, həm də məzmununa görə bir-birinə əks anlayışlardır. Fərdilik insanın sadəcə olaraq bölünməzliyi deyil, hər şeydən əvvəl, onun təkliyinin və özünəməxsusluğunun xarakteristikasıdır. Q.İ.Qurdçiyev ədalətli olaraq iddia edir ki, insan çoxluqdur və onda "fərdiyyət yoxdur, ayrıca böyük Mən yoxdur".

Biz uşağı fərd kimi səciyyələndirərkən, birinci növbədə onun insan növünə mənsub olduğunu qeyd edirik. Fərd anlayışında insanın növə mənsubluğu öz əksini tapır.

İnsanı fərd kimi səciyyələndirən göstəricilər aşağıdakılardır:

1.Onun anatomik-fizioloji əlamətləri ( bədən quruluşunun və sinir sistemi tipinin xüsusiyyətləri);

2.Psixi göstəricilər (hər bir fərdin psixikası bir çox cəhətdən genotipik amillərlə şərtlənir). Buna görə insanın fərd kimi götürülməsi bir tərəfdən genotip məzmun daşıyır, digər tərəfdən isə fenotip xarakterlidir.

Fərd – özünəməxsus psixoloji xüsusiyyətləri olan, heç kəsə oxşamayan təbii varlıq deməkdir. Bu baxımdan hər bir insan – həm təzə doğulmuş uşaq, həm anormal insanlar fərddir. İnsan fərd kimi doğulur, cəmiyyətdə müəyyən sosial keyfiyyətlər qazanır və şəxsə, son nəticədə isə şəxsiyyətə çevrilir. Yeni doğulmuş uşaqlar təlim-tərbiyə sayəsində inkişaf edib şəxsə və şəxsiyyətə çevrilə bilər. Anormal insanlar isə fərd kimi qalır. Şəxs bioloji və sosioloji xüsusiyyətlərin toplusudur. O, cəmiyyətin bir üzvü kimi sosial münasibətlər sisteminə daxil olur, bu prosesdə insanda müxtəlif sosial keyfiyyətlər formalaşır. Şəxsin bir şəxsiyyət kimi formalaşması üçün isə bir çox mənəvi keyfiyyətə sahib olmaları lazımdır.

İnsanın inkişafının konkret-tarixi xüsusiyyətlərinin onun fərdi və tarixi inkişafının müxtəlif səviyyələrində əks etdirmək məqsədilə "fərd" anlayışı ilə yanaşı "şəxsiyyət" anlayışından da istifadə olunur. Belə halda fərd şəxsiyyətin formalaşmasının əsası kimi nəzərdən keçirilir. Şəxsiyyət bütün insani keyfiyyətlərin daha tam şəkildə təcəssümüdür.

Fərd ictimai münasibətləri öz-özünə deyil, ancaq özünün aktiv fəaliyyəti vasitəsilə mənimsəyir. Bu nöqteyi-nəzərdən fəaliyyət şəxsiyyətin formalaşmasının əsas şərtlərindən biri kimi qiymətləndirilməlidir.

Şəxsiyyətin inkişafı və cəmiyyətdə müxtəlif sosial rolları yerinə yetirməsi yalnız insanın fəaliyyəti sayəsində baş verir. Fərd ancaq fəaliyyət prosesində şəxsiyyət kimi çıxış edir, özünü təsdiqləyir.

Fərd bir tərəfdən fəaliyyət prosesində təzahür edir, digər tərəfdən isə həmin keyfiyyətlər bu fəaliyyətin gedişində təşəkkül tapır və formalaşır. Fərd anlayışının insan sistemində əsas rolu bundadır ki, o, insanın sosiallaşması prosesinin əsasında durur, məhz sonuncunun nəticəsində insan sözün əsl mənasında sosial varlığa çevrilir. Şəxsiyyət ontogenez prosesində fərdin sosiallaşmasının nəticəsi kimi çıxış etməklə, insanın sosial mahiyyətini göstərir.

İnsan psixoloji baxımdan hər şeydən əvvəl, şəxsiyyətin formalaşmasının baş verdiyi prosesdə, başqa sözlə fərdin sosiallaşması əsasında reallaşır. Leontyevin dəqiq ifadə etdiyi kimi "şəxsiyyət doğulmur, şəxsiyyət təşəkkül tapır". Sosiallaşma nə qədər ki, dinamik xarakter daşıyır, şəxsiyyətin təşəkkülü bir o qədər daimilik kəsb edir. Hər bir fərd özünəməxsus xüsusiyyətlərə malik olmaq hüququna malikdir. Bu, onun sosiallaşma ilə genişlənən təbii göstəricisidir.

"İnsan" və "fərd" anlayışlarının konkret açıqlanması "şəxsiyyət" anlayışının təhlilinə xidmət edir. Ümumiyyətlə, şəxsiyyət fərdin inkişafının nəticəsidir, bütün insani keyfiyyətlərinin daha tam şəkildə təcəssümüdür. İnsanın sosial mahiyyətini səyciyyələndirərək V.Solovyev qeyd edir ki, cəmiyyət təkmilləşmiş, genişlənmiş şəxsiyyətdir, şəxsiyyət isə sıxılmış və ya bir yerə yığılmış cəmiyyətdir. Mövcud cəmiyyətin sosial əhəmiyyətli cəhətlərinin fərdi daşıyıcısı kimi çıxış edən hər bir insan şəxsiyyət anlayışına daxildir. Şəxsiyyət sosial mahiyyət kəsb edən bioloji-sosial varlıqdır. İnsanların sosial inkişafının ümumi səviyyəsi isə onların mənəvi aləmindən kənarda təsəvvür oluna bilməz. Şəxsiyyət fərdin xarakterində konkret ifadə olunan sima kimi çıxış edir.

İnsanı həm bioloji, həm sosioloji, həm də yüksək mənəvi keyfiyyətlərə sahib olan varlıq kimi şəxsiyyət termini ilə ifadə edirlər. Şəxsiyyət fəal varlıqdır. O, cəmiyyəti dəyişə bilir, təkmilləşdirə bilir və eyni zamanda özü də müsbət istiqamətdə dəyişərək təkmilləşir, özünənəzarətə sahib olur. Şəxsiyyəti şəxsdən fərqləndirən əsas xüsusiyyətlərdən biri onun mənəvi keyfiyyətlərə sahib olmasıdır. Şəxsiyyət zirvəsinə çatmaq uzun bir mənəvi inkişaf yolu tələb edir. Şəxsiyyət sosial və psixoloji baxımdan bir inkişaf prosesinin son mərhələsidir. Şəxsiyyətə çevrilmək müəyyən həyat mövqeyi, hər şeydən əvvəl əxlaqi mövqe tutmaq, öz mövqeyini cəmiyyətin üzvü kimi aydın dərk etmək və onun üçün məsuliyyət daşımaq, özünün hərəkətlərini, bütün həyatı ilə onu təsdiq etmək deməkdir.

Şəxsiyyət pedaqoji və psixoloji baxımdan müxtəlif xüsusiyyətlərlə, ilk növbədə ictimai fəallıq, motivlərin davamlı sistemi, şəxsi məna və münasibət kateqoriyaları ilə xarakterizə olunur.

İnsanı orqanizm, fərd və şəxsiyyət kontekstində xarakterizə etmək olar. Orqanizm anlayışı bioloji elmlər, şəxsiyyət anlayışı isə sosial elmlər kontekstində formalaşmışdır. Psixologiya insanı fərd və şəxsiyyət kimi öyrənir.İnsanın bioloji varlıq kimi psixoloji keyfiyyətlərini fərd termini, sosial varlıq kimi psixoloji keyfiyyətlərini isə şəxsiyyət termini ilə ifadə edirlər. Fərd insan nəslinin özünəməxsus ümumi, spesifik cəhətlərini özündə birləşdirən ayrıca nümayəndəsidir. Deməli, fərd cəmiyyəti və sosial qrupu təşkil edən nümayəndələrdən biri kimi özünü göstərir. Fərd – özünəməxsus psixoloji xüsusiyyətləri olan, heç kəsə oxşamayan təbii varlıq deməkdir. Fərd həm bioloji, həm sosial, həm də psixi tərəflərə malikdir. Yəni biz fərd dedikdə, buraya yenicə doğulmuş körpəni, yaşlı adamı və ağıldankəm, elementar vərdişləri belə mənimsəyə bilməyən ağılsızları da aid edə bilərik.

İnsan fərd kimi doğulur, cəmiyyətdə müəyyən sosial keyfiyyətlər kəsb edir və şəxsiyyətə çevrilir. Şəxsiyyət bioloji, sosial və psixoloji münasibətləri inteqrasiya edərək, fərdin özünəməxsus simasının yaranması prosesidir. Məhz bu ierarxik münasibətlər sistemi inteqrativ bir keyfiyyət kimi şəxsiyyəti səciyyələndirir (Prof. B.Əliyev). Şəxsiyyət dedikdə, hər şeydən əvvəl, fərdi bu və ya digər cəmiyyətin üzvü kimi xarakterizə edən sosial keyfiyyətlərin sistemi nəzərdə tutulur. O, münasibət subyektinə, şüurlu fəaliyyət subyektinə çevrilir. Yəni, şəxsiyyət ancaq şüur və mənlik şüurunun yaranması ilə birlikdə əmələ gəlir. Şəxsiyyət – yüksək düşüncəsi, öz hərəkət və davranışları üçün məsuliyyət hissini, şəxsi ləyaqətini və başqa yüksək mənəvi keyfiyyətləri özündə birləşdirən insandır. Şəxsiyyət – müstəqil, sosial, fəal olan adamdır. Əgər şəxsiyyət öz mahiyyətinə görə sosialdırsa, mövcudluq üsuluna görə fərddir. Şəxsiyyətə hansı tərəfdən yanaşsaq görərik ki, şəxsiyyət o adamdır ki, onun bir sıra

psixoloji keyfiyyətləri olsun. Onları aşağıdakı kimi xarakterizə edə bilərik:

Şəxsiyyət o adamdır ki, başqalarını qavrayıb qiymətləndirməklə bərabər, öz mənliyini də dərk edib qiymətləndirsin.

- Şəxsiyyət o adamdır ki, mühitə aydın dərk olunmuş münasibəti olsun:
- Cəmiyyəti təşkil edən insanlara münasibəti;
- Onu əhatə edən əşyalara münasibəti;
- Əməyə münasibəti;
- Öz məninə münasibəti;
- Adət-ənənəyə münasibəti.

Şəxsiyyət fəal insandır. O adam ki, cəmiyyəti dəyişə bilir, təkmilləşdirə bilir, özünü də təkmilləşdirir, özünə nəzarət edir.

Şəxsiyyət o adamdır ki, özünün əqidəsi, sərvət meyli var. Müasir fəlsəfi fikirdə şəxsiyyət haqqında iki başlıca konsepsiya mövcuddur. Birinci konsepsiya şəxsiyyəti insanın funksional xarakteristikası və ya rolu baxımdan qiymətləndirir. Digər konsepsiyaya görə şəxsiyyət mahiyyəti ilə səciyyələnir. Funsional aspekt şəxsiyyətin fəaliyyətinin necə həyata keçirilməsi ilə şərtlənir. Bu konsepsiya XX əsrin 30-cu illərində Amerika sosial psixologiyasına S.Mid tərəfindən gətirilmiş, müxtəlif sosioloji cərəyanlarda geniş yayılmışdır. Lakin bu konsepsiya insanın daxili aləmini dərindən açıqlamağa imkan yaratmır.

Şəxsiyyət anlayışını daha dərindən açıqlamağa ikinci cərəyan daha geniş imkan yaradır, o şəxsiyyətin mahiyyətli xarakteristikasını üzə çıxarır, onun tənzimləyici –mənəvi imkanlarını, iradə mənbəyini və xarakterinin mahiyyətini, azad hərəkətlərinin subyektini, insanın daxili həyatının ali cəhətlərini ifadə edir. A.Spirkin yazır: “Şəxsiyyət ictimai münasibətlərin və insanların funksiyalarının fərdi əsasıdır, dünyanın dərk olunmasının və dəyişdirilməsinin, hüquq və fəlsəfənin etik, estetik və bütün digər sosial normaların subyektidir”. Məhz bu cəhətdən şəxsiyyət həmişə mənəvi cəhətdən inkişaf etmiş insandır.

Psixoloji ədəbiyyatda şəxsiyyətin mahiyyətinin müəyyənləşdirilməsi digər mövqelərdən də təhlil olunur. Bu baxımdan

fəaliyyət konsepsiyası maraq doğurur. L.S.Viqotski şəxsiyyəti hər şeydən əvvəl, fəaliyyətdə olan varlıq kimi araşdırır. Çünki şəxsiyyətin məqsədi, vəzifələri, davranış və hərəkətləri yalnız insanın fəaliyyətində üzə çıxır. Beləliklə, şəxsiyyət insanın sosial və bioloji başlanğıcının yekunlaşdırıcı funksiyası kimi çıxış edir. Şəxsiyyətin inteqrativ başlanğıca malik fenomen olmaq etibarilə insanda üç aləmin –bioloji, sosial və psixoloji komponentlərin daşıyıcısı olduğunu bilirik. "Şəxsiyyət" onu təşkil edən üç başlıca cəhətin: biogenetik qabiliyyətin, sosial amillərin və psixososial əsasın məcmusudur.

Şəxsiyyətin xarakteristikasını onun azadlığı ilə əlaqələndirməyə cəhd edənlərə də təsadüf olunur. Azadlığı məsuliyyətdən kənarda təsəvvür etmək ağlasığan deyildir. Şəxsiyyət olmaq nə qədər ucalıqdırsa və əhəmiyyətlidirsə, özünün və başqalarının qarşısında məsuliyyət daşımaq hissi bir o qədər şərəflidir.

Şəxsiyyət olmaq etibarilə insanın mahiyyətini asanlıqla heçə endirmək, dəyişdirmək və ya ona zərər yetirmək olmaz. Şəraiti dəyişdirməklə şəxsiyyət demək olar ki, tamamilə dəyişilə bilər, eləcə də bu prosesdə onun itirilməsi mümkündür. Öz növbəsində insanın mahiyyəti onun fiziki və zehni vəziyyətinin bazasıdır.

"Şəxsiyyət" anlayışının məzmununu təşkil edən cəhətlərin məzmununun müəyyənlişdirilməsi iki başlıca əhəmiyyətə malikdir:

-Birinci əhəmiyyət şəxsiyyətin sosial dəyərini səciyyələndirir. Şəxsiyyət insani fərddir. Münasibətlərin və şüurlu fəaliyyətin fəal, məqsədyönlü subyektidir.

-İkinci əhəmiyyət insanın sosial-psixoloji simasının kifayət qədər sabit təzahürünü əks etdirir. Burada şəxsiyyət fərdləri səciyyələndirən daimi və müəyyən sosial dəyərli cəhətlərin məcmusu kimi çıxış edir. Şəxsiyyət empirik fərddən həmişə fərqlənir, çünki o, öz hərəkətlərində və qərarlarında müəyyən dəyərlər sisteminə cəlb olunur. Şəxsiyyət dəyərlər sisteminin özünəməxsus daşıyıcısı olmaqla insanın şifahi və əşya forması kimi maddiləşir. Buna görə insan öz həyatını düşündüyü ideal plana

uyğun təşkil edə bilər və müəyyən dərəcədə onu şəraiti özünə tabe etmək iqtidarında olması mümkündür.

Sosial şəxsiyyət insanlarla ünsiyyətdə təşəkkül tapır. Mahiyyət etibarilə o, insanın müxtəlif qruplarda sosial rolları sistemi kimi təsəvvür olunur. Heç də təsadüfi deyil ki, şəxsiyyət barədə mövcud olan konsepsiyaların əksəriyyətində fərdin təbii-fərdi xarakteristikasını adətən "şəxsiyyət" anlayışına aid etmirlər. Çünki şəxsiyyət fərdin xarakterində konkret sosial simadır. Lakin qeyd olunmalıdır ki, fərdiyyət və onun xüsusiyyətləri şəxsiyyətin inkişafına öz təsirini göstərir.

İnsanın sosial fəaliyyəti yalnız bioloji zəmində təşəkkül tapmır. İnsan konkret tarixi zamanda və sosial məkanda , praktiki fəaliyyət və tərbiyə prosesində formalaşır. Buna görə də şəxsiyyət sosial fərdiyyət olmaq etibarilə həmişə konkret nəticə, sintez və xeyli müxtəlif amillərin qarşılqlı fəaliyyəti kimi səciyyələnir. Şəxsiyyət nə qədər əhəmiyyətlidirsə bir o qədər insanın sosial-mədəni təcrübəsini mənimsəyir və öz növbəsində onun inkişafına fərdi töhfə bəxş edir. İnsan şəxsiyyət kimi əməli fəaliyyətində təsdiqlənir. Başqa sözlə, insanın sosial fəaliyyətinin mahiyyətinin əsasını fərd təşkil edir və şəxsiyyətin formalaşması da bu zəmində baş verir. Berdiyev yazırdı: "Şəxsiyyət mənəvi-dini kateqoriyadır, fərd isə təbii-bioloji kateqoriyadır. Fərd təbiətin və cəmiyyətin bir hissəsidir. Şəxsiyyət nəyinsə bir hissəsi ola bilməz".

Şəxsiyyətin sosiallaşmasının ən mühüm məqamı onun özünü aktuallaşdırmasıdır. Sosiallaşma geniş anlayış olmaqla şəxsiyyətin həyat fəaliyyətinin bütün sferalarını əhatə edir.

Sosiallaşma şəxsiyyətin təşəkkül prosesi, onun cəmiyyətin tələblərini daimi mənimsəməsi, şüur və davranışda şəxsiyyətlə cəmiyyətin qarşılıqlı fəaliyyətini tənzimləyən sosial əhəmiyyətli cəhətlərin qərarlaşması kimi nəzərə çarpır. Şəxsiyyətin sosiallaşması zaman etibarilə bu və ya digər dərəcədə onun bütün həyatı boyu müşahidə olunur.

Anadan təzəcə doğulmuş uşaq hələ şəxsiyyət deyil. O, ünsiyyət və fəaliyyət prosesində ictimai münasibətləri mənimsə-

dikcə şəxsiyyətə çevrilir. Fərdin cəmiyyətdə şəxsiyyət kimi inkişafı çoxcəhətlidir. Burada dialektik surətdə iki proses uzlaşır. Bir tərəfdən, şəxsiyyət ictimai münasibətlər sisteminə daha geniş daxil olur; onun insanlarla və ictimai həyatın müxtəlif sahələri ilə əlaqələri genişlənir və dərinləşir, məhz bunun sayəsində o, ictimai təcrübəyə yiyələnir, onu mənimsəyir, öz sərvətinə çevirir. Şəxsiyyətin inkişafının bu cəhəti onun ictimailəşməsi (sosializasiyası) kimi xarakterizə olunur. Digər tərəfdən, şəxsiyyət ictimai həyatın müxtəlif sahələrinə qovuşduqca, eyni zamanda daha çox müstəqillik, nisbi avtonomluq kəsb edir, yəni onun cəmiyyətdə inkişafının mühüm cəhətini fərdiləşmə prosesi təşkil edir.

Fərd şəxsiyyətə çevrildikdə həm də fərdiyyət xüsusiyyətlərini kəsb edir.

İnsanın fərddən şəxsiyyətə doğru yüksəlişində "fərdiyyət" (fərdilik) çox mühüm yer tutur.

"Fərdiyyət" latın mənşəli individium sözündən olub, hərfi mənası ayrıca, fərdi, xüsusi deməkdir. Fərdiyyətin , fərdiliyin yaranması universal xarakterli prinsip olan fərdiləşmə prosesinin nəticəsi kimi çıxış edir. Bu prinsip maddi aləmin bütün sahələrində özünü göstərir. Sosial həyatda onun ən yüksək pilləsi-insanın fərdiləşməsi mövcuddur.

İnsan fərdiliyini müəyyən etmək əslində konkret bir suyektin yalnız ona xas olan göstəricilərinə əsaslanmaqla, onun bütöv təsəvvürünü vermək deməkdir. Buna görə də insanı araşdırarkən bu anlayışı təhlil etmədən keçinmək olmaz. Hər bir fərdiyyəti səciyyələndirən spesifik keyfiyyətləri müəyyən etmək son dərəcə çətin məsələdir. Söhbət ayrıca bir insanın sadəcə olaraq seçilib götürülməsindən başlayaraq, onun təkrarolunmazlığının və unikallığının formalaşması və inkişafı kimi çoxcəhətli problemə qədər bir çox mürəkkəb məsələlər kompleksinin həll edilməsindən gedir.

Ümumilikdə götürdükdə fərdiyyət anlayışını müəyyən bir fərdi digər insanlar kütləsindən fərqləndirən xassələrin və qabiliyyətlərin məcmusu kimi səciyyələndirmək olar.

Fərdiyyət fəlsəfi mənaya malikdir. Bu məna insanın təkliyindən və yaxud onun təkrarolunmazlığından ibarətdir. Bəzi filosoflar insan anlayışının mahiyyətini açarkən göstərir ki, burada onun özünün fərdi cəhətləri, yəni bütün insanlar arasında təkcə ona məxsus cəhətlər əsas yer tutur. Bu onda təkcənin (ayrıcanın) ifadə olunması deməkdir.

Unikallıq (təkrarolunmazlıq) fərdiyyətin çox mühüm əlaməti olsa da, yeganə əsas keyfiyyəti deyildir.

Bəzən insan fərdiliyini birmənalı şəkildə, onun qabiliyyət və istedadının rəngarəngliyi ilə izah edirlər. Bu fikirlə də razılaşmaq çətindir. Əslində fərdiliyin kökləri insanın təbii-genetik və sosial keyfiyyətlərinə söykənir. Birinci tərəf onda təzahür edir ki, təbiətin özü hər bir fərddə ümumi növ əlamətləri ilə yanaşı özünəməxsus və təkrarolunmaz keyfiyyətlərin olmasını şərtləndirir. Belə ki, hər bir insan orqanizminə genetik baxımdan yanaşdıqda, onun bioloji təkrarsızlığa malik olduğu aşkara çıxır. Bu keyfiyyət həmin şəxsin genotipik proqramı ilə müəyyənləşdirilir və ətraf mühitin bütün dəyişmələrində sabit qalır.

Fərdilik ikinci bir tərəfdən sosial amillər ilə şərtlənir. Belə ki, cəmiyyətin mövcudluğu və inkişafı onun üzvləri olan insanların müxtəlif səviyyəyə malik olmasını nəzərdə tutur.

Bir tərəfdən cəmiyyət öz üzvlərinin davranış və fəaliyyətinin müəyyən qədər sosializasiyasını tələb edir, digər tərəfdən isə, o, öz üzvlərinin fərdi xüsusiyyətlərini qorumadan və inkişaf etdirmədən fəaliyyət göstərə bilməz. Deməli, fərdiyyət bir növ insanın mövcudluğunun ictimai üsulu kimi çıxış edir.

Fərdiyyət anlayışının əsas mahiyyəti bundadır ki, o bütöv səciyyə daşıyır, yəni fərd haqqında vahid, çoxsəviyyəli və hərtərəfli təsəvvür yaradır. Bu anlayış vasitəsilə vahid sistem kimi götürülən konkret insanın daxili, bir-birilə qarşılıqlı asılılıqda olan xassələri bütöv bir tam kimi açılır.

Fərdiyyət insanın cəmiyyətdə varlığının xüsusi bir formasıdır. O, fərdin sosiallıq keyfiyyətinə malik olmaqla yanaşı, həm də cəmiyyətdə ümumi içərisində əridilməməsi, öz ayrıcalığını və avtonomluğunu qoruyub saxlaması deməkdir. Nəzərdə

tutulmalıdır ki, fərdiyyət insana hazır şəkildə verilmir, onu ümumbəşəri təcrübənin standart nəticəsi hesab etmək də doğru deyildir. Bu elə bir keyfiyyətdir ki, onu insan sosial mühitdə, lakin öz qabiliyyət və bacarığı sayəsində qazanır. Başqa sözlə deyilsə, hər bir fərd sosial həyatda və ünsiyyət prosesində özünün sırf fərdi xarakterini ifadə edən üsul və priyomları, ümumilikdə fərdi davranış və fəaliyyət üslubunu formalaşdırır. Bu, insanın fərdi müstəqilliyinin və fəallığının zəruriliyi ilə izah olunur.

Psixologizmə əsasən, insanın fərdiliyi yalnız şüur sferasında fəaliyyət göstərir, o insanın psixoloji xüsusiyyətlərini ifadə edir.

Fərdiyyət konkret insanın xüsusi formalaşmış olan keyfiyyətləri sistemini ifadə edir. O, insanın təbii-bioloji, psixoloji, sosial xassələrinin vəhdəti, şüurunun və fəaliyyətinin birgə məhsuludur.

Fərdiyyətin əsl mahiyyətini açmaq üçün fərdin bütün xassə və əlamətlərini vəhdətdə götürmək, ona bütöv bir tam kimi yanaşmaq tələb olunur. Fərdiyyətə fərd, şəxsiyyət və fəaliyyətin subyekti kimi götürülən insanın bütün xassələrinin inteqrasiyası halında yanaşmaq lazımdır. Fərdiyyət anlayışı insanda bioloji və sosial tərəflərin ayrılmaz vəhdətini ifadə etdiyi üçün insanın kompleks öyrənilməsində mühüm metodoloji prinsipdir.

Fərdiyyət anlayışı həm də fərdiləşmə ilə sıx bağlıdır. Fərdiyyət sabit mənanı ifadə edirsə, fərdiləşmə dinamik tərəfə daha çox diqqət yetirir, yəni fərdiliyi formalaşmaqda və inkişaf etməkdə olan proses kimi ifadə edir. Fərdiləşmə prosesinin məzmununda differensiasiya və inteqrasiya meyli vardır. Fərdiləşmə prosesi həm də insanın şəxsi bütövlüyünün və inkişafının təmin olunması üçün vacibdir. Bu prosesdə onun subyekt kimi strukturu kamilləşir, fəaliyyəti azad və yaradıcı xarakter alır, bütövlükdə inkişafı baş verir.

"Fərdiyyət" anlayışı insanı başqa insanlardan fərqləndirən cəhətləri, onun spesifik psixoloji xüsusiyyətlərini bildirir. Fərdiyyət temperament və xarakter əlamətlərində, tələbatların, ma-

raqların, intellektin, qabiliyyətlərin və s. özünəməxsus xüsusiyyətlərində özünü göstərir. Təlim-tərbiyə prosesində onun nəzərə alınmasının insanlara, xüsusilə, uşaqlara fərdi yanaşmanın böyük praktik əhəmiyyəti vardır.

Fərdiyyət şəxsiyyətin intellektual, iradi, əxlaqi, sosial və digər əlamətlərinin məcmusu ilə xarakterizə olunur. Hər bir uşağın öz təfəkkürü, hissləri, maraq və qabiliyyətləri, idealı, iradi və xarakter əlamətləri, temperamenti vardır. Bu keyfiyyətlər həmin şəxsi digərlərindən nəzərə çarpacaq dərəcədə fərqləndirir. Yer üzərində bir-birinə tamamilə oxşayan insan tapmaq mümkün deyildir. Hətta əkizləri də bir-birindən fərqləndirən səciyyəvi xüsusiyyətlər vardır. Hər bir insan öz fərdiyyəti etibarı ilə yeganə və təkrarolunmazdır.

Fərdiyyət anlayışı həm də şəxsiyyət anlayışı ilə sıx qarşılıqlı münasibətdə çıxış edir və şəxsiyyətin çox mühüm xassəsini təşkil edir. Şəxsiyyət anlayışı çoxtərəfli və çoxölçülü olduğu üçün bir çox elmlərin obyektini təşil edir. Şəxsiyyət anlayışının izahında müxtəlif mövqelərin özünü göstərməsi hər şeydən əvvəl bu obyektiv əsas ilə izah edilməlidir. Bu baxımdan psixologiya elmi şəxsiyyətin psixoloji xarakterli mühüm cəhətlərini aşkar edir.

Fərdiyyət və şəxsiyyət anlayışları məzmunca qismən yaxındır. Belə ki, əgər fərdiyyət anlayışı insanın təkrarolunmaz xüsusiyyətlərini, orijinallığını ifadə edirsə, şəxsiyyət anlayışı daha çox insan müstəqilliyini, əqidə möhkəmliyini, şəxsi simasını, prinsipiallığını, çətin vəziyyətlərdə sərbəst qərar qəbul etmək (ağlın çevikliyi) qabiliyyətini göstərir. Fərdiyyət dedikdə, buraya xarakter, temperament, psixi proseslərin cərəyanetmə xüsusiyyətləri, üstünlük təşkil edən hissələrin və fəaliyyət motivlərinin məcmuyu, formalaşmış qabiliyyətlər daxildir.

Müasir dövrdə şəxsiyyət konsepsiyaları kifayət qədər çoxdur. Lakin onların əksəriyyəti şəxsiyyət anlayışında sosial keyfiyyətlərin ön planda çıxış etdiyini göstərir. Şəxsiyyətin sosial keyfiyyətləri fərdiyyət anlayışı ilə sıx bağlıdır. Fərdiyyət fərd ilə şəxsiyyət arasında əlaqə və vəhdət yaradır. Şəxsiyyət anlayışı

ayrıca fərd kimi götürülən insana məxsus sosial əhəmiyyətli cəhətlərə əsas diqqət yetirir.

Şəxsiyyətin inişafının həlledici amillərini sosial əhəmiyyət kəsb edən keyfiyyətləri – baxışları, qabiliyyəti, tələbatları, mənafeləri, əxlaqı və s. təşkil edir.

İnsanı fərd kimi səciyyələndirən xassələr şəxsiyyətin formalaşmasının müqəddəm şərtlərini təşkil edir. Psixoloji ədəbiyyatda belə xassələrin (sinir sisteminin tipi, bədən quruluşu, təbii imkanlar, ekstraversiya və intraversiya, hissiyat, emosionallıq və s.) şəxsiyyətin davranışının tənzim olunmasına aşağıdakı istiqamətlərdə təsiri geniş araşdırılır:

1.Şəxsiyyətin davranışının formal – dinamik xüsusiyyətlərinin, psixi proseslərin getməsinin energetik səpkisində;

2.Bu və ya digər fəaliyyətin seçim imkanları diapazonunun müəyyənləşdirilməsində;

3.Kommunikasiya prosesində həmin xassələrin signifikasiya və simvolizasiyasında;

4.Fərdin davranışının özünəməxsus üslubunun formalaşmasında və onun müxtəlif peşələrə yiyələnməsində.

Şəxsiyyətin elə atributları vardır ki, onlar həm fərddə, həm də fərdiyyətdə mövcuddur, şəxsiyyətdə isə onlar daha yüksək və inkişaf etmiş formada olur.

İnsan sosial keyfiyyətləri ilə birgə şəxsiyyətdir. Həyata gələn hər bir insan ardıcıl olaraq mədəniyyət normalarını və dəyərlərini mənimsəyir, özünün fərdi xüsusiyyətlərinə yiyələnir, cəmiyyətə daxil olur, başqa insanların əhatəsində özünü təsdiqləyir, beləliklə də şəxsiyyət olur.

İnsanın fərddən şəxsiyyət pilləsinə yüksəlməsi onun ümumi inişafını və “Mən”inin təkmilləşməsi prosesini əks etdirir. “Mən” obrazı öz inkişafında dörd əsas mərhələdən keçir:

1.“Mən”in insanın fərdi cismani-psixi təşkili ilə identifikasiyası;

2.“Mən”in öz-özünü ifadə etməsi, insanın özünü psixofiziki müəyyənlik kimi dərk etməsi;

3.“Mən”in inkişafında eqosentrik konkretlik dövrü. Bu mərhələdə insan dünyanın özünəməxsus izahı və özünün oradakı yerini müəyyən etmək əsasında əsas diqqətini şəxsi perspektivinə yönəldir;

4.Ən yüksək mərhələ olub, “Mən”in reflektivlik qabiliyyətini ifadə edir. Bu mərhələdə o dünya anlamını özünün ekzistensial təcrübəsi ilə müqayisə edir.

Sosial-fəlsəfi təhlilə əsasən, “Fərd”, “Şəxsiyyət” və “Fərdiyyət” anlayışlarının hər biri və bütövlükdə hamısı insanın cəmiyyətdə və ümumiyyətlə dünyada varlığının konkret üsulları və yaxud formalarıdır.

Fərd, şəxsiyyət və fərdiyyətlə bağlı apardığımız araşdırmalarımızı aşağıdakı şəkildə ümumiləşdirə bilərik:

Fərd (individ), şəxsiyyət və fərdiyyət anlayışları mənaca eyni olsa da, sinonim kimi üst-üstə düşmür, bərabər deyil. Onlar insan mahiyyətinin müxtəlif tərəflərini müəyyənləşdirir. Fərd canlı orqanizmdir, insan nəslinə mənsub olan bioloji varlıqdır, bu sifətdə onun dünyaya gəlməsi, onun fizioloji vəziyyəti və psixikası, sosial mühitə uyğunlaşma imkanları qeydiyyata alınır. Fərd varlıq subyekti, maddi istehsalın və istehlakın ictimai sisteminin elementi olmaqla yanaşı, fəaliyyət, həmçinin müəyyən tarixi hərəkatın gedişatı nəticəsində əmək və təsərrüfat üsullarının mənimsənilməsi və təkrar istehsalı prosesində formalaşır və inkişaf edir.

Şəxsiyyət nisbətən həm bütün insanlara xas olan təbii xüsusiyyətlərin, həm də sosial amillərin təsiri altında təşəkkül tapmış daha geniş insan xüsusiyyətlərinin cəmini ifadə edir. Hər bir insan fərd kimi doğulur, amma özünün təbii, sosial və mənəvi varlığının nisbi sərbəstliyini və ziddiyyətini müəyyən dərəcədə dəf edərək, ətraf dünyanı dərk etmək və dəyişdirmək bacarığını göstərərək şəxsiyyət olur. Fərddən fərqli olaraq şəxsiyyət tarixi inkişafın statistik deyil, əksinə, ictimai münasibətlərin və əlaqələrin fəal hərəkətə gətirdiyi subyekti və obyektidir.

Fərdiyyət konkret şəxsiyyətin özünəməxsus və təkrarolunmaz xüsusiyyətlərinin aşkarlanması, bir fərdin digər fərdlərdən

fərqlənməsinin ölçüsüdür. İnsan özünün zahiri xüsusiyyətləri, xasiyyətinin spesifikası, intellektual imkanlarının orijinallığına görə sanki tək bir nüsxədə olan varlıqdır. Məsələn, qeyd edi-ləndə ki, siyasi iqtisadın klassiki kimi adı dünya tarixinin salna-məsinə yazılmış, dəyərin, əmək nəzəriyyəsinin və bir sıra başqa iqtisadi təlimlərin banisi Adam Smit öz dövründə geniş biliyə və yüksək əxlaqi nüfuza malik olan ən savadlı adamlardan biri olmuşdur, bu zaman insanın fərdi xüsusiyyətlərinə ayrıca diqqət cəlb olunur.

**Sual və tapşırıqlar**

1. Fərd,şəxsiyyət və fərdiyyət anlayışları arasındakı fərqlər nədən ibarətdir?
2. Şəxsiyyətin inkişafı haqqında nə deyə bilərsiniz?
3. Şəxsiyyətin inkişafı və tərbiyəsi haqqında nəzəriyyələr.

**Ədəbiyyat**


1. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri, Bakı: Azərnəşr, 1981, 190 s.
2. Bayramov Ə.S.Əlizadə Ə.Ə.Psixologiya Bakı: Qapp-Poliqraf kor-porasiyası 2003, 540 s.
3. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Sosial psixologiya, Bakı: Qapp-Poliqraf korporasiyası, 2003, 356 s.
4. Əliyev R.İ. Psixologiya. Bakı: Nurlan, 2008, 351 s.
5. Əliyev R. İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 196 s.
6. Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Bakı: "MBM", 2007, 200 s.
7. Mirzəyeva S.S Psixologiyada şəxsiyyət problemi və onun tədqiqi isti-qamətləri. Psixologiya jurnalı, №4, 2007.
8. Rzayev M. Fəlsəfənin tədrisində şəxsiyyət probleminin təhlili metodi-kası. Bakı, 2009.
9. Seyidov S. Həmzəyev M.Psixologiya, Bakı, 2007.

## 1.3. Milli xarakter və şəxsiyyətin inkişafı

Şəxsiyyət problemi, onun müxtəlif yönlərdən öyrənilməsi hələ antik filosofların marağına səbəb olmuş və Sokrat, Platon, Aristotel şəxsiyyətin inkişafı və formalaşması haqqında dəyərli fikirlər söyləmişlər.

Şəxsiyyət problemi, onun inkişafı Şərq fəlsəfəsinin, pedaqoji, psixoloji fikrinin də həmişə hədəfi olmuş, bu istiqamətdə Nizami Gəncəvinin, Füzulinin, Nəsiminin, Nəsirəddin Tusinin habelə Sədi Şirazinin, İmam Qəzzalinin, Cəlaləddin Ruminin və başqalarının dəyərli fikirləri, şəxsiyyətin tərbiyəsinə dair qiymətli öyüd nəsihətləri məlumdur.

Şəxsiyyətin inkişafı Azərbaycan xalq pedaqoji fikrində də özünə möhkəm yer tutmuş, bu barədə xalqın düşüncə və fikirləri, mülahizələri bütün dövrlərdə yüksək dəyər və qiymətə malik olmuşdur.

Şəxsiyyətin inkişafı və tərbiyəsi ilə bağlı sistemli tədqiqat işləri 1930-cu illərdən etibarən başlamışdır. 1930-cu illərdə şəxsiyyətin əxlaq tərbiyəsində şüurlu intizam tərbiyəsinin roluna dair ilkin tədqiqatlar meydana gəldiyi zaman B.B.Komarovski, A.O.Makovelski refleksoloji, biogenetik, sosiogenetik nəzəriyyələr irəli sürdülər. Həmin dövrün tədqiqatlarında şüurlu intizam tərbiyəsinin yeni yollar axtarışında şüuraltı və qeyri-şüuri proseslər pedaqoq və psixoloqların əsas diqqət mərkəzində idi. Xarici ölkə pedaqoji konsepsiyalarına, xüsusilə Avstriya alimi Z.Freydin tədqiqatlarına o zamanlar hələ qadağa qoyulmamışdı. Tədqiqatçılar əxlaqi aktların dəyişməsindən (sublimasiyasından), təcavüzkar əməllərin mexanizmlərinin öyrənilməsindən həvəslə yazır, uşaqlarla tərbiyəvi işin elə formasını axtarırdılar ki, şəxsiyyətin hərtərəfli inkişafına, şəxsiyyətin mənəvi gücünün açılmasına imkan yarana bilsin.

1930-cu illərin əvvəllərində irəli çəkilən şəxsiyyətin hərtərəfli və harmonik inkişafı problemi çox keçmədi ki, tədqiqatlardan sıxışdırılıb çıxarıldı. 1950-1960-cı illərdə sosial-fəlsəfi və pedaqoji ədəbiyyatda hərtərəfli inkişaf etmiş şəxsiyyət modeli

yenidən üstünlük təşkil etməyə başladı. Amma hazırlanmış belə bir modeldə şəxsiyyətin ahəngdar inkişafı unudulmuş, şəxsiyyətin bütövlüyü ideyası öz əksini tapmamışdır.

Yeni tədqiqatlar hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyət nəzəriyyəsini zənginləşdirdi. Şagirdlərin şəxsiyyətinə güclü təsir göstərən bioloji, psixoloji, sosioloji, biososial və pedaqoji amillər arasındakı qanunauyğunluqlar aşkar edildi və tədqiq edilməyə başlandı.

1979 - 1980-cı illərdə sırf şəxsiyyət probleminə, şəxsiyyətin inkişafına və formalaşmasına həsr olunmuş kitablar da meydana gəldi.

Müasir dövrdə yeni pedaqoji, psixoloji konsepsiyalara görə, şagirdin bir şəxsiyyət kimi formalaşdırılması və inkişaf etdirilməsi üçün təhsil humanistləşdirilməli, demokratikləşdirilməli, humanitarlaşdırılmalıdır. Təlim təhsilləndirici, inkişafetdirici və tərbiyəedici olmalı, fərdiləşdirilməli və diferensiallaşdırılmalıdır. Yeni pedaqoji təfəkkürdə şagirdin bir şəxiyyət kimi formalaşdırılması təhsil sisteminin başlıca vəzifəsi olmalıdır. Bu köklü vəzifənin həyata keçirilməsi üçün təhsil humanist və demokratik prinsiplər əsasında qurulmalıdır.

"Şəxsiyyətin inkişafı" anlayışı onun şüurunda, fəaliyyətində və davranışında təzahür edən real dəyişikliklərin ardıcıllığını, mükəmməlliyini və güclənməsini səciyyələndirir.

Şəxsiyyətin inkişafı dedikdə nə başa düşülür? İnkişaf, ümumiyyətlə, canlı varlıqlara xas olub, hərəkət, tərəqqi və yaradıcılıqla səciyyələnir. Şəxsiyyətin inkişafı insanın dünyaya gəldiyi gündən başlayaraq keyfiyyətcə bir-birindən fərqlənən anatomik, fizioloji, psixoloji və sosial dəyişikliklərlə səciyyələnən prosesdir.

İnkişaf insan orqanizmində kəmiyyət və keyfiyyətin dəyişiklikliyidir. İnkişaf nəticəsində insan bioloji növ və sosial vücud kimi təşəkkül tapır və inkişaf edir. İnsanın bioloji inkişafı onun fiziki inkişafı ilə xarakterizə olunur. Fiziki inkişafa morfoloji, biokimyəvi və fizioloji inkişaf daxildir. Sosial inkişaf isə özünü insanın psixi, mənəvi intellektual inkişafında təzahür

etdirir. Əgər insan belə inkişaf səviyyəsinə çatırsa və bu səviyyə ona şüurun və özünüdərkin daşıyıcısı olmağa, müstəqil dəyişdirici fəaliyyətlə məşğul olmağa imkan verirsə, belə insanı şəxsiyyət adlandırırlar. Beləliklə, deyə bilərik ki, insan doğulandan ölənə qədər bioloji və sosial inkişafdadır.

Bioloji inkişaf üç istiqamətdə gedir:

a) morfoloji inkişaf istiqaməti (boy,çəki, həcm);

b) biokimyəvi inkişaf istiqaməti (qan, sümük, əzələ);

c) fizioloji inkişaf istiqaməti (qan dövranı, həzm sistemi, cinsi inkişaf).

Sosioloji inkişaf da üç mərhələdə gedir:

a) psixoloji inkişaf mərhələsi (yaddaş, təfəkkür, iradə);

b) mənəvi inkişaf mərhələsi (əxlaqi keyfiyyətlər, şüurun inkişafı);

c)intellektual inkişaf mərhəlsi (biliyin artması, dünyagörüşün genişlənməsi).

İnsan cəmiyyətdə özünü bir şəxsiyyət kimi hiss etdikdə şəxsiyyətin sosial statusu meydana gəlir. Sosial sistemdə məqsədyönlü və düşünülmüş təhsil-tərbiyə yolu ilə insan şəxsiyyət kimi formalaşır və inkişaf edir. İnsanın inkişafı çox mürəkkəb, uzun sürən və ziddiyyətli prosesdir. Bizim orqanizmimizdə dəyişiklik bütün ömrümüz boyu baş verir. Xüsusilə, uşaq və gənclik dövründə insanın fiziki göstəriciləri və mənəvi dünyası intensiv dəyişir.

Şəxsiyyət və onun inkişafı haqqında digər bir nəzəri fikir interaksionostik istiqamətdir. Bu istiqamət "rollar nəzəriyyəsi" adı altında da məşhurdur. Bu istiqamətin əsasını Amerika sosioloqu və psixoloqu, rollar nəzəriyyəsinin banisi C.Mid (1863-1931) qoymuşdur. Onun fikrincə, insan daima cəmiyyətlə qarşılıqlı əlaqədə olduğuna görə şəxsiyyətin necə davranacağını qabaqcadan müəyyənləşdirmək mümkün deyildir. Bu nəzəriyyəyə görə, şəxsiyyətin əsas mexanizmi və strukturunu onun rol şəraiti təşkil edir.

Şəxsiyyət və onun inkişafı üzrə diqqəti cəlb edən pedaqoji-psixoloji istiqamətlərdən biri də şəxsiyyətin humanistik nəzə-

riyyəsidir. Bu nəzəriyyə insanların davranışını heyvanların davranışı ilə bütünlükdə və ya qismən eyniləşdirən konsepsiyaya alternativ olaraq yaranmışdır. Humanist nəzəriyyənin tərəfdarları ilk növbədə insanın hərtərəfli inkişafını, "olduğu kimi görünməsi, göründüyü kimi olması"nı, insanın bugünkü real həyatı necə başa düşməsini, onu dərk etməsi və qiymətləndirməsi məsələsini öyrənib tədqiq etməkdir. Bu nəzəriyyənin tərəfdarları (Amerika alimləri K.Rocers və A.Maslou) şəxsiyyətə cəmiyyətdəki həyat və fəaliyyət prosesində yaranan hər hansı bir psixoloji törəmə kimi, insan təcrübəsinin inkişafı, ictimai davranış normalarının mənimsənilməsi, ierarxiya tələbatlarının, davranış motivlərinin forması kimi baxırlar. Bu nəzəriyyənin tərəfdarları həmçinin insanı hiss və duyğularla yaşayan varlıq kimi götürməklə, ona öz imkanlarını həyata keçirmək üçün kömək etmək lazım olduğunu bildirirlər. Onlar göstərirlər ki, insan təbiəti təkmilləşməyə, inkişaf etməyə, özünüaktuallaşdırmağa, özünüifadəyə və özünütəsdiqə istiqamətlənmişdir.

Şəxsiyyətin inkişafı, tərbiyəsi və formalaşmasında psixogenetik yanaşma da mövcuddur. Şəxsiyyətə belə yanaşma nə bioloji, nə sosioloji, nə də biososial yanaşmanı rədd edir. Psixogenetik yanaşma ilk növbədə xüsusi psixi proseslərin inkişafını irəli sürür.

Hər bir cəmiyyətdə şəxsiyyətin sosiallaşması prosesi, başqa sözlə, insanın fəal, dəyərli varlıq kimi inkişafı məsələsi işlənib hazırlanır. Həmin prosesdə fərdin mövcud cəmiyyətin yaddaşına qovuşması, onun toplanmış ənənələrə yiyələnməsi həyata keçirilir. Şəxsiyyətin sosiallaşması konkret tarixi sosial iqtisadi strukturdan və mədəniyyət tipinin dəyişməsindən asılıdır. Şəxsiyyətin sosiallaşması onun sosial təcrübəni mənimsəməsini və sosial fəallığını özündə təcəssüm etdirir. Bu mənada sosiallaşma şəxsiyyətin inkişafı ilə üst-üstə düşür.

Sosiallaşma insanın davranış nümunələrin, norma və dəyərləri, mövcud cəmiyyətdə onun uğurlu fəaliyyəti üçün zəruri olanları mənimsəməsi prosesidir. Fransız psixoloqu J.Piaje şəxsiyyətin inkişafında müxtəlif mərhələlərin mövcudluğu ideya-

sına sadiq qalaraq fərdin idraki strukturunun inkişafına və sosial təcrübədən, qarşılıqlı fəaliyyətdən asılı olaraq onun yenidən təşəkkülünə diqqət yetirmişdir. Şəxsiyyətin sosiallaşması bəşəriyyətin sosial təcrübəsinin nəsildən-nəsilə verilməsini üzvi surətdə birləşdirir. Buna görə varislik, ənənələrin saxlanılması və mənimsənilməsi adamların gündəlik həyatından ayrılmazdır.

Şəxsiyyətin sosial fəallığını artırmaq üçün, başqa sözlə desək, onun inkişafını təmin etmək üçün əlverişli şəraitin yaradılması ilk növbədə, demokratik cəmiyyətin formalaşması, şəxsiyyətin azadlıqlarının konstitusiya ilə təsbit olunması və onun həyata keçirilməsi, şəxsiyyətdə öz xalqı və dövlətinin gələcəyi üçün məsuliyyət və cavabdehlik hisslərinin aşılanması, kütləvi informasiya vasitələri və mədəni obyektlərin yaxından köməyi ilə şəxsiyyətin mənəvi tərbiyəsinin, ilk növbədə, siyasi mədəniyyətinin yüksəldilməsi ilə şərtlənir.

Bildiyimiz kimi şəxsiyyətin inkişafı bir sira faktorlardan asılıdır. Şəxsiyyətin təşəkkülündə bioloji, sosial faktorlar çox önəmlidir. Bu faktorlardan hansındasa problem varsa, bu mütləq şəkildə özünü şəxsiyyətin formalaşmasında göstərəcək. Eləcə də artıq formalaşmış - yetkin şəxsiyyətin hamar inkişafına da bəzi amillər təsir edir.

Şəxsiyyətin inkişafı daxili və xarici amillərlə şərtlənir: Daxili amillərə daxildir: genetik, bioloji, fiziki, fizioloji amillər. Bu cəhətdən daxili amillər insanın şəxsi fəallığını, şəxsin marağını, insanlarla ünsiyyət və münasibətini də özündə birləşdirir. Xarici amillərə daxildir: fərdin müəyyən mədəniyyətə, sosial-iqtisadi sinfə və ailə mühitinə məxsusluğu. Bu baxımdan xarici amillər ictimai mühiti, kollektivi, ictimai qrupları, tərbiyəvi təsirləri də özündə birləşdirir.

Şəxsiyyətin inkişafının ilkin şərtləri dedikdə, hər şeydən əvvəl ətraf mühitin ümumi amillərini nəzərə almaq lazımdır. İnsanın hansı iqlim şəraitində, harada - dağlıq yerdə və ya dəniz sahilində və s.-də yaşamasından asılı olaraq onun həyat tərzində, mənzil şəraitində özünəməxsus cəhətlər əmələ gəlir. Bu amillər şəxsiyyətin formalaşması üçün müəyyənedici əhəmiyyətə malik

deyildir, lakin onların nəzərə alınması şəxsiyyətin formalaşması prosesinin daha ətraflı nəzərə alınmasını göstərir. Şəxsiyyətin inkişafının ilkin təbii şərtləri kimi onun orqanizminin xüsusiyyətləri, əsasən mərkəzi sinir sisteminin xüsusiyyətləri daha mühüm əhəmiyyətə malikdir. Diqqət edin: burada söhbət təkcə sinir sisteminin xüsusiyyətlərindən deyil, bütövlükdə orqanizmin xüsusiyyətlərindən, onun strukturundan və fəaliyyət üsullarından gedir.

Şəxsiyyətin inkişafında sosial amillər də müəyyənedici rol oynayır. Sosial amillər müxtəlifdir və onlar qarşılıqlı əlaqədə şəxsiyyətin inkişafını şərtləndirirlər. Sosial amillər içərisində insanın yaşadığı və fəaliyyət göstərdiyi konkret - tarixi şərait, yəni məhsuldar qüvvələrin və müvafiq istehsal münasibətlərinin inkişaf səviyyəsi birinci yerdə dayanır. Konkret - tarixi şərait öz əksini şəxsiyyətin maddi, siyasi və sosial həyat şəraitində, o cümlədən əmək şəraitində tapır. Şəxsiyyətin formalaşması prosesi vasitəli xarakter daşıyır.

İnsanın şəxsiyyət kimi formalaşmasında onda mənlik şüurunun inkişafı xüsusi rol oynayır. Mənlik şüurunun formalaşması insana özü haqqında təsəvvürlərini, özünün zahiri görkəmini, əqli, mənəvi, iradi keyfiyyətlərini qiymətləndirmək imkanı verir. Bu baxımdan mənlik şüuru insanın özünü şəxsiyyət kimi tanıması və dərk etməsi prosesindən ibarətdir.

Tədqiqatçılar insanın inkişafını öyrənərkən mühüm asılılıqlar müəyyənləşdirmişlər. Bu asılılıqlar inkişaf prosesi ilə onun tərbiyəsi arasındakı qanunauyğun əlaqələrindən ibarətdir. Şəxsiyyətin tərbiyəsi onun inkişafı ilə bağlı olduğu kimi, tərbiyə özü də inkişafa kömək edir, inkişaf prosesini sürətləndirir.

Psixologiya elmində şəxsiyyətin inkişafı və tərbiyəsi ilə bağlı üç əsas konsepsiya vardır ki, onları aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar:

1)Bioloji konsepsiya;

2) Sosioloji konsepsiya;

3) Biososial konsepsiya.

Bioloji konsepsiyanın nümayəndələri (Ziqmund Freyd və b.) şəxsiyyəti sırf təbii varlıq hesab etməklə onun bütün davranışını anadan olarkən özü ilə gətirdiyi, ona xas olan tələbatların, maraqların, instinktlərin təsiri ilə izah edirlər. Sosioloji konsepsiyanın nümayəndələri insanın bioloji varlıq kimi doğulmasını qəbul etməklə yanaşı, ünsiyyətdə olduğu sosial qrupların təsiri ilə tədricən sosiallaşması fikrini müdafiə edirlər. İnsanın sosial inkişafı onun cəmiyyət həyatına daxil olması ilə başlayır. Sosial inkişaf psixi, mənəvi və intellektual inkişaf və dəyişikliklə bağlıdır (yaddaşın, təfəkkür və iradənin inkişafı), mənəvi cəhətdən inkişaf (əxlaqi cəhətdən kamilləşmə, şüurun dəyişilməsi), intellektual inkişaf (biliyin zənginləşməsi, dünyagörüşün genişlənməsi) və s.

Sosioloji konsepsiya təsdiq edir ki, şəxsiyyət sosial təzahürdür. O, zamanla sıx bağlı olub, tarixən insana nə xas olmuşsa, onu əks etdirir. Şəxsiyyətin keyfiyyətləri anadangəlmə deyil, sosial və mədəni inkişaf nəticəsində yaranır. Şəxsiyyətin həyatı, onun ünsiyyət və münasibətdə olmasıdır, onun daim biliklər qazanması, inkişafı ilə əlaqədardır.

Bəzi tədqiqatçılar göstərir ki, şəxsiyyət - yalnız onun sosial keyfiyyətləridir. Belə ki, hər hansı bir fərd o halda şəxsiyyətə çevrilir ki, o artıq şüurlu fəaliyyət göstərir və ictimai münasibətlərdədir. Şəxsiyyət – onun cəmiyyətdə fəal mövqe tutması və ictimai münasibətlərin məcmusu ilə xarakterizə edilir.

Biososial konsepsiyanın nümayəndələrinin fikrincə, psixi proseslərin (duyğu, qavrayış, təfəkkür və s.) bioloji təbiəti (xassəsi) olsa da, şəxsiyyətin təcrübəsi, siyasi, əxlaqi-mənəvi baxışları, maraqları, qabiliyyətləri və s. sosial hadisələr kimi formalaşır.

Biososial konsepsiya tərəfdarları şəxsiyyəti iki yerə bölür və hesab edirlər ki, insanda gedən psixoloji proseslərin bioloji əhəmiyyəti var, həm də belə əlamətlər şəxsiyyətin sosial amil kimi istiqamətlənməsini müəyyənləşdirir. Onlar belə hesab edirlər ki, insan xüsusi bioloji fərd kimi doğulur, sosial həyat şəraitinin təsiri altında şəxsiyyətə çevrilirlər.

Hər bir xalqın özünəməxsus xarakteri vardır. Xarakter və digər psixi xüsusiyyətlər xalqımızın milli – mənəvi dəyərləri hesab olunur. Milli-mənəvi dəyərlərin öyrənilməsi, qorunub möhkəmləndirilməsi və ondan yetişməkdə olan yeni nəslin təlim-tərbiyəsində sistemli şəkildə istifadə edilməsi bu günün zəruri tələblərindəndir. Özünəqayıdış, milli özünüdərk, milli şüur və milli mənlik şüuru bu baxımdan araşdırılmaldır. "Çünki tarixi prosesin gedişində bəşəriyyət nə qədər təcrübə toplasa da, dünyaya gələn hər bir yeni nəsil üçün, hər bir ayrıca insan üçün öz zəmanəsinə uyğun olaraq özünüdərk, özünəqayıdış ciddi zərurət olur. Bu da müəyyən mürəkkəb proseslərin psixoloji mahiyyətinin aşkar edilməsini, geniş planda tədqiq olunmasını zəruri edir".

Çünki son yüzillikdə bir tərəfdən, müxtəlif xalqlar və etnoslar arasında sosial-siyasi, eləcə də elmi-mədəni əlaqələr, münasibətlər genişlənir, digər tərəfdən isə bəzi münaqişələr baş verir. Hər iki halda xalqların etnik-psixoloji xüsiyyətlərinə bələd olmaq zərurəti yaranır ki, bu da etnik-psixoloji araşdırmaların geniş vüsət almasını ön plana çəkir.

Milli xarakter nədir? Milli xarakter mürəkkəb sosial təzahür olub, fəlsəfə, kulturologiya, sosial psixologiya, etnologiya, etnopolitologiyanın araşdırma obyektidir. Müəyyən bir milli (etnik) icmanın üzvləri üçün səciyyəvi cəhətlər, ideyalar, maraqlar, hisslər, psixi xüsusiyyətlər, mənəviyyat, din, ruhani dəyərlər, motivlər, meyillənmələr, sosial-psixoloji müdafiə mexanizmlərinin toplusudur. Milli xarakter xalqın bütün tarixi və sosial-mədəni təcrübəsi əsasında formalaşan psixogenetik xüsusiyyətlərinin, həmin etnik icmada mövcud olan ənənələrin, ideyaların, dəyərlərin, streotiplərin, ideallarıın, maraqların məcmusu, sosial-mədəni normalar sistemidir.

Bəzən dünya mətbuatında milli xarakter faktının özünün mövcudluğu haqda diskussiyalar davam edir. Yalnız hansısa bir xalqa, ayrıca bir millətə, ölkəyə xas olan xüsusiyyətlər olmur. Btün məsələ yalnız bu ümummili cizgilərin vəhdətində, təkrarsız kristallık quruluşundadır. Milli xarakterin, milli fərdiliyin möv-

cudluğunu inkar etmək dünya xalqlarını çox darıxdırıcı və boz təsəvvür etmək deməkdir.

Bir millətin kənardan idarə olunmasını asanlaşdırmaq, ölkə vətəndaşlarında milli maraqlara laqeydlik yaratmaq üçün onun xüsusiyyətlərini əlindən almağa, başqa sözlə deyilsə, "etiketini qoparmağa" çalışırlar. Azərbaycan xalqının son iki əsrdə yaşadığı milli faciələrin əsası XIX əsrdə Rusiya və İran dövlətləri arasında bağlanmış Gülüstan və Türkmənçay müqavilələrindən sonra qoyuldu. Farslaşdırma ilə ruslaşdırma siyasəti Arazın iki tayında yaşayan azərbaycanlıların xarakterində fərqli cizgilərin meydana gəlməsinə, müəyyən dərəcədə bir-birindən uzaqlaşmasına, fərqli mədəni qütblərə yaxınlaşmasına səbəb oldu.

Bugünkü gündə millətlərin psixologiyası ilə psixologiyanın "etnik psixologiya" adlanan xüsusi bölməsi məşğul olur. İlkin mərhələdə – müxtəlif xalqların mənəvi-mədəni xüsusiyyətlərini öyrənmək məqsədilə meydana çıxan bu psixologiya sahəsinin, XIX əsrin ikinci yarısından başlayaraq ilk ümumi terminləri meydana çıxmağa başlayıb: "xalqların psixologiyası", "milli xarakter", "milli ruh", hətta, "etnik (etnoqrafik) psixologiya"  və s. kimi. Etnopsixologiyanın köməyi ilə dildə, adət-ənənələrdə, əsatirlərdə, bir sözlə, müxtəlif xalqların mənəvi həyatında insani ruhların təzahürünün analizi həyata keçirilir.

Bugünkü gündə etnopsixologiya – ayrıca individ və ya insan qruplarının etnik və mədəni mənsubiyyəti ilə əlaqədar olan, şüuri və qeyri-şüuri səviyyədə təzahür edən müxtəlif psixoloji xüsusiyyətləri öyrənən psixologiya bölməsi kimi tanınır .

Qeyd edək ki, hər bir xalqa məxsus olan milli xarakterin öyrənilməsi kimə necə təsir göstərmək işini müəyyən etməyə imkan verir. Hətta politologiyada etnik psixologiyanın təsiri ilə yaranmış "Etnopolitologiya" adlı xüsusi bölmə də mövcuddur.

Hər bir xalqın özünəməxsus etnik psixoloji xüsusiyyətləri vardır. Bu etno-psixoloji xüsusiyyətlər isə şəxsiyyətin mənəvi inkişafına və mənəvi təkmilləşməsinə mühüm təsir göstərir. Etnik psixoloji xüsusiyyətlər müəyyən ictimai-tarixi şəraitdə insanların qarşılıqlı münasibətlərinin xarakterindən asılı olaraq

foramalaşır. Etnik psixoloji xüsusiyyətlər nəsildən - nəslə verilərək həmin etnos üzvlərinin əxlaqi adət və ənənələrində, inam və əqidələrində, davranış və rəftar tərzində, başqalarına, eləcə də özünə münasibətdə təzahür edir. Onlara bələd olmadan etnosla əlaqə və münasibətlər sisteminin, rəftar tərzinin optimal yollarını müəyyənləşdirmək çətindir. Burada etnik qrup daxilindəki qarşılıqlı münasibətlər sistemi, rol və davranışların xarakteri, sosial təsir istiqamətləri, maddi həyat şəraiti, təlim-tərbiyə sistemi də az rol oynamır. Etnik psixoloji xüsusiyyətlər insanların qarşılıqlı fəaliyyətini, davranışını tənzim edir. Xarici alimlərin fikrincə, bu normalar sosial mühitin üzvülərini qarşılıqlı fəaliyyət, münasibət və davranışın etalon, standart modelləri ilə təmin edir. Hər bir xalqın etno-psixoloji xüsusiyyətləri və mədəniyyət nümunələri bir-birindən fərqlənir. Mədəniyyətdəki bu fərqlər isə hər bir şəxsiyyətin inkişafına özünəməxsus şəkildə təsir göstərir. Belə ki, şəxsiyyətin inkişafı müəyyən etnik birliyin çərçivəsində və müəyyən mədəniyyət sistemində baş verir. Şəxsiyyət isə öz xalqına mənsub olan mədəniyyəti, adət-ənənələri, davranış formalarını, etnik stereotipləri mənimsəyir. Bu etno-mədəni amillər isə öz növbəsində gənclərin fəaliyyətinin və davranışının tənzimləyicisi olur. Qeyd etdiyimiz kimi hər bir şəxs öz davranış və fəaliyyətini bu etnik xüsusiyyətlər və mədəniyyət çərçivəsində qurur. Şəxsiyyətin təşəkkülü mədəniyyətin və etnik psixoloji xüsusiyyətlərin təbəddülatından kənarda götürülə bilməz. Etnik psixoloji xüsusiyyətlər içərisində, ilk növbədə, diqqəti cəlb edən etnosun özünü dərk etməsi, özünüqiymətləndirməsi və etnik şüur səviyyəsidir. Etnik özünüqiymətləndirmə mürəkkəb proses olub şəxsiyyətin özünü necə dərk etməsi ilə əlaqədardır. Yəni şəxsiyyətin özünüdərk etməsi onun özünü və öz imkanlarını, keyfiyyətlərini və başqa etnoslar içərisində öz yerini və mövqeyini qiymətləndirməyə, onun öz imkanlarını, keyfiyyətlərini, onun davranış və rəftarının tənzim olunmasını təmin edir. İnsanın ətraf aləmə, başqa etnoslara münasibəti onun özünüqiymətləndirməsindən asılıdır. İnsanın özünü necə qiymətləndirməsi onun mənəvi inkişafına, tərəqqisinə,

fəaliyyətinin səmərəliliyinə təsir edir. Bu aspektdə gənclərdə milli mənlik şüurunun formalaşması, ilk növbədə, onun özünü necə dərk etməsi və adekvat qiymətləndirməsi ilə əlaqədardır. İnsanın milli mənlik şüurunun formalaşması, ümumən xalqın, millətin tərəqqisi üçün böyük əhəmiyyətə malikdir. Çünki insanın milli mənlik şüurunun səviyyəsi bir tərəfdən xalqın, millətin obyektiv şəkildə fəaliyyətdə olan əlamətlərinin, xüsusiyyətlərinin inikasıdır və müvafiq stereotiplərdə, etnik identifikasiyalarda, təsəvvür və anlayışlarda təsbit olunur.

Milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi indi o qədər aktuallaşıb ki, cəmiyyətin geniş hissəsinin müzakirə obyektinə çevrilib. Bu məsələ tədqiqatçılar tərəfindən həmişə diqqət mərkəzində olsa da sistemli şəkildə təhlil olunmamışdır. Yəni Azərbaycan cəmiyyəti geniş olaraq milli-mənəvi və əxlaqi dəyərlərin yenidən dərk edilməsi zərurətini ortaya qoyur. Azərbaycan cəmiyyəti sürətlə dəyişir. Bu dəyişiklik də avtomatik olaraq insanların mənəvi-əxlaqi və mədəni təsəvvürlərinə təsir edir. Digər tərəfdən isə, milli mənlik şüuru xalqın mədəniyyətinin, mənəvi dəyərlərin yaradılmasına mühüm təsir göstərir. Ona görə də xarici ölkələrdə mövcud olan xüsusiyyətlər etnik milli mühitə, onun tərbiyə sisteminə, adət və ənənələrinə mexaniki şəkildə transformasiya edilə bilməz.

Azərbaycanın dövlətçiliyinin daha da formalaşmasına və inkişafına təsir edən ən güclü amillərdən biri də milli xarakterdir. Bəzi tədqiqatçılar milli xarakteri millət anlayışı ilə sıx bağlı təhlil edərək, milli xarakteri milli psixologiyanın strukturuna daxil edirlər.

Qazax tədqiqatçısı N.Candildinin fikrincə, milli psixologiyanın strukturuna aşağıdakılar daxildir:

1)milli xarakter, 2)milli hisslər, 3)milli özünüdərk.

Azərbaycan tədqiqatçısı V.Abdullayev millətin davranış nümunələrini, tarixi və sosial kökləri olan adət və ənənələrini adi milli şüurun komponentləri kimi səciyyələndirir və onların milli şüur səviyyəsində milli xarakterə xas olan emosional ünsürlər, mürəkkəb hiss kompleksi, əhval-ruhiyyə, temperament xüsusiy-

yətləri və emosional ünsürlər, iradi cəhətlər şəklində özünü göstərdiyini qeyd edir.

Tədqiqatçılar adi şüur deyərkən milli-etnik psixologiyanı, yaxud milli-psixoloji səviyyəni, nəzəri milli şüur dedikdə isə adi milli şüurun müəyyən sosial-siyasi mövqelərdən həyata keçirilən seçmə ünsürlərin ümumiləşdirilməsini nəzərdə tuturlar. Milli xarakter və ideologiyanın qarşılıqlı əlaqəsi nəzəri-milli şüur səviyyəsində özünü aydın göstərir. Nəzəri milli şüur özündə "...millətin bugünkü vəziyyətini və inkişaf məqsədlərinin məcmuəsini ehtiva edən, tərkibində milli-etnikliyin müstəsnalığı ideyası yerləşən ideologiyadır".

Milli xarakter, milli mentalitet, adət-ənənələr xalqın özünümühafizə və özünütəsdiq forması kimi əsrlərlə yaşamış, ən dəyərli milli amillərdən biri - millətin varlığının ayrılmaz ünsürü olan milliyyətçilik, milli məfkurə ilə qarşılıqlı təsirdə inkişaf etmişdir. Türkçülük ideologiyasının banilərindən olan Z.Göyalp milləti "dil, din, əxlaq, gözəllik duyğusu baxımından müştərək olan, eyni tərbiyəni almış fərdlərdən ibarət bir toplum kimi səciyyələndirərək, millətdə tərbiyənin, dil və din birliyinin, milli ruhun, milli xarakter və mentalitetin, milli ideyanın olmasını vacib hesab edir, milli məfkurənin yaranması və inkişafında bu amilləri əsas hesab edirdi. Hər bir millətin nümayəndəsi tərbiyəsi ilə böyüdüyü məfkurə uğrunda "həyatını belə fəda edə bilər".

ABŞ filosofu Çarlton İ.N.Hayev milliyyətçiliyi bir din kimi xarakterizə edərək, milli xarakterin milli-mənəvi amillə bağlılığını diqqətə çatdırır: "Bir millət öz varlığını, xarakterini, mənliyini fiziki-coğrafi amil və ya bioloji irqdən deyil, mədəni və tarixi güclərdən alır.

Milli ideologiyanın formalaşmasında əsas amillərdən biri olan milliyyətçiliyi XX əsrdə hətta millətin ideologiyası kimi təqdim edənlər də olmuşdur. İngilis sosioloqu A.Smit "XX əsrdə millətçilik" əsərində keçən əsri millətçilik əsri adlandıraraq, göstərir ki, millətçilik ideologiyası bu dövrdəki bütün ideologiyanı əvəz edəcəkdir. Müəllif millətçiliyə dünyaya, mədəniyyətə və

siyasətə baxışlar kimi ünsürləri aid edərək, onu sosial tərəqqinin hərəkətverici qüvvəsi və müasir dövrün inqilabi qüvvəsi hesab edir: “Millətçilik, şübhəsiz, Avropada iki dünya müharibəsindən sonra müvəqqəti səngisə də, hazırda o, bir çox Asiya, Afrika və Latın Amerikası ölkələrindən gələn amansız sınaqla üz-üzə gəlib. Lakin millətçilik bütün digər ideoloji cərəyanlara qarşı dura biləcək və yenidən yeni simada meydana gələcəkdir”.

A.Smit millətçiliyi millətin yeganə gələcək ideologiyası adlandırırdı. O, XX əsrdə millətçiliyin iki formasının kommunizm və faşizm ideologiyaları ilə qarşı-qarşıya gələcəyini, düzgün olaraq “kommunist və faşist millətçiliyi”nin məhvə məhkum olduğunu israr edirdi. Smit marksist millətçiliyinin liberal millətçiliyin varisi olduğunu göstərirdi.

A.Smit milli idealın rolunu təhlil edərkən, onu “milli xarakter” anlayışı ilə yanaşı və qarşılıqlı əlaqədə işlədir. Daha sonra ingilis sosioloqu milli ideala uyğun olaraq, əcdadlara bağlılıq vasitəsilə milli xarakterin formalaşdığını göstərir: “Milli ideal ayrı-ayrı millətlərə ayrılmış dünyaya və milli xarakteri əmələ gətirən nadir hadisə olan mədəniyyətə baxışları, eləcə də, tarix və mədəniyyətə, həmrəylik siyasi yönümün də daxil olduğu xüsusi baxışları təcəssüm etdirir”. O, milli idealı milli iftixar və vətənpərvərlik anlayışları ilə eyniləşdirməyə çalışır.

“Milli xarakter”i “milli temperament” və “millətin psixi xüsusiyyətləri” anlayışları ilə də eyniləşdirənlər var. Milli temperament millətin sosial və coğrafi amillərlə şərtlənən emosioanl-iradi reaksiyası, genetik amilin ona təsiri, milli xarakter isə sosial-iqtisadi və tarixi şəraitin təsiri altında formalaşır. Millətin psixi xüsusiyyətləri də milli xarakter kimi mədəniyyət və məişətin spesifik xüsusiyyətlərində təzahür edir.

Milli xarakter anlayışı milli şüur, milli psixologiya, milli ö zünüdərklə əlaqəli olsa da, özünəməxsus cəhətlərilə fərqlənir.

Milli xarakterin spesifikliyi ondadır ki, burada maddi və mənəvi mədəniyyətin ünsürləri millətin keçmiş və indiki tarixini və təcrübəsini təcəssüm etdirir. Milli xarakterdə millikiklə ümumbəşərilik vəhdət təşkil edir.

Milli xarakterin mahiyyəti həmin millətin milli mədəniyyətində, adət- ənənələrində, mərasimlərində, milli ideologiyasında açılır. P.Qnatenko milli xarakterin mahiyyətini və strukturunu belə açıb göstərmişdir: "Milli xarakter xalqın tarixi və sosial-iqtisadi inkişafı prizmasından keçən, onun mədəniyyəti, adət-ənənələri mərasimlərində öz ifadəsini tapan ümumbəşərilik və milli spesifikliyin dialektik tərzdə birləşdiyi mürəkkəb və ziddiyyətli prosesdir".

P.Qnatenko milli xarakterin strukturunu ümumbəşəri və milli-psixoloji cəhətlərlə yanaşı, dövrün ideoloji yanaşmasına uyğun olaraq "sosial sinfi" xüsusiyyətləri də daxil edir: "Fikrimizcə, milli xarakterin strukturu aşağıdakı ünsürlərdən ibarətdir: 1) ümumbəşəri xüsusiyyətləri (özündə müxtəlif növ dəyərləri və qaydaları əks etdirir), 2) milli-psixoloji xüsusiyyətlər (yalnız həmin xalqa xas, milli əsasda meydana gələn ümumbəşəri cəhətlərlə dialektik vəhdətdə olan və həmin xalqın mədəniyyəti, ənənələri, adətləri və mərasimləri meydana gələn xüsusiyyətlər), 3) milli psixologiya prizmasından keçən, müxtəlif siniflərin psixologiyasında təcəssümünü tapmış sosial-sinfi xüsusiyyətlər". Beləliklə, müəllif ümumbəşəri cəhətləri milli xarakterin müəyyənedici ünsürü hesab edir.

Sovet tədqiqatçıları səhv olaraq ümumbəşəri və kommunist dəyərlərini eyniləşdirirdilər. Sovet dövründə marksizm - leninizm ideologiyası ən kiçik təşəbbüskarlığı belə millətçilik və sosial şovinizm "təzahürü" kimi qiymətləndirirdi. Sovet dövründə millətlərin milli psixologiyası və milli xarakteri inkişafdan dayandı, bu sahədə əyintilər əmələ gəldi. Milli xarakter, milli mentalitet və milli şüurun dövlətdən tam siyasi asılılığı şəraitində millətin milli qapalılıq, dünyanın təbii inkişafından ayrı qalması prosesi baş verdi.

Sovet xalqlarında, o cümlədən Azərbaycanda da milli cəhətlər defermosiyaya uğradı. Azərbaycan xalqının milli varlığı türkçülük, milli xarakteri, milli mentaliteti və XX əsrin əvvəllərində formalaşmış milli ideologiyası repressiyaya məruz qaldı.

Kommunist ideologiyası azərbaycanlıları nəinki türk dünyası ilə əlaqələrdən, hətta xariclə ünsiyyətdən məhrum etdi.

Azərbaycanın milli xarakteri, milli mentaliteti, milli ideolo giyası kosmo-polit "sovet xarakteri" və "sovet mədəniyyəti" içərisində əridi, xalq rəsmi ideologiyanın köləsinə çevrildi. Halbuki XIX əsrdən artıq Azərbaycan xalqının mədəniyyətində milli ideologiya, kök salmış, millətçilik və millət yaranıb inkişaf etməyə başlamışdır. XX əsrin əvvəllərində Azərbaycanda türkçülük ideyasına əsaslanan milli dövlətçilik yaranmışdı.

İkinci dəfə meydana gələn milli dövlət - Azərbaycan Respublikasında milli xarakter və milli mentalitetin təsirilə formalaşan millətçilik psixologiyası və milli ideologiya milli şüurun inkişafına, milli dirçəlişə xidmət edir. Azərbaycan milli xarakteri və mentaliteti, milli özünəməxsusluğu, ümumbəşəri cəhətlər ilə yanaşı, həm də ümumqafqaz mədəniyyətinin ayrılmaz bir hissəsi hesab edilir.

Göründüyü kimi, milli inkişaf ideologiyası milli dövlətçiliyin, milli varlığın təhlükəsizliyinə, milli varlığımızın qorunmasına xidmət etdiyi kimi, birləşdirici ideya kimi bu ideologiyanın əsasını – milli özünəməxsus ənənə, milli xarakter, milli özünəməxsusluq, milli mentalitetə malik azərbaycançılıq təşkil edir.

"Azərbaycançılıq ideologiyasının tərbiyəsi və təbliği sisteminin əsasında "milli özünüdərkin və milli "mən"in mahiyyətini qoruyub saxlamaq səyi durur", "və bu "əsas"ın qorunub saxlanılması, daha da gücləndirilməsi tərbiyə kimi daim diqqət mərkəzində olmalıdır".

Milli xarakter və mentalitetin vətən amalı və azərbaycançılıq ideologiyası ilə sıx bağlı olduğu qeyd edilməklə, vaxtilə arxa plana keçirilən ideologiyaya milli amilin təsiri indi "millətin real iqtisadi, sosial-psixoloji və mədəni həyatının potensialını milli şüurun xaraterik xüsusiyyətlərini, emosional –psixoloji cəhətlərini, ictimai inkişafını hərəkətə gətirən mexanizm kimi nəzərdən keçirilir".

**Sual və tapşırıqlar**

1. Şəxsiyyətin fərdi psixi xassələri hansılardır?
2. Milli xarakter şəxsiyyətin formalaşmasına nə kimi təsir göstərir?
3. Ailə mədəniyyəti və şəxsiyyət.
4. Milli adət-ənənələr, şəxsiyyətin formalaşmasında əsas amil kimi.

**Ədəbiyyat**


1. Bayramov Ə.S.Etnik psixologiya, Renesans nəşr, Bakı, 2001, 374 s.
2. Bayramov Ə.S.Etnik özünüdərketmə,Kitabi-Dədə Qorqud ensiklopediyası, Bakı, 2000.
3. Bayramov Ə.S.Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri, Bakı: Azərnəşr, 1981, 190 s.
4. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Seyidov İ.Ə və b. Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri, BDU-nun nəşri, Bakı, 1985.
5. Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011.
6. Əliyev R.İ. Etnopsixologiya: qloballaşma və millilik, Bakı, 2007, 215s.
7. Əliyev R.İ. Mentalitet, Bakı: Elm və Təhsil, 2009, 229 s.
8. Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş, 2003.
9. Həşimov Ə.Ş.Təlim-tərbiyə işində milli xüsusiyyətləri nəzərə almağın zəruriliyi, Azərbaycan məktəbi jurnalı №9, Bakı, 1989.
10. Məhərrəmov M.C. Məktəblilərin xarakterini tərbiyə etmək haqqında, Bakı, Maarif, 1967.

11. Məktəbəqədər yaşlı uşaqlarda milli hisslərin formalaşmasına adət-ənənələrin təsiri, (Respublika ali məktəblər arası elmi konfransının materialları).

12. Məmmədov Ə.S., Quliyev N.S. Azərbaycanın adət və ənənələri, Bakı, 1966.

13. Piriyeva E. Siyasi proseslərdə milli psixologiya amili, (Nam. dis. avt.), BDU, Bakı, 2006.

14. Talıbov Y., Sadıqov F., Quliyev S. Gənclərin milli tərbiyə problemi, Bakı, 1998.

# II FƏSİL. AZƏRBAYCAN MÜTƏFƏKKİRLƏRİNİN ŞƏXSİYYƏTİN İNKİŞAFI HAQQINDA FİKİRLƏRİ

## 2.1. N.Tusi şəxsiyyətin formalaşmasında təlim-tərbiyənin rolu haqqında

Müasir şəraitdə insan amili, şəxsiyyət və onun mahiyyəti, onun sosial-psixoloji kökləri, təşəkkül tapıb formalaşması problemi xüsusi aktuallıq kəsb edir. Məhz buna görədir ki, istər ümumi psixologiyada, istərsə də sosial psixologiyada şəxsiyyət problemi konseptual hesab olunur. İstər xarici ölkələrdə (ABŞ-da, Almaniyada, İngiltərədə, Fransada, keçmiş SSRİ-də) və istərsə də Azərbaycanda bu sahədə xeyli tədqiqatlar aparılmış, maraqlı fikirlər irəli sürülmüşdür. Həmin ideyaların öyrənilməsi və ümumiləşdirilməsinin mühüm elmi əhəmiyyəti vardır. Klassik ədəbiyyatımız yalnız bədii təfəkkürün məhsulu hesab edilə bilməz. Azərbaycan ədəbiyyatı bədii və elmi təfəkkürün vəhdəti nəticəsində yaranaraq, dövrün sosial, fəlsəfi-psixoloji xüsusiyyətlərini özündə əks etdirir. Bu baxımdan klassik irsimiz psixologiyanın nəzəri, tarixi problemlərinin öyrənilməsində əvəzolunmaz mənbədir. Məhz buna görə də çoxdandır ki, poeziya və nəsr əsərləri psixoloqların tədqiqat obyektlərinə çevrilmişdir.

Müdrik sözlər, hakimanə fikirlər, ibrətamiz psixoloji aforizmlər bədii yaradıcılığın məhsuludur. Söz sənətində insan psixologiyasına xas olan keyfiyyətlərin yüksək sənətkarlıqla əks etdirilməsi digər ədəbiyyatlarda olduğu kimi, Azərbaycan ədəbiyyatında da geniş şəkildə öz əksini tapmışdır. Azərbaycan klassiklərinin yaradıcılığı tükənməz sosial-psixoloji çalarla zəngindir. Burada əsas yeri insan şəxsiyyətinin fikir azadlığı, dərin psixoloji mühakimələri, şəxsiyyətin formalaşmasında təlim-tərbiyənin rolu, şəxsiyyətin mənəvi-psixoloji təkmilləşməsi tutur.

Azərbaycan klassiklərini (N.Tusi, İ.Nəsimi, M. Füzuli, A.A.Bakıxanov və b.) həmişə şəxsiyyət problemi, onun formalaşmasına təsir edən amillər, insan azadlığı, ağlı, təfəkkürü, dü-

şüncə tərzi, mənəvi təkmilləşməsi düşündürmüş və öz əsərlərində bu amala, əqidəyə sadiq qalmışlar. Şüur, düşüncə, ruhi təmizlik, aydın insani münasibətlər, həyatın,  gizli sirlərini öyrənmək Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında əsas xətt kimi özünü göstərir. Onların əsərlərində vətənpərvərlik hissi, haqq, ədalət, səmimilik, sadəlik və təvazökarlıq, xeyirxahlıq kimi ülvi və bəşəri keyfiyyətlər ön planda durur. Psixoloqlarımız həmin əsərlərdən məhz insan ləyaqəti üçün vacib olan keyfiyyətləri seçib təqdim edirlər. Bu yolla da onlar gənc nəslin bir şəxsiyyət kimi formalaşmasında həmin əxlaqi dəyərlərdən istifadə olunmasına kömək etmiş olurlar.

Şəxsiyyət problemi min illərdir ki, bəşəriyyətin ən ağıllı, müdrik adamlarını düşündürmüş və bu barədə onlar müxtəlif ideyalar irəli sürmüşlər. Görkəmli yazıçı və şairlərin yaradıcılığında şəxsiyyətin sosial-psixoloji xüsusiyyətlərinə aid fikirlər sistemli şəkildə yox, az da olsa əks olunmuşdur.

Hər bir xalqın, o cümlədən Azərbaycan xalqının da müxtəlif dövrlərdə yazıb-yaratmış bədii söz ustaları öz əsərlərində şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri, mənəvi-psixoloji təkamülü, təlim-tərbiyəsi, xarakteri, ağıl və təfəkkürü, iradəsi, hissi, arzu və xəyalı haqqında birbaşa və dolayısı ilə fikir söyləmişlər. Bu fikir və mülahizələrin öyrənilməsi psixologiyanın ümumi-nəzəri və tarixi problemlərini yeni ideyalarla zənginləşdirilməsinə təbii ki, çox böyük kömək edir.

İnsanın özünü dərk edib qiymətləndirməsi, xaraktercə təvazökar, səmimi və ədalətli olması, haqq və düzlüyə rəvac verməsi, xüsusilə dövlət başçılarının adil və səxavətli, elinə-obasına, idarə etdiyi insanlara qarşı qayğıkeş olmaları xalqımızın qabaqcıl alimlərinin, mütəfəkkirlərinin yaradıcılığının əsas xüsusiyyətlərindəndir. Azərbaycan mütəfəkkirləri xalqın qabaqcıl nümayəndələri hesab olunan dövlət başçılarının, həmçinin zəhmətkeş xalqın timsalında şəxsiyyətin portretini, xalqımıza məxsus olan  milli xarakter xüsusiyyətlərini əks etdirmişlər.

Azərbaycanın görkəmli mütəfəkkirləri öz əsərlərində bir tərəfdən yaşadıqları dövrün ictimai-sosial hadisələrini bədii

obrazlarda təsvir etmiş, digər tərəfdən əsl şəxsiyyətə xas olan psixoloji keyfiyyətləri göstərmişdir. N. Tusi, İ.Nəsimi, M.Füzuli, A.A.Bakıxanov və başqalarını buna misal göstərmək olar. Həmin mütəfəkkirlərin şəxsi nümunəsində də əsl şəxsiyyətə xas olan xarakterik xüsusiyyətləri görmək mümkündür. Nəzərdən keçirdiyimiz bu mütəfəkkirlərin bədii yaradıcılığı onların bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan ünsiyyət və fəaliyyət sahələrinin öyrənilməsi baxımından da olduqca əhəmiyyətlidir. Bu dəyərli mütəfəkkirlər öz dövrünün ictimai-sosial, siyasi, mədəni, iqtisadi hadisələrinin iştirakçısı olmaqla bərabər, həm öz timsallarında, həm də təsvir etdikləri bədii obrazların timsalında şəxsiyyəti səciyyələndirən xarakterik xüsusiyyətləri böyük ustalıqla açıb göstərə bilmişdirlər.

Psixologiya elmi üçün əsas problem sayılan şəxsiyyət, insan amili N. Tusi, İ.Nəsimi, M.Füzuli, A.A.Bakıxanovun yaradıcılığının ana xəttini təşkil edir. Onların psixoloji görüşlərinin tədqiqi şəxsiyyət konsepsiyasının tədqiqi baxımından bu gün də xüsusi aktuallıq kəsb edir. Onların psixoloji görüşləri nəinki Azərbaycan, həm də dünya psixoloji fikir tarixində mühüm bir mərhələ kimi önəmli yer tutur. Onların əsərlərində şəxsiyyət konsepsiyasının mühüm determinantları öz əksini tapmışdır.

N.Tusi, İ.Nəsimi, M.Füzuli, A.A.Bakıxanovun yaradıcılığında insanın mənəvi, psixoloji böyüklüyünə, insanın mənəvi təkmilləşməsinə, əqli inkişafına, özünüdərkinə, ədalətli və səmimi olmasına çox böyük yer verilmişdir.

Görkəmli mütəfəkkirlərimizin əsərlərində şəxsiyyət problemlərinin araşdırılması yalnız ədəbi fikir tariximizin qədimliyi və zənginliyi nöqteyi-nəzərindən deyil, həm də “insanın kəşfi”, “şəxsiyyət problemlərinin psixoloji təhlili” nöqteyi-nəzərindən də əhəmiyyətlidir. Onlar özlərinin ölməz əsərlərində yaratdığı bədii surətlərin daxili aləmini, mənəvi keyfiyyətlərini ön plana çəkmiş, davranış və hərəkətlərini psixoloji cəhətdən əsaslandırmışlar. Həmçinin şəxsiyyətin təşəkkül və inkişafında təbii-irsi amillərin, təlim və tərbiyənin rolunu qeyd etsələr də, fərdin şəxsiyyətə çevrilməsi prosesində sosiallaşmasına, ictimai müna-

sibətlər sisteminə qoşulmasına, özünütərbiyəyə başlıca yer vermişlər. Şəxsiyyətin kamilləşməsində özünüdərk və özünütərbiyənin rolunu diqqət mərkəzində saxlamışlar.

Qeyd etmək lazımdır ki, görkəmli tarixi şəxsiyyətlərin (məsələn, N.Tusi, İ.Nəsimi, M. Füzuli A.A. Bakıxanov və b.) heç biri ayrıca bir psixoloji əsər yazmamışlar. Lakin onların yaratdıqları əsərlərdə yeri gəldikcə təlim-tərbiyəyə, psixologiyaya, pedaqogikaya, fəlsəfəyə aid elə ibrətamiz fikirlər vardır ki, onları seçib, ümumiləşdirib vermək hər bir tədqiqatçının vətəndaşlıq borcudur. Dövrün tarixi şəxsiyyətlərinə düzgün qiymət vermək lazımdır. Onların yaradıcılıqları yaşadığı dövrlə əlaqələndirilməli və bu gün üçün əhəmiyyətli olan keyfiyyətlər ortalığa qoyulmalıdır. Yazıçı və şairlərin, filosofların əsərləri həmin dövrün güzgüsüdür. Tarixi psixologiya onların əsərlərində, tərcümeyi-halında öz əksini tapır. Şəxsiyyətin sosial-psixoloji, pedaqoji-psixoloji, mənəvi-psixoloji problemlərini, xalqın iztirablarını, adət-ənənələrini, əxlaqını, keçirdiyi hissləri, arzu və xəyallarını, xarakterini, milli ləyaqət və qürurunu öyrənmək üçün bu tarixi mənbələrə müraciət etmək lazımdır. Bu bizim qan yaddaşımız, genefondumuzdur. Bu baxımdan Azərbaycan klassiklərinin yaradıcılığı möhtəşəm bir abidədir.

Azərbaycanın bədii söz ustalarının psixoloji fıkirləri uzun müddət respublikada sistemli şəkildə öyrənilməmişdir. Bu, bir tərəfdən, onların yaradıcılığının özünün mürəkkəb və əhatəli olması ilə bağlı idi. Digər tərəfdən, xüsusən 50-80-ci illərdə Azərbaycan psixologiyasında eksperimental istiqamətin güclənməsi və vüsətli inkişafı ilə bağlı idi. Bu dövrdə Azərbaycanda psixologiya tarixi sahəsində bəzi kiçik məqalələri nəzərə almasaq, əsaslı bir tədqiqat işi aparılmamış istər qədim dövrlərdə, istər orta əsrlərdə, istərsə də yeni dövrdə Azərbaycan psixoloji fikrinin inkişaf tarxi sistemli öyrənilməmişdir.

Azərbaycan şifahi xalq yaradıcılığında əksini tapan psixoloji ideyalar dahi mütəfəkkirlər tərəfindən öyrənilmiş, təkmilləşdirilərək inkişaf etdirilmişdir. Bu istiqamətdə aparılan tədqiqatların araşdırılması da psixoloqlarımızın diqqətindən yayınma-

mışdır. Azərbaycanın görkəmli alim və mütəfəkkirlərinin M.Füzulinin (1498-1556) (Ə.K.Zəkuyev, A.O.Makovelski), N.Tusinin (1201-1274) (Ə.K.Zəkuyev, Ə.T.Baxşəliyev), A.A.Bakıxanovun (1794-1847) (A. Abdullayev, Ə.Bayramov, Ə.T.Baxşəliyev), İ.Nəsiminin (Ə.S.Bayramov) yaradıcılıqları psixoloji baxımdan az da olsa öyrənilmişdir.

Azərbaycanda elm və mədəniyyətin, maarif və ədəbiyyatın, pedaqogika və psixologiyanın inkişaf tarixini öyrənməkdə xalqımızın görkəmli nümayəndələrinin yaradıcılıq yolunu tədqiq etmək mühüm yer tutur.

Araşdırmalar göstərir ki, Azərbaycan psixoloqları klassiklərin yaradıcılığını sistemli şəkildə öyrənməsələr də, yeri gəldikcə bu problemə biganə də qalmamışlar.

Humanist fikirlər, zəhmətkeş insana hörmət və məhəbbət, ədalətsiz, zülmkar hakimlərə nifrət, faydalı fəaliyyətə, yaradıcı əməyə çağırış, varlığın gizli sirlərini açmaq ehtirası, sağlam insan şüurunu hər şeydən üstün tutmaq bədii sənət nümunələrində tez-tez rast gəldiyimiz qiymətli motivlərdir. Dünyanın hər yerində əsrlər uzunu böyük-kiçik bütün hakimlər zəhmətkeş kəndliyə alçaq nəzərlə baxmış, onu avam, cahil adlandıraraq ələ salmış, ehtiyac dolu həyatına gülmüşlər. Özlərinin bolluqdan çatlayan süfrələrini və dəbdəbəli saraylarını isə kəndlinin ağır əməyi ilə yetişmiş nemətlər bəzəmişdir. Şərqin də, Qərbin də böyük humanist şairləri və yazıçıları həmişə zəhmətkeş kəndlinin müdafiəsinə qalxmış, onun əməyini şöhrətləndirmiş, bu əməyin böyük həyati əhəmiyyətini qürurla qeyd etmişlər. Füzulinin, Tusinin zəhmətkeş insana, xüsusən, əməkçi kəndliyə həsr olunmuş şeirləri "ürək qanı" ilə yazılmışdır.

Halal əməyi ilə həm öz ailəsinə çörək qazanan, həm də başqa vətəndaşlara xidmət edən kənd və şəhər əməkçisinin tərənnümü klassik ədəbiyyatda ənənədən doğan adi ədəbi hadisə deyildi, böyük sənətkarların inamının, fikri və əxlaqi mövqeyinin, insani mahiyyətinin tələbi idi. Onların daha dərin düşünənləri həyatın, ictimai varlığın mövcud qaydalarının ədalətsizlik mənbəyi olduğuna və bu qaydaların dəyişilməsi zərurətinə

inananları zəhmətkeş insandan, onun ağır, əzabkeş vəziyyətindən və hüquqsuzluğundan danışarkən nəzərlərini əks qütbə salır, hakim, müstəbid ictimai quruluşun başında duranları, sükançıları qəzəb və nifrət hədəfi edirdilər.

Azərbaycan mili-mənəvi dəyərlərindəki sosial-psixoloji, fəlsəfi fikirlər Azərbaycanın görkəmli ədiblərinin yaradıcılığında öz əksini tapmışdır. Bu bir həqiqətdir ki, keçmişi olmayan bir xalqın gələcəyi də yoxdur. Öz tarixini, keçmişini bilməyən bir xalq xalq deyildir.

Aydındır ki, dünya üzrə elm tarixində Şərq klassiklərinin öz layiqli yeri var. Şərq dünya fəlsəfəsinə N. Tusi kimi dahini bəxş etmişdir.

XIII yüzillikdə Azərbaycanda ictimai-siyasi, fəlsəfi, pedaqoji-psixoloji fikrin inkişafında böyük xidmətləri olan mütəfəkkirlərdən biri də Nəsrəddin Tusidir (1201-1274). N.Tusi yaradıcılığının psixoloji baxımdan tədqiq edilməsi şəxsiyyət probleminin öyrənilməsi baxımından da olduqca əhəmiyyətlidir.

N.Tusi xalqımızın görkəmli filosofu, pedaqoqu və psixoloqu olmuşdur. Tusinin psixoloji görüşləri professor Ə.K.Zəkuyevin və professor Ə.T.Baxşəliyevin araşdırmalarının əsas tədqiqat obyekti olmuşdur. Professor Ə.K.Zəkuyev və professor Ə.T.Baxşəliyev Tusinin əsərlərində çox zəngin, orijinal psixoloji ideyaların əks olunduğunu nəzərimizə çatdırmışdır.

N.Tusi təkcə öz zəmanəsinin böyük şairi kimi deyil, həm də mütəfəkkir filosof, psixoloq, tərbiyəçi kimi də şöhrət qazanmışdır. N.Tusi pedaqoji-psixoloji fikrin öyrənilməsinə aid də müəyyən qədər fikir söyləmişdir. Tusinin fikrincə, şəxsiyyətin təşəkkül və inkişafında təlim-təbiyə mühüm yer tutur. İnsanın şəxsiyyət kimi yüksək inkişafı üçün tərbiyə və təhsil, gərgin əmək, adamın öz üzərində yorulmadan müntəzəm çalışması vacibdir.

Tusinin pedaqoji görüşləri müxtəlif aspektlərdə araşdırılsa da, onun əxlaqi görüşlərinin təhlilinə daha çox diqqət yetirilmişdir. Bu tədqiqatlar böyük mütəfəkkirin şəxsiyyət konsepsiyasının təhlili ilə bilavasitə bağlıdır. Tusinin psixoloji göıüşlərinin

sistemli tədqiqi onun pedaqoji görüşlərinin də sistemli təhlilində mühüm rol oynayır.

N.Tusiyə (1201-1274) dünya şöhrəti qazandıran onun riyaziyyat və nücum elmlərinə aid yazdığı "Zinas-Elxani" kimi əsərləri və Marağa rəsədxanasıdırsa, onu Şərq xalqlarına sevdirən "Əxlaqi-Nasiri" əsəri olmuşdur. Ümumiyyətlə, N.Tusi yaradıcılığının tədqiqatçısı N.Məmmədbəyli özünün "Marağa rəsədxanasının banisi N.Tusi" adlı əsərində Tusinin 76 əsərinin adını çəkir. N.Məmmədbəyli xüsusilə qeyd edir ki, bu əsərlər içərisində ən mükəmməli və çox sevilənі "Əxlaqi-Nasiri" olmuşdur. Çünki, Tusi burada tək özünün deyil, ibn Misgəvehin, ibn Sinanın, Əl-Fərabinin, Aristotelin, Platonun və bir sıra başqa alimlərin əxlaq, tərbiyə, fəlsəfə, iqtisadiyyat, ictimai əlaqələr, ailə, icma, şəhərsalma, ölkə dolandırma haqqında olan fikirlərindən məharətlə istifadə etmişdir. Bu kitab tezliklə şərq aləmində böyük şöhrət tapır. N.Tusi isə bu kitabı tam başa çatdırıb Nasir Mehtəşimə təqdim edir.

Müəllif qeyd edir ki, N.Tusinin "Əxlaqi-Nasiri" əsərinin yazılmasının qəribə bir tarixçəsi vardır. İsmaili hökmdarı Nasir Möhtəşim N.Tusiyə ərəb alimi ibn Misgəvehin o zaman əxlaq barəsində yazılmış məşhur "Əl-Təharə" kitabını fars dilinə tərcümə etməyi təklif edir. Tusi fikirləşir ki, əsəri tərcümə etdikdə "... onların gərək libaslarını soyundurub, birovuz paltar geyindirmək, adamı meymun şəklinə salıb eybəcərləşdirməyə oxşayır". O, qərara gəlir ki, yeni bir əsər yazmaqla kitabın tərcümə edilməsi fikrindən əl çəksin. Eyni zamanda orijinal, yığcam, əksəriyyətin başa düşəcəyi şəkildə o böyük alim ibn Misgəvehin kitabında olan bütün hikmətlərin xülasəsini vermək və başqa alimlərin də fikirlərini əlavə etməklə başqa bir kitab yazmaq qərarına gəlir.

"Əxlaqi-Nasiri", "Müqəddimə və kitabın yazılmasının səbəbi", "İlk qeydlər və elmlərin bölgüsü" və üç məqalədən ibarətdir. Birinci məqalə 17 fəsildən, ikinci 5 fəsildən, üçüncü məqalə isə 8 fəsildən ibarətdir. Beləliklə, əsər 3 məqalə - 30 fəsildən ibarətdir ki, burada hər bir müəllif özünün fəlsəfi, əxlaqi,

ictimai, siyasi, pedaqoji və psixoloji fikirlərini verməyə çalışmışdır. Lakin Tusi bu əsərini üç dəfə yenidən işləmiş, kitaba bəzi dəyişikliklər və əlavələr etmişdir. Ümumiyyətlə Tusi kitab boyu ibarə və ifadələri "səhmana" salmağa çalışır və bu sahədə yalnız ibn Misgəvehin "Əl-Təharə" kitabı deyil, "Səadətin dərəcələri", "Uşaqların tərbiyəsi" adlı əsərlərindən də istifadə etmişdir.

Bunlardan əlavə o zaman ərəb və fars dillərində son dərəcə böyük şöhrət tapmış Aristotel, İbn Sina, Qəzali və Biruninin fəlsəfə və əxlaqa aid kitablarından, "Kəlilə və Dimnə", "Ərdəşir Babəkan", "Ənişirəvanın vəsiyyətləri" kimi xalq müdrikliyi ilə dolu olan dastan və folklor ədəbiyyatından yeri gəldikcə, "Əxlaqi-Nasiri "yə daxil etmişdir.

Beləliklə, "Əxlaqi-Nasiri" demək olar ki, özündən əvvəl Yaxın və Orta Şərqdə əxlaqi-fəlsəfi fikirlərə yekun vurmuş, bunların yığcam icmalını verməklə Tusi öz orijinal fikirlərini də buraya əlavə etmişdir. Ona görə də, təəccüblü deyildir ki, biz son yeddi yüz il müddətində fars dilində "Əxlaqi-Nasiri" kimi ikinci orijinal bir əsərin yaranmasına hələlik təsadüf etmirik.

Azərbaycanın  qabaqcıl mütəfəkkirlərindən olan Nəsrəddin Tusi "Əxlaqi Nasiri" əsərində göstərmişdir ki, gənclərin şəxsiyyətinin inkişafında, gənclərdə iradi və ixtiyari aşılamalar nəticəsində irəliləyiş əldə etmək olar. Onun fikrincə, yeni nəslin yetişməsində təlim-tərbiyənin həlledici rolu vardır. Mənəvi təmizliyə, əxlaq saflığına, vicdan büllurluğuna son dərəcə böyük əhəmiyyət verən Tusi hər şeydən əvvəl, gənclərin mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmağı, onları düzlüyə, doğruluğa, bir sözlə, vicdanlı olmağa öyrətməyi sonra isə başqa tərbiyə işləri ilə məşğul olmağı məsləhət görür. O, qarşıya qoyulmuş məqsədə çatma, cəmiyyətdə vicdanlı, namuslu, bacarıqlı, xeyirxah, işgüzar adamların tərbiyə edilib hazırlanması üçün döyülüb-dalaşmaq da daxil olmaqla bütün üsulların tətbiq edilməsini mümkün hesab edir.

Qeyd etmək lazımdır ki, N.Tusi "Əxlaqi Nasir"in bütün məqalə və fəsillərində münasib yer düşdükdə, həmişə gənc-

lərdən, onların tərbiyə və keçdikləri təlimlərdən  danışır. Beləliklə, bütün əsrlər boyu gənclərin tərbiyəsi diqqət mərkəzində olduğu açıq şəkildə özünü biruzə verir. Bele ki, Tusi bu məsələyə xüsusi bir fəsil də həsr etmişdir. Çünki, insanın necə olacağı onun gəncliyində üzə çıxır.

Maraqlıdır ki, klassik Şərq şairlərinin, ədiblərinin çoxu, o cümlədən, N.Tusi də müstəbid hakimlərdən danışarkən onları var-dövlət hərisliyinin, sərvət, qızıl toplamaqdan doymayan tamahkarın canlı timsalı kimi fərdiləşdirirlər. Sərvət, var, dövlət, qızıl hərisliyinin insanı nə qədər alçaltdığını, vəhşiləşdirdiyini, kütləşdirdiyini Tusi də qələmə almışdır. Həris adam pul toplamaq üçün nə vasitəyə desən əl atar: alçaqlıq edər, müqəddəs qanunları pozar, insanları aldadar, cürbəcür pis yollara qədəm qoyar, ona düz yol göstərən, ağıllı söz deyən, öyüd-nəsihət verənlərə qulaq asmaz. Çünki sərvət hərisliyi gözünü də, qulağını da tutub. İnsanı içəridən çürüdən bu cür mənfi sifətlərə qarşı Şərqin humanist, mütərəqqi şairləri gözütox, mərd, cəsarətli, təmiz ürəkli və təmiz niyyətli olmaq kimi gözəl keyfiyyətləri yaymağa çalışmışlar.

Xalqa hökm etmək, insanları asılı vəziyyətdə saxlayan mövqelərə çatmaq, mənsəbpərəstlik çox qədim tarixi olan xəstəlikdir ki, onun vasitəsilə dövlət dəsgahını əlinə keçirən müstəbid və mənsəbpərəst hakimlər haqqı, ədaləti tapdalamış, azad düşüncəni, işıqlı fikirləri boğmağa cəhd etmiş, min cür heysiyyətsiz yaltaqlar, ikiüzlü riyakarlar vasitəsilə özlərini “yer üzünün Allahı”, “kainatın günəşi”, “əbədi parlayacaq ulduz” adlandırmışlar. Buna qarşı, Şərq intibahını yaradanlar onun estetik ideallarını yayanlar əlinin əməyi ilə dünyanı abad edən adamları ən xoşbəxt, ən ülvi adam kimi qiymətləndirmişlər.

İnsanın ləyaqəti, mənliyi, nəcibliyi, təvazökarlığı , açıq və təmiz ürəyi onun insanlıq çeşməsindən əmdiyi qiymətsiz nemətlərdir. Belə adam nə güclülərə əyilər, nə də zəifləri əyər! O, yaxşılığı satmaz və satın almaz! N. Tusi yazır:

Minnətsiz açılsın hamıya süfrən,
Minnətli süfrəyə əl uzatma sən!

Klassik Şərq və Qərb ədəbiyyatlarında ölkə hakimlərinə əsərlər həsr etmək, əsərlərdə hakimləri tərifləmək kimi ənənəvi bir hal olmuşdur. Ən böyük şair və filosoflar belə bu ənənədən kənara çıxa bilməmişlər. Xüsusilə, cavan vaxtlarında hələ hakimlərin və böyük mövqelərdə duranların əməllərindən xəbərdar olmadıqları zaman onlara mədhiyyələr yazmışlar. Lakin bir qədər püxtələşərək, "surət bir cilvədir, mənaya alış, bağlı qapıları açmağa çalış" deyən Tusi fəlsəfi fikri ilə hadisələrə qiymət verməyə başladıqları zaman pərdələrin dalında gördüklərindən dəhşətə gəlmiş və zəhmət adamı ilə, sadə xalqla ünsiyyətdə təsəlli tapmışlar.

Azərbaycanın görkəmli filosofu, pedaqoq və filosofu, astronomu və riyaziyyatçısı olan N.Tusinin yaradıcılığı psixoloji baxımdan az öyrənilmişdir. Tədqiqat zamanı bir neçə kiçik əsərlər, məqalələr, məruzə və tezislər (27, 30, 59, 71, 78, 92 və s.) müstəsna olmaqla onun psixoloji görüşlərinə aid digər əsərlərə, dissertasiyalara rast gəlmədik. Təbii ki, bu da təəssüf doğuran faktdır.

N.Tusinin psixoloji görüşləri ilk olaraq Ə.K.Zəkuyevin diqqətini cəlb etmişdir. Onun "Qədim Yunanıstanda və Romada psixoloji fikrin inkişafı" (Azərb. Resp. EA Tarix və Fəlsəfə İnstitutunun əsərləri, 1954, IV cild), "Nəsrəddin Tusinin psixoloji görüşləri" (Azərb. Resp. EA Tarix və Fəlsəfə İnstitutunun əsərləri, 1935, IV cild), "Yaxın və Orta Şərqdə ərəbdilli psixologiya" («Voprosı psixoloqii» 1959 № 4) və s. məqalələri buna misal ola bilər.

Ə.K.Zəkuyev Tusinin insanın tərbiyə edilməsi üçün mütləq peyğəmbərlərə, filosoflara, rəhbərlərə, tərbiyəçilərə və müəllimlərə ehtiyac olduğunu elmi cəhətdən əsaslandırmağa çalışdığını xüsusi olaraq qeyd edir.

O, xasiyyətin xüsusilə uşaqlarda iradi və ixtiyari aşılanma nəticəsində dəyişdiyini qəbul edir. Tusi bu sahədə valideynlərin, tərbiyəçi və müəllimlərin, o cümlədən, ictimaiyyətin tərbiyəsi ilə məşğul olan bütün şəxslərin böyük məsuliyyət daşıdıqlarını xüsusi qeyd edir. Mənəvi təmizliyə, əxlaq saflığına, vicdan

büllurluğuna son dərəcə böyük əhəmiyyət verən Tusi, hər şeydən əvvəl uşaqların mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmağı, onları düzlüyə, doğruluğa, bir sözlə, vicdanlı olmağa öyrətməyi, sonra isə başqa tərbiyə işləri ilə məşğul olmağı məsləhət görür.

Ə.K.Zəkuyevin araşdırmalarından belə qənaətə gəlmək olar ki, N.Tusi hər zaman uşaqların tərbiyəsinə, valideyn-övlad münasibətlərinə, onların yaxşı təlim-tərbiyə alması məsələlərinə geniş şəkildə yer vermişdir. Ailə məsələlərindən bəhs edərkən Tusi ailəni bütöv bir vəhdətə, ailə üzvlərini isə bədən üzvlərinə bənzədir və göstərir ki, ailə başçısı bütün ailə üzvləri arasında, xüsusilə uşaqların münasibətdə, əxlaq və davranışlarına diqqət yetirməlidir.

Tusinin fikrincə, uşaqda təmiz idraki qüvvələrdən birinci "həya" özünü göstərir, ona görə də hər şeydən əvvəl bu hissin tərbiyəsi və inkişafı ilə məşğul olmaq təklif olunur. "Həya"nın böyük idraki əhəmiyyətini qeyd edərək, bunun nə üçün inkişaf etdirilməsini belə əsaslandırır: "Uşaq həyalıdırsa, əksər hallarda başını aşağı salıb sırtıqlıq etmirsə, bu onun nəcibliyinə sübutdur, bu o deməkdir ki, onun nəfsi çirkin əməllərdən ikrah edib gözəl işlərə meyl göstərir, bu əlamət həmin istedadın uşaqda olduğuna dəlalət edir. Bu halda, həmin uşağın tərbiyəsinə xüsusi fikir verilməli, heç bir şeyi əsirgəməmək lazımdır".

Ə.K.Zəkuyevin fikrincə, "Tusinin verdiyi bu təriflər, normalar elmi və əxlaqi baxımdan belə indi də öz əhəmiyyətini itirməmişdir. İstər hikmət, istərsə elm, istər pis əməllərə verdiyi qiymətlər həm də insan mənəviyyatının təkmilləşməsi üçün əsas şərt kimi qəbul edildiyindən bu psixoloji-pedaqoji fikirlər xüsusi əhəmiyyət kəsb edir".

Ə.K.Zəkuyev düşünür ki, onun fəlsəfi, əxlaqi, ictimai və psixoloji fikirlərini araşdırıb xalqımıza çatdırmaq və böyüyən nəslin inkişafında bu fikirlərdən məqsədəuyğun şəkildə istifadə etmək alimlərimizin vətəndaşlıq borcudur.

Müəllifin fikrincə, Tusinin elmi-ədəbi irsi olduqca böyükdür. O, yaşadığı dövrün ən görkəmli alimi hesab edilmiş, "əllamə", "mühəqqiq", "həkim", "Xacə" və s. ləqəblərlə şöhrət tap-

mış, müxtəlif məzmun daşıyan onlarca əsər yazmışdır. İndiyə qədər Tusinin yaradıcılığı üzrə aparılan tədqiqat işini hələ qənaətbəxş hesab etmək olmaz. Tusinin bundan sonra da elmi tədqiqatlara və təcrübələrə ehtiyacı vardır. Çünki Tusinin fəlsəfəsi çox dərindir və bu dərinliyə vardıqca Tusi zəkasına, Tusi ziyasına heyrətlənməyə bilmirsən.

Ə.K.Zəkuyev qeyd edir ki, N.Tusinin tərbiyə, təlim və əxlaq məsələlərinin izahına dair maraqlı fikirləri bu gün də öz əhəmiyyətini itirməmiş, uzun illər keçməsinə baxmayaraq, xüsusi məna kəsb edərək müasir qalmışdır. Bunun bəzi psixoloji fikirlərdə izahını aşağıdakı kimi vermək olar:

Məlumdur ki, uşağı müxtəlif cəmiyyət və müxtəlif şərait müxtəlif şəkildə formalaşdırır. Burada yaşadığı cəmiyyətin, məktəbin, müəllimin, yoldaşın, qohumun, tanışın mühüm rolu vardır. O, əxlaq tərbiyəsinin qeyri-mümkünlüyünü və xarakterin insanla birgə doğulması haqqında ideyaları rədd edir. Yuxarıda qeyd etdiyimiz kimi, Tusi insanın tərbiyəsində ailənin, ətraf mühitin və bütövlükdə cəmiyyətin rolunu göstərir. Tusinin bu fikri müasir materialist psixologiya ilə üst-üstə düşür. Bununla da o, tərbiyəni qeyri-mümkünlüyü ideyası ilə nəinki barışmır, hətta bunun səhv bir fikir olduğunu sübut edir.

N.Tusinin ənənələrinə, eyni zamanda, müasir dövrdə uşaqların təlim-tərbiyə işlərində ən çox nəzərə alınan fərdi yanaşma prinsiplərinə də rast gəlinir. Onun ideyasına görə, insan elə bir varlıqdır ki, onun tərbiyə edilməsi prosesinin nə ilə nəticələnəcəyini qabaqcadan müəyyən etmək çox çətindir. Tusinin fikrincə, insanların bir qismi tərbiyəni tez götürür, digər qismi isə tərbiyəyə doğru meyli yavaş və ləng gedir. O, eyni zamanda oxşar olan iki xasiyyətin olmaması baxımından tərbiyə işlərində fərdi yanaşma metodunun əhəmiyyətini qeyd edərək yazır: “Heç bir sənət bir-birinə oxşamadığı kimi, heç bir xasiyyət də başqa xasiyyətə oxşamaz. Ona görə də tərbiyə və təlimdə ehmallıq göstərilməməlidir, çünki hər bir insan özünün daxili vicdan səsinə malikdir”.

Ə.T.Baxşəliyev tərəfindən də N.Tusi yaradıcılığı ətraflı şəkildə öyrənilmişdir. Ə.T.Baxşəliyev “Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti” (30) adlı kitabında N.Tusi haqqındakı fikirlərini geniş şəkildə şərh etmişdir. Müəllif tərəfindən N.Tusinin təlim-tərbiyə, valideyn-övlad münasibətləri haqqındakı məsələlərlə yanaşı, digər məsələlərə də aydınlıq gətirilmişdir.

Kitabda N.Tusi haqqında deyilir: “İnsanın psixoloji aləminə dərindən bələd olan mütəfəkkir onda nəyin yaxşı, nəyin pis, nəyin doğru, nəyin yalan olduğunu bir-birindən ayırmaq qabiliyyətini yüksək qiymətləndirir. Onun fikrincə, insan düşüncəsi ağı qaradan, xeyiri şərdən seçməyə o dərəcə qadirdir ki, o, öz iradəsinin gücü ilə aləmin hadisə və proseslərinə asanlıqla nüfuz edə bilər”.

Tusi qeyd edir ki, hər bir tərbiyəçidən tələb olunur ki, kiçik uşaqların mənəviyyatını zənginləşdirmək üçün onlara maraqlı nağıllar, hekayələr, şeirlər öyrətsin. Tusinin yaradıcılığında rast gəldiyimiz bu fikirləri oxuyarkən istər-istəməz Con Lokun XVII əsrdə irəli sürdüyü “Ağ lövhə” nəzəriyyəsi yada düşür. Onun fikrincə, uşaq doğularkən onun beyni “ağ lövhə” kimi təmiz olur. Sonra ətraf aləm ona təsir edir və xarakter formalaşır. N.Tusi isə bunu Con Lokdan dörd əsr əvvəl söyləmişdir.

Ə.T.Baxşəliyev Tusinin ən məşhur əsəri “Əxlaqi-Nasiri ”də yaşadığımız dövr üçün səciyyəvi olan bir çox məsələlərin olduğunu göstərir. Üçüncü məqalənin yeddinci fəslində Tusinin xalqın bütün təbəqələri ilə davranış qaydaları haqqında şərhləri vardır. O, burada bərabər təbəqə ilə davranış növlərindən biri kimi düşmənlər ilə davranış qaydaları haqqında danışır. O, qeyd edir ki, düşmənlərin vəziyyətindən həmişə xəbərdar olmaq, onların gördükləri işləri nəzarət altına almaq lazımdır ki, onların hiylə və xəyanətləri öyrənilib, vaxtında tədbir görülsün, ölçü götürülsün və onlara qələbə çalmağa müvəffəq oluna bilsin. Azərbaycan xalqının neçə illərdən bəri başına gətirilən saysız-hesabsız faciələrin əsasını buradan yaxşı dərk etmək olar. Çünki, nankor ermənilərlə münaqişənin başlanmasından çox əvvəl biz

onların vəziyyətindən və gördükləri işlərdən xəbərdar olmamışıq və bunun nəticəsində də qanlı hadisələrin hədəfinə çevrilmişik. Tusi düşmənləri məhv edib aradan qaldırılması yollarından danışarkən uzaqgörənliklə qeyd edirdi ki, düşməni hər zaman bağışlamaq olmaz. Onun bütün əsərləri və ibrətamiz fikirləri heç vaxt köhnəlib aradan çıxmamış, əksinə məna dərinliyi həmişə müasir olmuş və insanların köməyinə çatmışdır.

Bütün bu deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, N.Tusi yaradıcılığındakı pedaqoji-psixoloji fikirlərdən bu gün də yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsi işində məharətlə istifadə etmək məqsədəuyğun olar.

Tərəqqipərvər bəşəriyyət Azərbaycan xalqının görkəmli və dahi oğlu Xacə Məhəmməd oğlu Nəsrəddin Tusi adını həmişə böyük iftixar hissi ilə yad edir. Dərin elmi zəkaya malik olan böyük mütəfəkkir həm də humanist bir insan kimi nəinki Azərbaycanda, habelə Yaxın və Orta Şərq ölkələrində dərin hörmət və nüfuza malik şəxsiyyətlərdən biri hesab edilir.

**Sual və tapşırıqlar**

1. N.Tusinin şəxsiyyət haqqında nə kimi fikirləri vardır?
2. N.Tusinin şəxsiyyətin formalaşmasında təlim-tərbiyənin rolu haqqında fikirləri.
3. N.Tusinin psixoloji görüşləri.

**Ədəbiyyat**

1. Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011.
2. Baxşəliyev Ə.T.Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı: Nurlan, 2007, 528 s.
3. Nəsrəddin Tusi. Əxlaqi Nasiri. Bakı: Elm, 1989.
4. Məmmədova G.K. Psixologiya və bədii ədəbiyyatda şəxsiyyətin tipoloji problemləri(Dok. dis. avt.), Bakı, 2006.

5. Məmmədov T.M. Azərbaycan psixoloji fikir tarixində şəxsiyyət proble-mi. Bakı: Mütərcim, 2011.
6. Nəsrəddin Tusi. Əxlaqi Nasiri, Bakı, 2005, 278 s.
7. Zəkuyev Ə.K. IX-XI əsrlərdə şərqdə fəlsəfə və psixoloji nəzəriyyələr tarixindən, (Dok. dis.avt.), Bakı, indiki BDU, 1947.

## 2.2. İ.Nəsimi yaradıcılığında şəxsiyyətin özünüdərki haqqında

Bədii yaradıcılıq sahəsində görkəmli klassiklərimiz çoxdur. Belə klassiklərimizdən biri də XIV əsrdə yaşayıb yaratmış poeziya dünyasının unudulmaz şairi İmadəddin Nəsimidir (1369-1417). Onun zəngin ədəbi-bədii irsinin araşdırılması, eyni zamanda onun dəyərli fikir və ideyalarının öyrənilməsi psixoloji baxımdan çox mühüm və zəruri olan cəhətlərdəndir.

İ.Nəsimi xalqımızın görkəmli filosofu, pedaqoqu və psixoloqu olmuşdur.

İmadəddin Nəsimi XIV-XV əsrin böyük şair və mütəfəkkiri, Şərq renessansının ən görkəmli nümayəndələrindən biridir. O, şəxsiyyətin mənəvi azadlığının carçısı kimi insanı, onun yaradıcı dühasını tərənnüm etmişdir. Böyük sənətkar öz dövrünün poeziyasına, elmi və fəlsəfi fikrinə genişliyi ilə bələd olmuş, üç dildə dərin fəlsəfi məzmunlu bədii əsərlər yaratmış, əhatəli dünyagörüşünə malik bir tədqiqatçı kimi kainatın sirlərinə, insanın ruhi aləminin mahiyyətinə varmağa can atmışdır. Nəsimi yaradıcılığında onun psixoloji düşüncələri, mövcudat barədə fəlsəfi konsepsiyası tam və aydın surətdə öz əksini tapmışdır.

İ.Nəsimi yaradıcılığı Azərbaycanda görkəmli alim, tanınmış psixoloq Ə.S.Bayramov tərəfindən öyrənilmişdir. Ə.S.Bayramovun "Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri" (16) adlı kitabında, həmçinin "İ.Nəsiminin psixoloji fikirlərinin tədqiqinə dair" (14) adlı məqaləsində də İ.Nəsimi yara-

dıcılığı çox böyük məharətlə və ustalıqla araşdırılmış və təhlil olunmuşdur.

Ə.S.Bayramov qeyd edir ki, böyük mütəfəkkirin yaşadığı əsr Azərbaycanın qanlı müharibələr, istilalar dövrünə təsadüf edir. Sonsuz təqiblərə baxmayaraq o, bütün Orta Şərqi dolaşaraq öz mütərəqqi ideyalarını yaymağa çalışmışdır. Onun təbliğ etdiyi fikir və mülahizələr, görüşlər isə o dövrün hakim islam dini ideyalarının tamamilə əksinə olmuşdur. Buna görə də onun şeirlərini oxuyanlar belə ölüm təhlükəsinə məruz qalmışlar.

1417-ci ildə Nəsimi Hələb şəhərində əzablı ölümə məhkum edilmişdir. Lakin o ölümü də böyük mərdliklə qəbul etmişdir. Nəsiminin bu mətanəti Şərqdə müxtəlif əfsanələr doğurmuşdur. Ona görə də bu gün də belə xalqımız qatillər qarşısında əyilməyən, öz inam və əqidəsindən dönməyən böyük şairi intəhasız ehtiramla yad edir, ona dərindən bələd olmağa can atır.

Nəsimi əsərləri Azərbaycanda, Türkiyədə, İranda, demək olar ki, bütün Yaxın və Orta Şərq ölkələrində geniş yayılmış, sonrakı dövrlərdə bir sıra Qərb ölkələri alim və ədəbiyyatşünaslarının diqqətini cəlb etmişdir. Artıq XV əsrdə görkəmli Azərbaycan şairi Cahanşah Həqiqi Nəsimini Şərq və Qərbin ən görkəmli sənətkarları ilə müqayisə etmişdir.

Bizim dövrümüzdə də Nəsiminin həyat və yaradıcılığını tədqiq edən alimlər, şairlər onun adını dünya incəsənəti və mədəniyyətinin korifeyləri ilə bir sırada çəkirlər.

"Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri" (16) adlı əsər əsasən şəxsiyyətin formalaşmasının qanunauyğunluqları məsələsinə həsr olunmuşdur. Müasir mühit və şəxsiyyət psixologiyası, şəxsiyyətin özünüqiymətləndirməsi və mənəvi təkmilliyi, özünütərbiyə və şəxsiyyət, kollektiv və sosial psixologiya kitabda şərhini tapan problemlərdir. Kitabda həmçinin təlim-tərbiyə və təhsil prosesində şəxsiyyətin inkişafı və digər məsələlər də açıqlanır.

Kitabda diqqəti çəkən məqamlardan biri də Azərbaycanın böyük şair və mütəfəkkiri İmadəddin Nəsiminin yaradıcılığında psixoloji ideyaların tədqiqidir.

Müəllif burada müasir psixologiya üçün aktual sayılan bir sıra məsələlərə toxunur. O, qeyd edir ki, böyük ədib və mütəfəkkirlərin yaradıcılığının psixoloji baxımdan öyrənilməsi nəzəri və tarixi baxımdan əhəmiyyətlidir. "Qeyd etmək lazımdır ki, klassik ədəbiyyat nümayəndələrinin, xüsusən də şairlərin irsini psixoloji cəhətdən təhlil edərkən, onların idrak səviyyəsi, həyatı əks etdirmələrinin adekvatlığı və düşüncələri barədə ətraflı məlumat əldə etmək olur. Çünki şair və yazıçı çox halda öz bədii əsərlərində həm də tədqiqatçı kimi çıxış edir, yəni müntəzəm müşahidələri, spontan səciyyəli eksperimentləri ilə, eləcə də intuitiv yolla insanın daxili aləmi, sosial-psixoloji xüsusiyyətləri barədə çox qiymətli materiallar toplayır, onu mənalandırır və yeri gəldikcə öz əsərlərinin canına-qanına hopdurur.

Dövrün psixoloji fikirləri sənətkarın əsərində iki əsas formada öz ifadəsini tapır: ya həmin psixoloji biliklər sənətkarın sırf fəlsəfi-psixoloji əsərində (məs. M.Füzulidə olduğu kimi), yaxud müxtəlif janrlarda yazılmış bədii əsərlərində əks etdirilir. Bu halda sənətkar həm də mütəfəkkir-psixoloq kimi çıxış edir ".

İ.Nəsimi (XIV-XV əsrin ən böyük mütəfəkkiri) Şərqin böyük alim və filosofu, məşhur bir şəxsiyyət olmuşdur. O, əsərlərində şəxsiyyətin mənəvi, sosial-psixoloji azadlığı uğrunda mübarizə aparmış insanları haqqa, ədalətə, səmimiliyə, özünüdərkə çağırmışdır. Ə.S.Bayramov ədibin yaradıcılığında bu günümüzlə səsləşən həmin psixoloji çalarları seçib ümumiləşdirərək oxuculara təqdim edir, bununla da yeni nəslin mənəvi təkmilləşməsində böyük rol oynayan bir iş görür.

Özünüdərk və özünüqiymətləndirmə, mənəvi saflıq, əqidə, inam, şəxsiyyət üçün vacib sayılan sosial-psixoloji xüsusiyyətlərdir. Müəllif bu və ya digər əxlaqi keyfiyyətləri Nəsimi yaradıcılığından seçib ümumiləşdirərək təqdim etmişdir ki, bunun gənc nəslin bir şəxsiyyət kimi inkişaf edib formalaşmasında böyük əhəmiyyəti vardır.

"Nəsiminin nöqteyi-nəzərincə insan mürəkkəb struktura malik, həm genetik, həm də sosial cəhətdən şərtlənmiş dərin fərdiyyəti olan şüurlu varlıqdır. Onun rəyincə, bu amillər insanın

davranışını şərtləndirir, lakin şəxsiyyətin formalaşmasında üstün mövqeyi həyatda qazanılan keyfiyyətlər təşkil edir. Həm də belə insani keyfiyyətlərin təşəkkülü daha çox tərbiyə və özünütərbiyədən asılıdır.

Zərrələr bir nuridən nəşət edir, bəhrin suyu,
Gah yağmur tək yağır, gah dönür bir gövhərə.
Torpaq üstə min ağac qüvvət alır bir çeşmədən,
Lakin hər bir meyvədə rəng bir cürə, dad bir cürə.

Deyilənləri müəyyən mənada ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, özünüdərk insanın bir şəxsiyyət kimi inkişaf və təşəkkül etməsi prosesində mərkəzi yer tutur. Yalnız özünüdərk edən şəxsiyyət müdrik ola bilir və yaradıcı səviyyəsinə yüksəlir.

Özünü dərk etsə hər kəs, həqqi dərk edər yəqin,
Nəfsi tərk etməkdə gər əqlin dönərsə rəhbərə.

Ə.S.Bayramov xüsusi olaraq, Nəsiminin fəlsəfi və psixoloji ideyaları onun poetik yaradıcılığında, xüsusən də ictimai-fəlsəfi şerlərində öz əksini tapdığını göstərir. Nəsimi bu və ya digər fəlsəfi və ya psixoloji problemi necə başa düşdüyünü, necə şərh etdiyini toplu halında göstərən xüsusi fundamental əsər qoyub getməmişdir.

Məlumdur ki, orta əsrlərdə mütərəqqi-fəlsəfi və ictimai fikirlər yalnız tək-tək hallarda xüsusi əsərlərdə öz əksini tapa bilərdi, belə fikir və ideyalar daha çox ədəbi-bədii yaradıcılıq məhsullarında, yeredik cərəyanların nəzəri müddəalarında və s. ifadə olunurdu.

Ə.S.Bayramov qeyd edir ki, “Klassik ədəbiyyat nümayəndələrinin, xüsusən də şairlərin irsini psixoloji cəhətdən təhlil edərkən onların idrak səviyyəsi, həyatı əks etdirmələrinin adekvatlığı və düşüncələri barədə ətraflı məlumat əldə etmək olur. Çünki şair və ya yazıçı çox halda öz bədii əsərlərində, həm də tədqiqatçı kimi çıxış edir, yəni müntəzəm müşahidələri spontan səciyyəli eksperimentləri ilə, eləcə də, intuitiv yolla insanın daxili aləmi, sosial-psixoloji xüsusiyyətləri barədə çox qiymətli

materiallar toplayır, onu mənalandırır və yeri gəldikcə, öz əsərlərin canına-qanına hopdurur" .

Dövrün psixoloji fikirləri sənətkarın əsərində iki əsas formada öz ifadəsini tapır: ya həmin psixoloji biliklər sənətkarın sırf fəlsəfi-psixoloji əsərlərində, yaxud müxtəlif janrlarda yazılmış bədii əsərlərində əks etdirilir. Bu halda sənətkar həm də, mütəfəkkir-psixoloq kimi çıxış edir.

Nəsimi əsərləri nəinki onun çoxtərəfli və təkrarolunmaz şəxsiyyətinin bütün cizgilərini aydın və dəqiq şəkildə təcəssüm etdirir, həm də onlar, müasir təbirlə deyilsə, sənətkarın psixoloji ideya və fikirləri, sosial mübarizəsinin xarakteri, o dövrün təhsil səviyyəsi və fəlsəfi cərəyanları haqqında qiymətli informasiya mənbəyidir.

Müəllif qeyd edir ki, heç şübhəsiz, Nəsiminin psixoloji fikir və düşüncələri onun fəlsəfi görüşlərindən bilavasitə asılıdır. Onun dünyagörüşü hürufizm ideyalarının təsiri altında formalaşmışdır. Həmin dünyagörüşünün formalaşmasına Şərqin görkəmli filosof və mütəfəkkirlərinin fikirləri ciddi təsir göstərmişdir. Nəsimi öz yaradıcılığının ilk dövrlərində sufizm mövqeyində dayanmış, sonralar isə ömrünün axırına kimi hürufizmin əsas ideoloqlarından biri olmuşdur.

Lev Ozerov yazır: "Nəsiminin poeziyası altı əsrin qaranlığını işıq şüası kimi yararaq bizə gəlib çatmışdır. Ən qiymətli cəhət də odur ki, o indi də əvvəlki kimi nurlanır. Mən Nəsimini dünya lirikasının Koperniki adlandırmaq istəyirəm Nəsimidən yüz il kiçik olan Kopernik təsdiq edirdi ki, kainatın mərkəzi yer deyil, günəşdir. Böyük astronomun günəş haqqında dediklərini Nəsimi ondan yüz il əvvəl demişdir. Günəş kimi insan da kainatın mərkəzində durur. Nəsiminin poetik sisteminin əsas müddəası məhz budur. İnsanı Allah dərəcəsinə qaldırmaq onun bütün lirikasının bütün pafosunu təşkil edir".

Müəllif göstərir ki, "Nəsimi konsepsiyasının həm sosial-siyasi, həm də ideya-psixoloji tərəfləri vardır. Belə ki, təxminən həmin dövrdə Qərbdə təbiəti və insanı təbii-elmi cəhətdən tədqiq etmək prosesi dayanmışdır. Orqanizmi və onun psixi fəaliyyətini

təcrübi surətdə öyrənmək bu barədə dini spekulyasiya və mistik görüşlərlə əvəz edilmişdir".

Ruh bədəndə və ilahilikdə ikili həyat sürən bir mahiyyət kimi izah edilirdi, həm də onun həqiqi mahiyyəti guya ilahi varlığında təcəssüm edir, başqa sözlə, onun qeyri-real mövcudluğu həqiqi həyat sayılırdı.

Hürufistlərin, xüsusən də Nəsiminin ruhun mahiyyəti haqqında mülahizələri daha geniş maraq doğurur. Məlumdur ki, ruh klassik psixologiyanın ən ümumi anlayışıdır. Nəsimi, eləcə də onun sələfləri olan hürufistlər, əlxüsus Nəimi belə hesab etmişlər ki, maddi və mənəvi (olanlar) qırılmaz surətdə bir-biri ilə əlaqədardır, daha vacib və yeni cəhət odur ki, onların fikrincə, ruh daima inkişafdadır.

Nəsiminin yuxu və yuxugörmə hadisəsinə yanaşması daha çox hürufizmin həmin hadisəni necə başa düşdüyünü əks etdirir. Yuxu və yuxugörmə real əşyalar, cisimlər aləmindən təcrid edilmiş bir şey deyildir, o həmin real, gerçək aləmin obrazlarının təcəssümüdür.

Ə.S.Bayramova görə, Nəsiminin tam ilə hissənin qarşılıqlı əlaqəsinə aid fikirləri də maraqlıdır. Həmin problem yalnız fəlsəfi deyil, həm də bir sıra istər klassik, istərsə də müasir psixoloji cərəyanlar tərəfindən müzakirə edilmiş, lakin hələ indiyə qədər bu mübahisələr məsələnin qəti həllinə gətirib çıxara bilməmişdir. Nəsiminin əsərlərini oxuyaraq belə nəticəyə gəlmək olar ki, aləm zərrəciklərdən ibarətdir, həm də hər bir zərrəcik müəyyən funksiyanı yerinə yetirməklə bərabər, bir sıra zərrəciklər yaratmaq, törətmək qabiliyyətinə malikdir. İnsan məhz belə yaratmaq qabiliyyətinə malik olan belə zərrəciklərin məcmusudur.

Bundan əlavə müəllif göstərir ki, Nəsiminin insan konsepsiyasında çox mühüm yeri onun özünüdərketmə haqqında ideyası tutur. Hürufilik təlimində özünüdərketmə insanın özünütəkmilləşdirmə sistemində çox mühüm yer tutur. Özünüdərketmə sayəsində insan daxilən təmizlənir, paklaşır, fəal varlığa çevrilir, daha da təkmilləşərək müdrik olur.

Nəsimidə biz insan haqqında olan digər konsepsiyalara nisbətən insanın başqa sosial mövqeyinə də rast gəlirik.

Nəsimidə refleksiya insanın özünü təkmilləşdirməsinin mühüm amillərindən biri kimi göstərilir. Özünü dərk edərək insan bir tərəfdən, öz nöqsanlarından xilas olur, təkmilləşir, özünü tərbiyəyə qabil olur, digər tərəfdən isə özünüdərketmə-insanın öz potensial imkanlarının sosial aktivliyinin tapılması mənbəyidir.

Nəsiminin nöqteyi-nəzərincə insan mürəkkəb struktura malik, həm genetik, həm də sosial cəhətdən şərtlənmiş dərin fərdiyyəti olan şüurlu varlıqdır. Onun rəyincə bu amillər insanın davranışını şərtləndirir, lakin şəxsiyyətin formalaşmasında üstün mövqeyi həyatda qavranılan keyfiyyətlər təşkil edir. Həm də belə insani keyfiyyətlərin təşəkkülü daha çox tərbiyə və özünü-tərbiyədən asılıdır.

Deyilənləri müəyyən mənada ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, refleksiya insanın bir şəxsiyyət kimi inkişaf və təşəkkül etməsi prosesində mərkəzi yer tutur. Yalnız özünü dərk edən şəxsiyyət müdrik ola bilir və yaradıcı səviy-yəyə yüksəlir.

Özünüdərk edən insana bütün həqiqətlər açılır, o artıq kö-məksiz qul vəziyyətində qalan bir məxluq deyil, qüdrətli ilahi qüvvəyə malik olur.

### Sual və tapşırıqlar

1. İ.Nəsiminin şəxsiyyət və onun təşəkkülü haqqında nə kimi fikirləri vardır?
2. İ.Nəsimi yaradıcılığının psixoloqlar tərəfindən tədqiq edilməsi yolları.
3. İ.Nəsiminin psixoloji görüşləri.

**Ədəbiyyat**

1. Bayramov Ə.S. İ. Nəsiminin psixoloji fikirlərinin tədqiqinə dair, Voprosı psixoloqii jurnalı, 1976, №1.
2. Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011.
3. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı: Nurlan, 2007, 528 s.
4. Məmmədova G.K.Psixologiya və bədii ədəbiyyatda şəxsiyyətin tipoloji problemləri (Dok. dis. avt.), Bakı, 2006.
5. Məmmədov T.M. Azərbaycan psixoloji fikir tarixində şəxsiyyət problemi. Bakı: Mütərcim, 2011.

## 2.3. M.Füzuli yaradıcılığında şəxsiyyət problemi

Azərbaycanın görkəmli mütəfəkkirlərindən biri də M.Füzulidir. M.Füzulinin yaradıcılığı qismən də olsa Ə.K.Zəkuyev tərəfindən öyrənilmişdir. Ə.K.Zəkuyevin "Füzulinin psixoloji görüşləri" (91) adlı əsərində M.Füzulinin bədii yaradıcılığında da psixoloji fikirlər çox böyük ustalıqla şərh edilmişdir. Şairin "Leyli və Məcnun", "Bəngü-Badə", "Əmsül-Qəlb", "Söhbətül-Əsmar", "Həft-Cam", "Səhhət və Mərəz", "Şikayətnamə", "Rindu-Zahid" əsərlərində gənc nəslin təlim-tərbiyəsinə, təhsilə geniş yer verilir. Bu əsərlərdə dövrün ictimai-siyasi hadisələri ilə yanaşı, insanların daxili psixoloji aləmi, düşüncə və xəyalı, uşaqların psixoloji düşüncələri əks olunmuşdur.

M.Füzuliyə görə, "İnsan kainatın bünövrəsi, təbiətin bir hissəsidir. İnsan dünyaya yaşamaq, yaratmaq, həyatı gözəllik qanunları əsasında qurmaq üçün gəlmişdir. İnsan əgər insandırsa, cəmiyyətdə bir-biri ilə mehriban şəraitdə yaşamalı, bir-birinə kömək etməlidir. Bunlar onun insanlıq vəzifələridir".

Ə.K.Zəkuyevə görə, M.Füzuli yaradıcılığı ilə yaxından tanış olduqca onun psixoloji fikir aləminin zənginliyi, əsrarəngliyi diqqəti cəlb edir. Şair əsərlərində gənc nəslin təlim-tərbiyəsinə,

təhsilinə geniş yer verir. Bu əsərlərdə ictimai-siyasi hadisələr ilə yanaşı, insanların daxili psixologiyası, düşüncə və xəyalı, uşaqların psixoloji düşüncələri əks olunmaqla o, həm yaşlıların, həm də gənclərin ürək çırpıntılarını, hiss və həyəcanlarını, həyata münasibətlərini çox ustalıqla verə bilmişdir. Təsadüfi deyil ki, M.Füzulini qəlb şairi adlandırırlar. İnsanın sevgisini, aşiq və məşuqun keçirdiyi mənəvi zövqü, psixoloji sarsıntıları Füzuli qədər real, bəzən də romantik səpkidə ustalıqla verə bilən ikinci bir şairə Azərbaycan ədəbiyyatında çox az rast gəlirik. Şair əsərlərində məhəbbətin bütün psixoloji ruhi təzahürlərini, həyəcanlarını dərindən duyaraq təsvir etmişdir.

Müəllifin fikrincə, Füzulinin psixoloji fikirlərini qismən də olsa şərh etmək üçün "Leyli və Məcnun" poemasında yeri gəldikcə müraciət etmək yerinə düşər.

Əsərdə təsvir olunur ki, Leyli və Qeys bir məktəbdə oxuyurlar. Bu zaman onlar bir-birini sevir. Şair əsərdə sevgi həyatının bütün əlamətlərini, gənclərin alovlu baxışlarını, həyəcandan qızarmış yanaqlarını, hətta ürək döyüntülərini də təsvir etməyə çalışmışdır.

Şair Leylini elə gözəl təsvir edir, onun bədii portretini sözlə elə nəxşə çəkir ki, oxucu Məcnunun sevgisinə, onun düşdüyü psixoloji vəziyyətə şübhə etmir.

Füzuli sevgililərin gözəlliklərini təsvir etməklə bərabər həssas qəlb şairi kimi gənclərin qəlb döyüntülərini izləyərək, onların ruhunda baş qaldıran, sevgidən fəqan edən hiss və həyəcanlarını, məhəbbətin psixoloji təzahürlərini də nəzərdən qaçırmır. Leyli və Qeys arasında sevgi münasibətlərinin inkişafı, getdikcə qüvvətlənməsi, onların məktəb həyatındakı dostluq və ünsiyyəti çox təbii göstərmişdir və psixoloji cəhətdən inandırıcıdır. Şair Məcnun və Leylinin görüş səhnəsini təsvir edərkən iki gəncin, xüsusilə Məcnunun bu görüşdə keçirdiyi psixoloji gərginliyi məharətlə təsvir etmişdir. Gözəl bahar günündə onlar çəmən seyrinə çıxarkən çöldə rastlaşır. Sevgililər qəşş edib, özlərindən gedirlər, yəni psixoloji gərginliyin son həddinə, stress vəziyyətinə düşürlər. Bu hadisədən sonra Qeys paltarını

cırıb yoldaşlarını, ata-anasını tərk edərək dağlara qaçır, vəhşi heyvanlar arasında, təbiət qoynunda həyat keçirir. Şair Məcnunun məhəbbətinin saf və paklığını, onun üçün mənəvi qida və həyat olduğunu, bu məhəbbətin ötəri deyil əbədi olmasını Kəbədə dua etdiyi səhnədə misli görülməmiş ustalıqla təsvir etmişdir.

Ata oğlunu müqəddəs Kəbəyə apararkən ondan xahiş edir ki, Allaha dua edib, ondan əlac istəsin, məhəbbət onun canından, qəlbindən uzaqlaşdırmağı xahiş etsin. Amma Məcnun müqəddəs Kəbədə nə diləyir:

Ya rəbb, bəlayi eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi eşqdən etmə cuda məni!

Şair Leylinin də keçirdiyi həyəcan və hissləri, psixoloji gərginliyi məharətlə qələmə almışdır. Şair o dövrün, cəmiyyətin mənəvi-əxlaqi əsarətin məhkum olunmuş, sevən bir qızın iztirablarını nə qədər doğru və təsirli ifadə etmişdir.

Müəllif göstərir ki, poemada ən gözəl unudulmaz hadisələrdən biri də Məcnun ilə Leyli arasında məktublaşmadır. O, məktublarda Füzuli öz qəhrəmanlarının zəngin daxili aləmini, onların böyük faciələrini göstərmişdir. Leyli də öz məktubunu alovlu bir ehtirasla sevən, bir qəlbin dərin iztirablarını əks etdirmişdir. Bu məktubda Məcnun öz sevgilisini əhd-peymanı sındıran vəfasız, etibarsız adlandırır. Leylinin Məcnuna cavab məktubunda onun ürək yandıran sözlərində bütün varlığını, gəncliyini, məhəbbətin şirin, cazibəli xülyalarına vermiş gənc bir qızın məhkum ruhu səslənir. Leyli Məcnun qarşısında özünü günahkar hesab edib, üzr istəyir. O sözlərində məhəbbətə sadiq, vəfalı olduğunu və öz səadətini azad məhəbbətini axtardığını səmimi bir şəkildə ifadə edir.

Füzulinin qəhrəmanları öz istəklərinə çata bilməsələr də mühit onların iradəsini qıra bilmir. Bu mənəvi ucalığa məhəbbətin “xoş” iztirablarına dözərək Leyli və Məcnun əsl iradə göstərir və buna görə də cəmiyyətin, o qarışıq mühitin fövqündə dururlar.

Şair Məcnun və Leyli surətlərini deyil, başqa surətlərin də psixoloji vəziyyət və düşüncələrini məharətlə verə bilmişdir. Məsələn, şair qızının eşqə düşdüyünü bilən ananın Leylinin anasının psixoloji vəziyyətini çox təbii hal kimi təsvir etmişdir.

Ana qızının oğlana aşiq olmasını namus ləkələyən bir iş kimi qəbul edir. Bununla yanaşı, Məcnunun anasının keçirdiyi hallar, yeganə oğlunun dərdinə əlac tapmayan, ondan tamam əl üzdüyünü, atanın sarsıntıları da çox təbii və inandırıcıdır.

Ümumiyyətlə, öz qəhrəmanlarının müxtəlif vəziyyətlərini, müəyyən ruhi hallarını göstərmək üçün yeni ifadə vasitələri tapmağı bacaran bir sənətkardır.

Ə.K.Zəkuyev qeyd edir ki, "Füzuli psixoloji fikirlərini elmi şəkildə də izah edə bilən şairlərdəndir. O, özünün "Mətlə-ül-etiqad" adlı fəlsəfi əsərində insanın ruhu haqqında irəli sürülən və ona məlum olan bütün nəzəriyyələri, müxtəlif adamların fikirlərini izah etmişdir".

Füzuliyə görə ruh insan tərəfindən dərk edilə bilməz. Füzuli bədənin və ruhun əvvəl olması məsələsində belə mövqe tutur: "Labüd olaraq əvvəlcə bədən olmalıdır ki, ruhu növə görə şəxsi bölmələr şəklində formalaşdırsın ". O, ruh haqqında fikirlərində diqqət, hafizə, xəyal, instinkt kimi psixoloji keyfiyyətləri də nəzərə alırdı. Şairə görə "ruh zahiri və daxili duyğulardan ibarətdir". O, ruhun mərkəzini beyində görür.

Füzuli "Səhhət və Mərəz" əsərində psixoloji halları beyində əmr olan on muzdura bənzədir və onları iki qrupa bölürdü: zahiri və daxili duyğular.

Zahiri duyğuları da öz növbəsində beş hissəyə bölürdü: eşitmə, görmə, qoxu bilmə, dad, lamisə (toxunma).

Zahiri duyğularla yanaşı daxili duyğuları da beş hissəyə bölürdü: Müştərək (xarici təsirləri xəyala döndərir, çevirir), xəyal (müştərək duyğunun verdiyini çevirir), mütəfərriq (xəyalın verdiyi təsirləri bir-birindən fərqləndirir), fəhm (xeyr və zərəri, dostla düşməni fərqləndirir), hafizə (alınan təsirləri mühafizə edir).

Müəllif qeyd edir ki, Füzuli ruhun bədəndən çıxıb, başqa bədənə girməsi fikrini kəskin tənqid edib göstərirdi ki, insan yalnız bədən və ruhdan intişar tapır ki, bunlar da bir-birindən təcrid olunan şəkildə mövcud ola bilməz. Çünki ruh bədənsiz aləmi dərk edə bilməz. Şairin fikrincə, eşq təkmillik etibarilə duyğuların hamısından üstündür. O, özünün "Səhhət və Mərəz" əsərində gözəllik, məhəbbət və s. ali insan duyğularından bəhs edir. O, hər şeyin fərqində eşq görür. Eşqlə ruh görüşürlər. Ruh eşqdən hüsnün keyfiyyətlərindən danışmağı xahiş edir. Eşq ona cavab verir ki, onun yeri yoxsulluq vadisindəndir, onu görmək üçün özünü dərk etməlisən. Ruh təəccüb edir. Eşq ona bu fikirləri sübut edir və ruhu inandırır. Ruh xahiş edir ki, onu hüsnün vüsalına yetirsin. Eşq bu yolun çətinliyini bildirir. Onlar birlikdə səyahətə çıxırlar, əvvəlcə məşuqluq vadisinə, oradansa eşqin ölkəsinə gəlirlər. Onlar burada bir sıra psixoloji hadisələrlə qarşılaşırlar. Göründüyü kimi Füzuli elmi-bədii formada bədənin hər bir üzvünü istənilən şəkildə təsvir edir.

Müəllif qeyd edir ki, şair "Mətlə-ül-etiqad" adlı fəlsəfi əsərində varlığın maddi aləmin mənşəyi, inkişafı haqqında Fallos, Anansaqor, Heraklit, Demokrit və digar qədim Yunan və Şərq alimlərinin və filosoflarının fikirlərini şərh edir. Füzuli insanları dünyagörüşləri, daha doğrusu, şüur və materiya anlayışına, aləmin gerçəkliyi məsələsinə münasibətləri etibarilə üç qrupa ayırır. Lakin elə adamlar vardır ki, qəti olaraq onları qəbul etmir. Bu adamlar sofilərdir. Başqaları hiss olunan aləmi qəbul edir, lakin şüuru (ideyalar aləmini) qəbul etmirlər. Bunlar təbiətşünaslardır. Digərləri bunların hər ikisini qəbul edir, lakin onları bir-birindən fərqləndirən cəhətlər haqqında danışmırlar. Bunlar filosof materialistlərdir.

Müəllif qeyd edir ki, Füzuli "Həft cam" adlı əsərlərində aləmin sabit qalmadığını dəyişdiyini, bir haldan, bir şəkildən başqa bir şəklə, başqa keyfiyyətə keçdiyini görür. Füzuliyə görə, aləm dəyişərsə də, bir haldan digər hala keçərsə də, lakin materiya getmir.

Bundan əlavə şair tərəfindən "Meyvələrin söhbəti" poemasında gilas, ərik, armud, heyva, nar, şaftalı, üzüm və başqa meyvələrin bir-birilə mübahisə etdiklərini təsvir edir. Bu hadisələr qızışır və səyahətə çıxan bir şəxs bu hadisədən məyus olur. Geri dönmək istədiyi zaman yolu bostandan düşür. Burada da mübahisə vardır. Lakin bunların arasında müəyyən fərqlər vardır. Bağda əgər o dövrdəki şəhərdə olan hərc-mərclik, özbaşınalıq, lovğalıq təsvir olunurdusa, bostanda bu mübahisə şahla, vəzir, vəkil və müavinləri arasında gedir. Hər iki halda insanın özünü öymək, lovğalıq və təkəbbürlüyü, nadanlıq kimi qələmə alınır. Füzuli uşaqları həmin mənfi hallardan çəkindirir, onları düzlüyə, alicənablığa və təvazökarlığa çağırır. Bu şeiri oxuyan hər bir kəs lovğalıq və təkəbbürlülüyün nə ilə nəticələnəcəyinin şahidi olur və bu yoldan çəkinirlər. Qəlblərində bu mənfi hisslərə yer vermirlər.

M.Füzulinin psixoloji görüşlərinə eyni zamanda "Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti" (30) adlı əsərdə rast gəlirik. Bu kitabda da M.Füzuli yaradıcılığı çox böyük ustalıqla araşdırılaraq oxuculara təqdim olunmuşdur. "Füzuli ruhun bədəndən çıxıb, başqa bədənə girməsi hadisəsini kəskin tənqid edib göstərirdi ki, insan yalnız bədən və ruhdan intişar tapır ki, bunlar da bir-birindən təcrid olunan şəkildə mövcud ola bilməz. Çünki ruh aləmi bədənsiz aləmi dərk edə bilməz".

Həmçinin M.Məhərrəmovun M.Füzuli yaradıcılığı haqqında dediyi fikirlər də diqqəti cəlb edir: "Füzuliyə görə, bütün ruhi hadisələrin daşıyıcısı olan insan həyat və tərbiyənin təsiri ilə inkişaf edib dəyişsə də, bu prosesdə fitri xüsusiyyətlər həlledici rola malikdir. Kifayət qədər fitri imkanlara malik olmayan adam bir şey öyrənsə də, onun işinin nəticəsi orijinal olmayacaq, o, başqalarını təqlid edəcəkdir. Adamı tərbiyə edərkən qayğı və tələbkarlıq göstərmək lazımdır.

Füzuli belə hesab edir ki, adamların rəftarında temperament xüsusiyyətləri mühüm mənaya malikdir.

Şəxsiyyət yüksək həyat məqsədinə malikdir və o, buna nail olmayınca sakitləşmir. Məqsədə nail olma yollarını düşünərkən uzaqgörən olmalı və dərin fikirləşərək qəbul edilən qərarı mütləq icra etməlidir.

Məşhur "Leyli və Məcnun" poemasında motivlər mübarizəsi prosesi parlaq və maraqlı surətdə təsvir olunur.

Həyat müddətində insanda bir sıra müsbət və mənfi keyfiyyətlər təşəkkül edir. O, adamın yalançılıq, rüşvətxorluq, ədalətsizlik, acgözlük kimi eybəcərliklərini amansızcasına ifşa edir. Öz xarici görünüşü ilə fəxr edən dərin səhvə yol verir. Daxili gözəllik, bilik, təvazökarlıq insanın ən əsas məziyyətidir.

Füzuli psixi və fiziki hadisələrin qarşılıqlı təsirini qeyd edir. Hüzn, qısqanclıq kimi psixi hadisələrin təsiri ilə orqanizm zəifləyir, xəstəlik törəyir, güclü kədər və qorxudan müvəqqəti olaraq nitq tutula bilər; qüvvətli məhəbbət təsiri ilə, Məcnunda olduğu kimi, adam "ağlını itirir ".

Ümumilikdə deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, psixoloji fikirlərə əsasən M.Füzulinin bütün əsərlərində rast gəlmək olar. Eyni zamanda o, hər bir əsərində ayrıca bir problemə toxunmuş və oradakı psixoloji məqamları da çox məharətlə göstərə bilmişdir.

**Sual və tapşırıqlar**

1.M.Füzulinin şəxsiyyət haqqında fikirlərini necə izah etmək olar?

2.M.Füzulinin yaradıcılığında şəxsiyyətin təşəkkülü və inkişafı.

3.M.Füzulinin psixoloji görüşləri.

**Ədəbiyyat**

1.Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011.

2.Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı: Nurlan, 2007, 528 s.
3.Məmmədova G.K.Psixologiya və bədii ədəbiyyatda şəxsiyyətin tipoloji problemləri (Dok. dis. avt.), Bakı, 2006.
4.Məmmədov T.M. Azərbaycan psixoloji fikir tarixində şəxsiyyət problemi. Bakı: Mütərcim, 2011.
5.Zəkuyev Ə.K. Füzulinin psixoloji görüşləri, Bakı, APİ elmi əsərləri, IX cild, 1959.

## 2.4. A.A.Bakıxanovun şəxsiyyətin mənəvi-psixoloji təkmilləşməsi haqqında fikirləri

A.A.Bakıxanov xalqımızın görkəmli filosofu, pedaqoqu və psixoloqu olmuşdur. Bakıxanovun psixoloji görüşləri A.Abdullayev, professor Ə.S.Bayramov və professor Ə.T.Baxşəliyevin əsərlərində öz əksini tapmışdır.

A.A.Bakıxanov xalqının dərdi-səri ilə yaşayan böyük bir mütəfəkkir olmaqla yanaşı, həm də xalqımızın psixologiyasına dərindən bələd olan, onların etnik-psixoloji xüsusiyyətlərini öz əsərlərində böyük sənətkarlıqla əks etdirən maarifpərvər bir psixoloq olmuşdur.

Tarixi şəxsiyyət, filosof, yazıçı və şair A.A.Bakıxanov "Gülüstani-İrəm" adlı əsərində yazır: "Tarix insana öz millətinin əxlaqından və təbiətinin xassələrindən, qonşu tayfaların rəftarından xəbər tutması, cürbəcür xalqların əlaqələrini anladır" (1951, səhifə 9). Tarixi qaynaqlar şahidlərdir. Şahidi ətraflı danışdırıb dindirmədən, onun dediklərini psixoloji, hüquqi baxımdan təhlil etmədən, nəticə çıxarmaq, baş vermiş cinayətdə günahkarı aşkar etmək çətindir. Bu baxımdan tarixi qaynaqları öyrənmək vacibdir. Çünki, xalqın əxlaqi sərvətlərini cilalayan, ona sığal çəkən, xalqın özünü yaşadan amillərdən biri onun tarixidir.

Abbasqulu ağa Bakıxanov (1794-1847) Azərbaycan xalqının dərin və hərtərəfli biliyə malik olan mütəfəkkirlərdən biri-

dir. Onun tarix, fəlsəfə, etika, pedaqogika, psixologiyaya aid qiymətli fikirləri vardır ki, ondan bu gün də faydalanmaq olar.

Şairin dünya görüşünün inkişafında onun rus yazıçıları ilə yaxından tanışlığı əhəmiyyətli rol oynamışdır. Xüsusilə, "Ağıldan bəla" əsərinin müəllifi A.S.Qriboyedov ilə onun əməkdaşlığı hər ikisinin yaradıcılığına müsbət təsir göstərmişdir. Bakıxanovun Puşkinin yaradıcılığı və ailəsi ilə əlaqəsi də təsirsiz qala bilməzdi. Qriboyedovun öz əsərlərinin ilk variantını Bakıxanova oxuması və onun fikrini öyrənməsi Qüdsinin hələ gənc yaşlarında çox dərin biliyə və hörmətə malik olduğunu göstərir. Təsadüfi deyildir ki, Bakıxanov özünün tarixi əsəri olan "Gülüstani-İrəm"i Lado Zabletski ilə birlikdə rus dilinə tərcümə etmişdir. A.A.Bakıxanov məşhur rus şairi Bestujev-Marlinski ilə də birgə çalışmışdır.

A.A.Bakıxanov yaradıcılığı da Azərbaycan psixoloqları üçün tədqiqat obyekti olmuşdur. M.V.Vəliyevin "A.A.Bakıxanovun əsərlərində psixoloji məsələlər" (Bakı, 1999) (89), "A.A.Bakıxanovun maarifçilik ideyalarından istifadə" (Bakı, 1999), A.K.Abdullayevin "A.A.Bakıxanovun emosiya və hiss haqqında görüşləri" (Bakı, 1970 ), "A.A.Bakıxanovun ruh haqqında görüşləri", (Bakı, 1970), Məhərrəmovun M.C. "A.A.Bakıxanovun psixoloji görüşləri" (Bakı, 1966) (64), Ə.T.Baxşəliyevin "Abbasqulu Ağa Bakıxanovun tərbiyə psixoloji məsələlərinə dair fikirləri" (25), Ə.S.Bayramovun "A.A.Bakıxanovun irsində psixologiyaya aid ideya problemlərin inikası" adlı məqalələri bu böyük tarixi şəxsiyyətin psixoloji fikirlərinin öyrənilməsinə yönəldilmiş əsərlərdir.

A.K.Abdullayev qeyd edir ki, A.A.Bakıxanov insan şüurunun qüdrətinə böyük qiymət verərək "Hikmətin fəziləti" adlı mənzum hekayəsində çox maraqlı mənzərə yaradır. Bu hekayədə dünyada ən xeyirli şeyin hünər və qabiliyyət, ən yaxşı şeyin xeyirxahlıq və ən lazımlı şeyin həqiqət olduğunu aydın boyalarla təsvir edir. Bu fikir onun "Məşvərətin şərtləri" şeirində də öz əksini tapmışdır. Bu şeirdə qoca bir alimin qəddar əmirə müraciəti təsvir olunur.

Eyni zamanda A.A.Bakıxanov öz yaradıcılığında təlim-tərbiyə məsələlərinə də geniş yer vermişdir.

A.A.Bakıxanovun bütün yaradıcılığında tərbiyə problemi qırmızı xətt kimi özünü göstərir. O, bu problemi həmişə özü üçün ən önəmli vəzifə sayıb. Özünün dediyi kimi: "Mən nə qədər axtardımsa uşaqların təlimi üçün elə bir kitab tapa bilmədim ki, o asan və anlaşılan bir dil ilə onların əxlaq gözəlliyinə dəlalət etsin. Bəzi işlənməkdə olan kitablar o qədər qarışıq-dolaşıq ibarələrlə yazılmışdır ki, müəllimlərin çoxu özləri onları dərk edə bilmirlər. Bəzi kitablar isə o qədər uzun və pərakəndədir ki, onları anlamaq çox çətindir. Bu kitablarda "Uşaqlıqda öyrənilən elm daşı qazılmış şəkil kimidir" məsəlinin məzmunundan qəflət olunur. Uşaq yaşlarında, hər şeydən əvvəl, əxlaq gözəlliklərini uşaqlara öyrətmək lazımdır. Pis xüsusiyyətlər təkrar olunduğu zaman adətə çevrilib uşaq təbiətinə daxil olduqdan sonra, onlara elm və ədəb öyrətmək mümkün olmaz".

Müəllif göstərir ki, A. Bakıxanov uşaqlara üz tutaraq, onların bir şəxsiyyət kimi formalaşmaları üçün faydalı pedaqoji-psixoloji fikirlər irəli sürür və uşaqları xeyirxahlığa, düzlüyə, özündən böyük və kiçiklərə hörmət etməyə, ağılı-bilikli olmağa çağırır. O, uşaqları milli adət-ənənələr əsasında tərbiyə etməyi tövsiyə edir. A. Bakıxanov uşaqlara müraciət edərək deyir: "Yalançı adamı Allah da sevmir. Yalançılıq pis bir peşədir. Yalançı adamın qəlbi çirkin və qəzəbli olar. Yalançı adam rəzil və xudbindir. Belələri cəmiyyət üçün ağır yükdür". Bu fikri söyləməkdə onun əsas məqsədi o olmuşdur ki, valideyn və tərbiyəçilər uşaqların tərbiyəsi prosesinə çox diqqətlə yanaşsınlar. Uşaqlara yalan danışmasınlar ki, uşaqlar da onlardan nümunə götürüb yalan danışmağa vərdiş etməsinlər.

"Hər kəs vəzifədə, elmdə və yaşda səndən böyükdürsə, ona hörmət elə ki, səndən kiçiklər də sənə hörmət etsinlər".

"Bir adamı ehtiyac içində görəndə nə qədər bacarırsan ona kömək et ki, sənin bir şeyə ehtiyacın olanda başqaları da sənə kömək etsin". "Heç kəsin pisliyini başqasına söyləmə. Çünki

əgər şəxs sənə düşməndirsə, bu sözləri həmin adama çatdırar. Əgər dostundursa, sənin haqqında pis fikrə düşər”.

A.A.Bakıxanovun maarifçilik məfkurəsinin tərkib hissələrindən biri də təlim- tərbiyə prosesini həyata keçirən müəllim şəxsiyyəti haqqında qiymətli fikirlər söyləməsidir. O, müəllimdən yüksək dözümlülük və həssaslıq tələb edirdi. A.A.Bakıxanov müəllimlərdən ciddi olmağı, yüngül hərəkətlərdən qaçmağı, vaxtı düzgün qiymətləndirib ondan səmərəli istifadə etməyi tövsiyə edirdi. Böyük maarifpərvər müəllimlərdən hər işində ehtiyatlı olmağı, şəraitə uyğun pedaqoji taktın seçilməsini vacib sayırdı.

Professor Ə.Y.Seyidovun yazdığı kimi “A.A.Bakıxanov tərbiyə işinin bütün məsələlərini subyektiv hissiyyata qapılmadan, ağlın tələbinə əsasən həll etməyi müəllimlərə məsləhət görür”. Böyük maarifpərvərin pedaqoji baxışlarını araşdıran prof. Ə.Y.Seyidov fikrini davam etdirərək məlum monoqrafiyasında yazır: “Bakıxanov təlimin ana dilində aparılması tərəfdarı idi; o, müəllimin fikrinin, dilinin sadəliyini, aydınlığını və hamıya müyəssər olmasını tələb edirdi. O, böyüməkdə olan nəslin təlim və tərbiyəsinə yüksək qiymət verirdi. Bakıxanovun fikirlərində tərbiyənin iki əsas ünsürü - əqli və əxlaqi tərbiyə üzvi şəkildə bir-birilə birləşir. A.A.Bakıxanov estetik tərbiyəyə dair də fikirlər söyləmişdir”.

Qeyd edə bilərik ki, heç şübhəsiz Azərbaycan maarifçiliyində, xüsusilə fədakar maarifçi A.A.Bakıxanov irsində nəinki pedaqoji, etik, habelə psixoloji ideyalar da əks olunmuşdur.

A.Bakıxanovun söylədiyi fikirləri özünün adi həyatda təsdiqini tapmış və indi də öz aktuallığını qorumaqdadır. Bu fikirlər gənclərin özlərinə seçdikləri yolda onlara işıq ola biləcək önəmli fikirlərdir.

Bir adama nəsihət vermək istəyib onun işinin səlahını demək istəsən xəlvətdə de ki, xalq arasında qəbul etməz. Hələ bəlkə səndən inciyər də.

Hər nə vəd veribsənsə, onu yerinə yetirməyə çalış ki, başqa vəd verəndə onun icra ediləcəyinə inansınlar.

Düzlüyü özünə şüar et. Hər kim əyriyə qurşansa, onun həyası əldən gedər xalq içərisində rüsvay olar.

Hər hansı bir sözü desən və ya nə iş görsən arxayın olma ki, sən xəlvətdəsən və heç kəs ondan xəbər tutmaz. Çox olar ki, o söz və ya əməlin üstü açılar  belə ki, hər pis işi görən həmin cür düşünürsə də çox çəkməz rüsvay olar.

Kiməsə zərər verməyə razı olma və öz hesabında pak ol, əmanətə xəyanət etmə. İnsan insana əl tutmalıdır, dayaq olmalıdır. İnsan yaxşılıq etməkçün doğulub, pislik üçün yox.

Yaxşı adam rəhmət, pis adam isə lənət qazanır. Yaxşılıq itməz.

Beləliklə, dahi mütəfəkkir, ensiklopedik biliyə malik alim, tarixçi, filosof, psixoloq, tərcüməçi, etnoqraf və ədib kimi tanıdığımız Abasqulu ağa Bakıxanovun yaradıcılığının milli publisistikanın banisi və maarifçi alim kimi araşdırmağa çalışdıq. Bir daha əmin olduq ki, öz dövrünün görkəmli alimi, böyük maarifçisi, istedadlı ədibi kimi tanıdığımız Abasqulu ağa Bakıxanov misilsiz elmi düşüncələri, böyük maraq doğuran əsərləri, mətbuat və maarifçilik sahəsindəki yorulmaz fəaliyyəti ilə XIX əsərin əvvəllərində Azərbaycan ədəbi-mədəni irsini daha da zənginləşdirilmişdir.

Bu yarım fəsildə verilmiş informasiyaları ümumləşdirsək aşağıdakı nəticəyə gələ bilərik:

XIX əsrin birinci yarısında yazıb-yaratmış Azərbaycanın tanınmış alimi, Abasqulu ağa Bakıxanovun əsərlərində əks olunmuş ümumi psixoloji və sosial-psixoloji ideyalar öz dövrünün çatışmamazlıqlarını əks etdirməklə yanaşı və həmin vəziyyətdən çıxış yollarını da göstərir;

Abasqulu ağa Bakıxanovun əsərlərində əks olunmuş əxlaqi-mənəvi problemlərin həlli yolları müasir dövrün tələbləri ilə səsləşir və müasir təlim- tərbiyə prosesində istifadə oluna bilinəcək qiymətli məxəzdir;

Mütəffəkkirin əsərlərində əks olunmuş mənəvi-psixoloji ideyalar dövrün tələblərindən qaynaqlanmış, baş vermiş hadisə-

lərin ictimai şüurda əks olunmuş prototipləri kimi özünü təqdim etmişdir.

Abasqulu ağa Bakıxanovun əsərlərində əməksevərlik, səbrli olmaq, emosional baxımdan dözümlülük, eləcə də iradəlilik əsas keyfiyyət hesab olunur və bu keyfiyyətələrin inkişaf etdirliməsi sosalizasiya prosesində xarakterin pozitiv yönümdə təşəkkülünə zəmin yaradır;

A.A.Bakıxanovun fikrincə, mənəvi təmizliyin əsasında fiziki sağlamlıq durur. Orqanizmin sağlamlığı vasitəsilə insan qarşısına çıxan bütün maneləri dəf edər, şər qüvvələrə qalib gələr, enerjili və mənzumlu insan kimi ətrafdakıların rəğbətini qazanar. Bu da tərbiyə haqqında fikirlərə yeni məzmun gətirir;

A.A.Bakıxanov xalqın əməyinin hesabına yaşayan və tüfeyli həyat tərzi keçirən imtiyazlı feodal silklərinin, birinci növbədə bəylərin, xanların, xalqı aldadan ruhanilərin əxlaqını kəskin tənqid etmiş, onları cəmiyyətin inkişafında mühüm maneə kimi təqdim etmişdir;

A.A.Bakıxanovun maarifçilik və humanizm ideyaları bu günkü demokratikləşdirmə və humansitləşdirmə ideyaları ilə ekvalentdir və bu da müəllifin uzaqgörənliyini göstərir;

A.A.Bakıxanovun etikasında insaf, ədalət, vicdan kateqoriyalarının təhlilinə də geniş yer verilmiş, rəhm və insafı o anadangəlmə, ədalət və vicdanı isə sonradan törəmə kimi təqdim etmişdlir. Bu da emprik şəkildə olsa da təlim- tərbiyə prosesinə yeni aspektdən yanaşmağa imkan verir, ideyaların ikili istiqamətindən xəbər verir.

Hisslərin bu xüsusiyyəti təkcə ailə münasibətlərində deyil, bir çox fərqli vəziyyətlərdə də özünü göstərə bilər. Digər tərəfdən, belə davranış zamanı qadınlar özünəməxsus şəkildə müdafiə mövqeyi tutmağa üstünlük verir, kişilərin onlara müəyyən mənada istismarçı mövqedən yanaşmasından ehtiyatlanırlar. Burada valideynləri də misal çəkmək mümkündür. Belə ki, valideynlərin bir qismi ömürlərinin axırınadək uşaqlarını idarə etməyə və onların davranışını nəzarətdə saxlamağa səy göstərirlər. Məsələn, bəzi valideynlər övladlarının müəyyən peşə vərdişlə-

rinə yiyələnməsinə həddən artıq səy göstərir, övladlarının şəxsi təşəbbüskarlıq hissini çox zaman məhdudlaşdırırlar. Göründüyü kimi, müasir psixologiya elminin sevgi-məhəbbətlə bağlı gəldiyi bu nəticələr A.A.Bakıxanovun yaradıcılığında öz dolğun ifadəsini tapmışdır. O, sevgi münasibətlərini müfəssəl şəkildə təhlil edir, səmimi, ülvi hisslərlə nəfsi, şəhvani hissləri bir-birindən ayırmağı məsləhət görür, nəfsə qətiyyən tabe olmamağı tövsiyyə edir.

Müəllif deyir:

“Xatirin meyli yavaş-yavaş yüksələrək sevdaya çevrilir;

Qətrə-qətrə yığılar, axırda dəniz olar”.

O birisi, fövri məhəbbətdir ki, bir gözəlin surətini görməklə və ya bir təsadüf səbəbi ilə eşqin sultanı ürək mülkünü elə işğal edər ki, nə təsəvvür etməyə macal, nə də hiddətlənməyə imkan qalar.

Möhtəşəm deyir:

“Eşqin sevgilisi elə bir hərifdir ki, imkan taparsa,

Əlini Əzrailin qanına boyayar”.

Eşq ruhun tələbidir. Təbiət aləmində ruhlarla ünsürlərin arasında xüsusi bir rabitə olduğu üçün, maddələrin mahiyyəti və xasiyyətlərin tələbi səbəbindən vücudda eşq naqis və kamil ola bilər. Eşq hisslər vasitəsi ilə həm qafil, həm də ayıq ola bilər. İşin başlanğıcında eşqimizin kimə olduğunu və ondan nə əldə edəcəyimizi düşünməliyik. O, əqlə batan və məqbul olarsa, əsl xoşbəxtlikdir.

Sədi deyir:

“Eşq insanlıqdır, o səndə yoxdursa,

Yeməkdə və yatmaqda heyvanla şəriksən”.

Belə olmadığı təqdirdə heç olmazsa, onun zərərini mümkün qədər düşünmək lazımdır, çünki eşq ürəkdə möhkəmləndikdə bütün hissləri və xasiyyətləri özünə qul edər və əql üçün tədbir görməyə macal qalmaz.

“Eşq bir oddur ki, özündən başqa hər şeyi yandırar” - dedikləri kimi, aşiqin gözünə də məşuqdan başqa heç nə görünməz. Həkimlər eşq dərdi üçün dərman tapmamışlarsa da, lakin

gördüyümüz kimi, eşqin ilk dövründə müxtəlif işlərlə məşğul olmaq və başqaları ilə əlaqə və rabitə saxlamaq, şəhvəti öldürmək və ya şəhvəti söndürmək vasitəsi onun odunu sakitləşdirmək mümkündür.

Təbii məşuqdan başqa səyə meyli olmadığına baxmayaraq, onu məcbur etmək lazımdır ki, getdikcə başqa işlərə adət etsin və eşq odu tədriclə sönsün.

Xülasə, nə cür olur-olsun, eşq zahiri zərərlərlə nəticələnsə də, tərifə layiqdir.

Müəllif deyir:

“Mişk qoxulu zülfün ətrindən başımız ağrısa da,
Həmişə başda bu ağrı olsa yaxşıdır”.

Eşqdən hasil olan saysız-hesabsız mənfəətlərdən başqa yalnız bunu qeyd etmək kifayətdir ki, eşq insanı bütün alçaq xasiyyətlərin mənşəyi olan dünyanın qeydindən azad edər və aşiqin başında məşuqun xəyalından başqa bir xəyal qoymaz. Sevgi hissinin başqa bir təzahür formasına gəldikdə burada diqqətin sevgi obyektinin rifahına yönəlməsi mühüm əhəmiyyət kəsb edir. Belə sevgini adətən, ananın övladına olan məhəbbəti ilə müqayisə edirlər. Bu halda sevən şəxsin sevgilisinin kədəri ilə kədərlənib, sevinci ilə sevinməsi mühüm əhəmiyyət kəsb edir. Əgər onun sevdiyi şəxs müəyyən təhlükəyə məruz qalırsa, o, bu təhlükəni dəf etməyə, necə deyərlər, öz sevgisini və sevgilisini müdafiə, mühafizə etməyə çalışır. Və düşünür ki, bu halda təhlükəyə və zərbəyə məruz qalan məhz o özüdür. Öz xüsusiyyətlərinə görə, belə sevgini fədakarlıq sevgisi kimi dəyərləndirmək mümkündür. Onun şəxsi sevgidən fərqi ondadır ki, belə hissi yönəliş adətən, eqosentrik xarakter daşımır. Sevən şəxsin sevinci, kədəri, qorxusu və nifrəti sevdiyi şəxsin müvafiq hisslərinə bağlı olur. Hisslərin hər iki ifadə tərzi öz-özlüyündə sevgi adlana bilər.

Hər kəs başqasının eybini sənə açıb desə ondan uzaq ol. Çünki o, sənin də eybini başqasına söyləyər...

A.K.Abdullayev qeyd edir ki, Bakıxanov insanları təvazökar olmağa, hər zaman xeyir işlər görməyə, eyni zamanda

tənbəllikdən uzaq olmağa çağırır. Bakıxanov məsləhət görür ki, insan gərək təkəbbürlü olmasın.O, yazırdı.

“Maraqlı burasıdır ki, bir çoxları rütbə, mal, nəsəb və kamalına görə özlərini böyük hesab edirlər. Halbuki, o... rütbə sahibinin vəzifədən kənar edildiyi zaman çəkdiyi qəm, vəzifə başına keçdiyi zamanda etdiyi şadlıqdan artıq olar...

Dünya malına gəldikdə isə demək olar ki, o, həmişə əldən-ələ keçən və puç olan bir şeydir”. Paxıllıq insan üçün ən ağır dərddir. Paxıllıq onu daxildən yeyir, üzür. Onun belə insanlara yazığı gəlir. O, yenə uşaqlara üz tutaraq deyir: “Paxıllıq qabiliyyətsizlik əlamətidir. Öz hünərinə inananlar başqalarından çox müvəffəqiyyət əldə edər. Hünərsiz tərəqqiyə çatmağı deyil, başqalarının tənəzzülünü arzulayar ki, onunla bərabərləşsin”. Bəli, Azərbaycan xalqı özünün mehriban və qonaqpərvərliyi ilə seçilib, ermənilərə yer verib, süfrələrinin başında oturdublar. Fürsət tapan kimi, alçaqlıq edib Azərbaycanlılara qənim kəsiliblər. Bu tarixi səhvlərdən nəticə çıxarmayıb, erməniləri heç vaxt tanımamışıq.

Ə.T.Baxşəliyev tərəfindən də dahi mütəfəkkir A.A.Bakıxanovun psixoloji fikirləri tədqiq olunmuşdur. O, göstərir ki, Bakıxanovun şəxsiyyət haqqındakı fikirləri də çox maraqlıdır. Şəxsiyyət ictimai münasibətlərin məcmusudur. İnsan o zaman şəxsiyyət olur ki, öz mənliyini dərk etsin, özünü düzgün qiymətləndirə bilsin, əxlaqi qaydalara riayət etsin, öz hissiyatını, mənlik və qürurunu qorusun, yaltaq olmasın. Onun fikrincə, özünü qiymətləndirməyən şəxs başqasının qiymətini də verə bilməz. Özünü görə bilməyən insan başqasını da qara eynəklə gördüyü kimi görər.

Bakıxanov bu keyfiyyətlərə ciddi fikir verməyi məsləhət görür: “Başqalarının səni tərifləməsi ilə istedadlı olduğunu zənn etmə. Bəlkə onun bir məqsədi vardır. Və bu təriflərlə öz müddəalarını pərdələməyə çalışır. O, uşaq və yeniyetmələri, yaşlı nəsli ağıllı olmağa, bütöv şəxsiyyət olmağa dəvət edirdi. O, göstərirdi ki, insan gərək öz yerini, danışığını bilsin, hər sözü danış-

masın, özünü hörmətdən salmasın, sadə və təvazökar olsun. Dostluq və yoldaşlıqda səxavətli, sədaqətli olsun".

Ə.T. Baxşəliyevin araşdırmaları göstərir ki, Bakıxanov tərif və yaltaqlığa nifrət etmişdir. Adamları həddindən artıq tərifləmək, haradasa tərifləyən adamın gizli məqsəd və motivlərinin nəticəsidir. Şəxsiyyət üçün, alim və mütəfəkkir əməyinin və həqiqi yaradıcılığının müqabilində zənnimizcə qədərincə tərif də lazımdır. Bu həmin insanın işinə, əməyinə verilən qiymətdir və bu onu daha da ruhlandırır. Lakin, boş yaltaqcasına tərif isə insanı çaşdırır, onda təkəbbürlük yaradır. Bakıxanov məhz belə tariflərin əleyhinə idi.

Müəllif, Bakıxanovun elmə, insan ağlına, zəkasına üstünlük verdiyini söyləyir. Onun fikrincə ağıl, bilik, təfəkkür, elm bir-biri ilə vəhdət təşkil edir. Bilikli adamlar ağıllı olur. Ağıllı adamlar isə təvazökar və xoşsifət olur, özlərini öymür, sadə və güzəştə gedən olur, cəmiyyətə artıq yük olmur, adamlara zərər vermirlər. Onun fikrincə, ağıldan və elmdən daha yaxşı bir dövlət yoxdur. Çünki, onlar həmişə səninlə olar və heç kəs onları sənin əlindən ala bilməz.

Ə.S.Bayramovun "Etnik psixologiya məsələləri" adlı kitabında "A.A.Bakıxanovun irsində etnik psixologiyaya aid ideya və problemlərin inikası" adlı bölməsində A.A.Bakıxanov yaradıcılığı haqqında dəyərli fikirlər çox böyük ustalıqla şərh edilmişdir.

Burada Bakıxanov yaxşılığa çox böyük əhəmiyyət vermiş, onu şəxsiyyətin ən gözəl əxlaqi keyfiyyəti kimi xarakterizə etmişdir. Həqiqi insan, mənəvi təmiz insan yaxşılığı təmənnasız etməlidir. Elə adamlar olur ki, yaxşılıq etdiyi adama həmin yaxşılığın kim tərəfindən edildiyini bilinməsini xoşlamır. "İnsanın etdiyi yaxşılığı yadına saldıqca elə bir zövq alır ki, heç bir dövlət ona çata bilməz; pis iş tutmuş adam isə əməlini düşündükcə xəcalət çəkir. Pis işin sahibi əməlini büruzə verməzsə də, batində daim özünü məzəmmət edər və onun cəzasının qorxusundan asudə olmaz...

Bir adama yaxşılıq etdinsə, ona kinayə edib boynuna minnət qoyma ki, bununla etdiyin yaxşılıq öz əhəmiyyətini itirər, xoşluq əvəzinə küdurət baş verər.

Araşdırmalardan aydın olur ki, A.A.Bakıxanovun bu fikirləri müasir dövrümüz üçün çox böyük əhəmiyyət kəsb edir və bu günlə səsləşir.

M.C.Məhərrəmov göstərir ki, A.A.Bakıxanov böyük şəxsiyyətdir. Onun yaradıcılığı pedaqoji, psixoloji fikirlərlə zəngindir. Fizioloqlar insanın bütün əzələ və sümüklərinin, sinir sisteminin incəliklərini bildikləri kimi, A.A.Bakıxanov da sanki insanı qarşısına qoyub onun psixoloji portretini yaradır, onun psixoloji simasını təhlildən keçirir. Bu baxımdan onun əsərləri psixoloqlar və uşaqların tərbiyəsi ilə məşğul olanlara bir ümid verir.

İnsan ədalətli, insaflı, səmimi və mərhəmətli olanda haqqa qovuşur, Allaha yaxın olur. El-oba içərisində həqiqi insan əsl şəxsiyyət kimi özünü tapır. Xeyirxah insanlar həmişə insanları xeyirxah olmağa çağırmış və gənc nəsildə də bu nəcib, əxlaqi keyfiyyətləri tərbiyə etməyə çalışmışlar.

A.A.Bakıxanov duyğu və qavrayış, zaman qavrayışı və təsəvvür arasındakı münasibət, nitq və onun növləri təsirliliyi məsələsi, adətlərin təşəkkülü, tərbiyə və yenidən tərbiyə etmə, hisslər, həmçinin geniş mənalandırıb orijinal təsnifatını verdiyi eşq problemi haqqında dövrü  üçün maraqlı fikirlər irəli sürmüşdür.

Etnik psixoloji fikir və ideyalar da A.A.Bakıxanov yaradıcılığında öz əksini tapmışdır.

Müasir dövrdə milli psixologiyada etnik ümumilik ön plana keçir. Burada əsasən iki cəhət millətin psixi siması, ikinci millətin və ya etnosun emosional aləmi. Psixi sima dedikdə adət-ənənə, milli xarakter, davranış və rəftar tərzi və s. millətin və ya etnosun emosional aləmi dedikdə isə milli və etnik hisslər, onların məzmunu, istiqaməti, davamlılıq dərəcəsi, stenik və astenikliyi və s. nəzərdə tutulur.

Bu iki cəhət həm də etnik stereotip və yönümlərin formalaşmasını məzmununu və eləcə də, təzahür xüsusiyyətlərini şərtləndirir.

A.A.Bakıxanovun əsərlərində bu və ya digər etnos nümayəndələri ilə necə rəftar etmək, onlara necə münasibət bəsləmək haqqında fikirləri açıq şəkildə öz əksini tapmışdır.

A.A.Bakıxanov yalnız öz xalqı deyil həm də başqa xalqlara mənsub olan etnik stereotiplərin, adət ənənələrin tarixən təşəkkülünə, dəyişkinliyinə, nisbilik və özünə məxsusluğuna diqqəti cəlb edirdi. A.A.Bakıxanov həmin dövr ilə ayaqlaşmaq naminə öz xalqında vaxtı keçmiş inkişafa mane olan etnik stereotip və yönümlərin, adət və ənənələrin aradan qaldırılmasına xüsusi fikir vermiş, cəhalət və ətalətin, yeniliyin qəbuluna maneçilik törədən digər psixoloji xüsusiyyətlərin aradan qaldırılmasına çalışmışdır. O, ilk növbədə, bütün xalqın maariflənməsinə, təhsilin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verirdi. Elə buna görə də A.A.Bakıxanovun əsərlərində etnopsixoloji ideyalar təlim - tərbiyə planında didaktik aspektdə irəli sürülmüşdür. O, həmçinin, özünün maarifçilik ideyalarını, əxlaq nəzəriyyəsini geniş sürətdə yaymağa səy göstərmişdir. "Təhzibil-əxlaq" əsərində fərdin özünü psixoloji təhlildən keçirməsi, özünü dərk etməsi, öz qüsurlarından xilas olmağa cəhd göstərməsi deyil, həm də bütöv bir etnosun özünütəkmilləşdirmə yolu qeyd edilir: Vaxtilə zehnim və zəkam xudbinliyimə qalib gəlmiş olsaydı bu gün peşmançılığını çəkdiyim işləri görməzdim:

Bu ayrıca bir şəxsə aid etiraf hesab edilə bilməz. O yetkinlik və kamilləşmə meylinin bütün xalqların etnosuna aid olmasını istəyirdi.

A.A.Bakıxanov bütün etnosun xilas yolunu maariflənməkdə, avamlıqdan yaxa qurtarmaqda görür.

Müəllifin fikrincə: Avam adamların idrak və mərifətlərinin yüksək dərəcəsi təqliddir, onlar heç bir halda təqliddən kənara çıxmağa qadir deyillər. Etdikləri hər cür tədqiqat və təfəkkür zirəklikdən deyil, adət üzündəndir. Müəllifin fikrincə beləl əri: Dəlil və sübutlara diqqət etmələrinə baxmayaraq öz nöqsanlarını

bilməzlər. Bunların hamısı göstərir ki, adamların işləri təhqiq və təqiq deyil, təqlid və təsdiq  etməkdən ibarətdir. Belə zərərli stereotipdən çıxış yolunu xalqın məlum rəftar və hərəkətinin, adət və ənənələrinin mümkün qədər ziddinə olmamağa çalışmaq lazımdır. Bu məsələdə zəruri həddi gözləməyi, yəni hər bir xalqın adət və ənənələrinə hörmət etməyi zəruri sayırdı.

Hər bir xalqın özünə məxsus adət və ənənləri var. Burada ziddiyyət axtarmaq, konflikt törətmək deyil, onu başa düşmək və nəzərə almaq lazımdır.

A.A.Bakıxanov yazırdı: Bizim əsrimizin özündə belə İranda adət olan  şey Avropada qəbahət hesab edilir. Avropa qitəsində bəyənilən iş isə Ərəb ölkələrində bəyənilmir. Hətta, bir ölkənin özündə də almanları ingilislər bəyənmirlər və ispaniyalıların adətini fransızlar qəbul etmirlər. A.A.Bakıxanov bəzi etnos nümayəndələrini ziyalıları nəzərdə tutaraq deyir: Bir çox bilikli adamların düşüncəli öz fəzilətlərinə baxmayaraq bu işdə avamlarınkından da qüsurludur: Müasir dövrümüzə nəzər salsaq, bəzi erməni ziyalılarının hansı xislətdə olduğunu aydın görmək olar (Z.Balayan, S.Kaputikyan və s.)

Əslində isə belələrinin əməl və düşüncələri vəhşilik səviyyəsindən də aşağıda duraraq xalqlara, millətlərə qarşı ağır cinayət törətməyə yönəlmişdir. Yəni beləl追 əslində beynəlxalq canidir.

İnsanların insaflı olmaları bu gün üçün daha çox əhəmiyyət kəsb edir. Bu gün ölkəmiz sosial-iqtisadi, ictimai-siyasi cəhətdən sürətlə inkişaf edir. Lakin, hələ də respublikamız keçid dövrünü yaşamaqdadır. Bizim ev-eşiyindən didərgin düşmüş yüzlərlə qaçqın və köçkün soydaşımız, çox sayda az təminatlı ailələrimiz vardır. Bazar iqtisadiyyatı şəraitində belə insanlara əl tutmaq, köməklik göstərmək varlı biznesmenlərin, imkanlı tacirlərin öz insafına qalmışdır. Sanki A.A.Bakıxanov belələrinə işarə edərək yazırdı: “Doğrudan da insaf insan təbiətinin bəzəyidir. O, səlamətliyə və işin gözəl nəticə verməsinə səbəb olar İnsanları bütün pisliklərin mənbəyi olan zülmdən çəkindirər. Bil ki, hər bir pis iş insaf maddələrinin zəifliyi üzündən əmələ gəlir.

İnsanın insafı kamal dərəcəsinə çatdıqda o, zülmü özünə və başqalarına rəva görməz. Demək heç bir pislik də ondan baş verməz. Bütün şəriətlərin hökmləri və hüdudları hər bir məmləkət qanunlarının möhkəmlənəsi zülmü dəf etmək üçündür. Elə günah tapılmaz ki, onda ya aşkar, ya da gizli şəkildə zülmün bir növü olmasın".

İnsan o, zaman kamil şəxsiyyət olur ki, o, özünü dərk edib qiymətləndirə bilsin. Bu keyfiyyət şəxsiyyət üçün ən vacib mənəvi-əxlaqi sərvətdir. Özünü görməyən insan kor kimidir. Çox vaxt insanların başına gələn hadisələrin çoxu onların özləri ilə əlaqədar olur. A.A.Bakıxanovun dediyi kimi: "Kasıblıqdan və biçarəlikdən şikayətlənmə ki, səndən daha çox kasıb və daha biçarələr vardır. Onlar çox sevinərdilər ki, sənin vəziyyətində olsunlar".

"İnsanlar surət və səsdə müxtəlif olduqları kimi, elm və əxlaqda da biri-birindən fərqlidirlər. Biz Allahı hakim bilirik və irad tutmaq olmaz ki, nə üçün o birini belə, digərini elə yaratmışdır".

M.C.Məhərrəmov qeyd edir ki, "A.A.Bakıxanov həyatın dialektik qanunauyğunluqlarına da diqqəti yönəldir. O, göstərir ki, hər hansı bir işi görərkən əvvəlcə fikirləşmək, ölçüb-biçmək lazımdır. Özündən kasıba və özündən dövlətliyə diqqətlə bax. Özündən dövlətliyə paxıllıq etmə. Bu hərəkət Allahın xoşuna gəlməz. Bir sözlə o, naşükür adamlara məsləhət görür ki, hər cəhətdən insanlar arasındakı fərqləri nəzərə alsınlar".

Yaxşılığın, xeyirxahlığın, səmimiliyin, təvazökarlığın əksi paxıllıq, şöhrətpərəstlik və pislikdir. Bu mənfi keyfiyyətlər isə həmişə insana başucalığı gətirmir, əksinə onu alçaldır, nüfuzdan salır. Bakıxanovun fikrincə, şöhrətpərəstlik insan üçün təhlükəlidir. Bu fikir bu günümüz üçün də çox aktualdır. Bu xəstəliyə tutulanlar bu gün də Bakıxanovun tərbiyə haqqında fikirlərindən bəhrələnərək özünütərbiyə edə bilər. Necə də yerində deyilən bir fikirdir: "Dəfələrlə təcrübədən keçmişdir ki, şöhrətpərəstlərin tərəqqi etməsi çətindir. Çünki insanın özü qürrə səbəbindən işdən qalar və başqaları paxıllıq və ya başqa

qərəzlər üzündən ona mane olmaq istəyərlər. Belə olduqda insan öz fəzilətini başqalarının paxıllığına səbəb olacaq dərəcədə göstərməməlidir və ya mübahisə və işlərin tədqiqi zamanı birisini o dərəcədə rüsvay etməməlidir ki, onun nadanlığı aradakıların hamısına məlum olsun. Bu hal ona ağır gəldiyindən kininə səbəb olar və onda ədavət doğurar".

Ə.S.Bayramov A.A.Bakıxanovu tədqiq edərkən qeyd etmişdir ki, onun yaradıcılıq dairəsi olduqca genişdir. Onun yaradıcılığında fəlsəfə, tarix, ədəbiyyat, pedaqogika, psixologiya və digər elmlərə aid xeyli dəyərli materiallar var ki, onlardan bu gün də təlim-tərbiyə işində, biliklərə yiyələnmək prosesində istifadə etmək olar.

Müəllif, A.A.Bakıxanov üçün uşaq və yeniyetmələrdə, gənclərdə saf əqidə, inam, düzlük, doğruçuluq, ləyaqət kimi nəcib, psixoloji keyfiyyətlərin formalaşması, əməyə hörmət, əməksevərlik, təvazökarlıq, yaxşılıq, xeyirxahlıq, alicənablıq, səmimiyyət, əliaçıqlıq və s. kimi psixoloji fenomenlərin aşılanması zəruriliyini göstərir.

A.A.Bakıxanov eyni zamanda insan üçün ən mənfi psixoloji hal olan nankorluq, paxıllıq, ikiüzlülük, yalançılıq, riyakarlıq və s. sifətlərdən gənclərimizi çəkindirməyə çalışır. Ədib bu əxlaq normalarını ümumbəşər əxlaq mövqeyindən təbliğ edir. "Nəsihətlər" əsərində isə A.A.Bakıxanov yeniyetmə gənclərə çox asan dildə, başa düşüləcək tərzdə nəsihətlər verir ki, onlardan bu gün də bəhrələnməliyik.

Yetişməkdə olan gənc nəsli hərtərəfli şəxsiyyət kimi formalaşdırmaqda biz milli-mənəvi dəyərlərimizdən, görkəmli tarixi şəxsiyyətlərimizin əsərlərindən geniş istifadə etməliyik. Bu mənəvi-əxlaqi sərvət bu günümüzün, sabahımızın və gələcəyimizin güvənc yeridir. Uşaq və yeniyetmələr, gənclər, yaşlılar bu mənəvi-əxlaqi zənginliyə dönə-dönə müraciət etməli və bəhrələnməlidirlər.

**Sual və tapşırıqlar**

1.A.A.Bakıxanovun şəxsiyyət haqqında fikirləri hansılardır?

2.A.A.Bakıxanovun şəxsiyyətin tərbiyəsinə dair nə kimi fikirləri vardır?

3.A.A.Bakıxanovun əsərlərində psixoloji məsələlər.

**Ədəbiyyat**

1.Abdullayev A.K.A. Bakıxanovun ruh haqqında görüşləri, APİ-nin professor və müəllim heyəti və aspirantlarının 1968-69-cu illərdə elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-nəzəri sessiyanın materialları, Bakı, 1969.

2.Ağayev Ə.A. Azərbaycan maarifpərvərləri şəxsiyyətin formalaşmasına təsir edən amillər haqqında, AETPU-nun əsərləri XII buraxılış, Bakı, 1973.

3.Baxşəliyev Ə.T. Abbasqulu ağa Bakıxanovun tərbiyənin psixoloji məsələlərinə dair fikirləri, ADPU, Bakı, 2004.

4.Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011.

5.Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı: Nurlan, 2007, 528 s.

6.Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən, Bakı, 2007 (tərcümə), 400 s.

7.Məhərrəmov M.C. A.A. Bakıxanovun psixoloji görüşləri, Azərbaycan Məktəbi, 1966, №10.

8.Məmmədov T.M. Azərbaycan psixoloji fikir tarixində şəxsiyyət problemi. Bakı: Mütərcim, 2011.

9.Vəliyev M.V. A.A.Bakıxanovun əsərlərində psixoloji məsələlər". "Elm XXI-əsrin astanasında mövzusunda elmi-praktik konfransın materialları, Bakı, 1999, Səhifə 22-23

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1 Abbasov N. Milli əxlaq və ailə tərbiyəsi, Bakı 2008, 306 s.

2 Abdullayev A.K. A. Bakıxanovun ruh haqqında görüşləri, APİ-nin professor və müəllim heyəti və aspirantlarının 1968-69-cu illərdə elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-nəzəri sessiyanın materialları, Bakı, 1969.

3 Ağayev Ə.A. Azərbaycan maarifpərvərləri şəxsiyyətin formalaşmasına təsir edən amillər haqqında, AETPU-nun əsərləri XII buraxılış, Bakı, 1973.

4 Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005.

5 Ağayeva N. Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası, (Nam. dis. avt.), Bakı, 2002.

6 Ağayev Ş.S. Azərbaycanda pedaqoji psixologiyanın inkişafı tarixindən, Azərbaycan məktəbi, 1964, №5.

7 Bayramov Ə.S. Azərbaycanda etnik psixoloji xüsusiyyətlərin əks etdirilməsi və araşdırılması istiqamətləri, (Elmi-praktik konfransın materialları), Bakı, 2000.

8 Bayramov Ə.S. Etnik psixologiya, Renesans nəşr, Bakı, 2001, 374 s.

9 Bayramov Ə.S. Etnik psixologiya məsələləri, Bakı, 1996.

10 Bayramov Ə.S. Etnik psixologiya və millətlərarası münasibətlər, Bakı, Gənclik jurnalı №1, 1991.

11 Bayramov Ə.S. Etnik psixologiya, şəxsiyyət, Kitabi-Dədə Qorqud ensiklopediyası, II cild, Yeni Nəşrlər evi, Bakı, 2000.

12 Bayramov Ə.S. Etnik psixoloji xüsusiyyətlərə kifayət qədər bələdik mi?, Azərbaycan məktəbi jurnalı, №5-6, 1996.

13 Bayramov Ə.S.Etnik özünüdərketmə,Kitabi-Dədə Qorqud ensiklope-diyası, Bakı, 2000.

14 Bayramov Ə.S. İ. Nəsiminin psixoloji fikirlərinin tədqiqinə dair, Voprosı psixoloqii jurnalı, 1976, №1.

15 Bayramov Ə.S. Psixoloji düşüncələr, Bakı, 1994.
16 Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri, Bakı: Azərnəşr, 1981, 190 s.
17 Bayramov Ə.S. Əlizadə Ə.Ə. Seyidov İ.Ə və b. Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri, BDU-nun nəşri, Bakı, 1985.
18 Bayramov Ə.S. Azərbaycan psixologiyasında şəxsiyyətin formalaşmasının və idrak fəaliyyətinin tədqiqi problemləri, Tələbənin idrak fəaliyyəti və şəxsiyyətinin təşəkkülü. Bakı, ADU-nun nəşri, 1981.
19 Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya Bakı: Qapp-Poliqraf korpo-rasiyası 2003, 540 s.
20 Bayramov Ə.S. Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual məsələləri, Azərnəşr, Bakı, 1986.
21 Bayramov Ə.S. Əlizadə Ə.Ə. Sosial psixologiya, Bakı: Qapp-Poliqraf korporasiyası, 2003, 356 s.
22 Bayramov Ə.S.Əlizadə Ə.Ə. Seyidov S.Ə. Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri, Bakı, BDU-nun nəşri, 1985.
23 Baxşəliyev Ə.T. XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı, II hissə, Bakı, 1996.
24 Baxşəliyev Ə.T.XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı, III hissə, Bakı, 1996.
25 Baxşəliyev Ə.T.Abbasqulu ağa Bakıxanovun tərbiyənin psixoloji məsələlərinə dair fikirləri, ADPU, Bakı, 2004.
26 Baxşəliyev Ə.T. Ağayev Ş.S. Respublikamızda elmi psixologiyanın metodoloji problemlərinin tədqiqat tarixindən, APİ-nn elmi əsərləri, Bakı, 1965, №6.
27 Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011.
28 Baxşəliyev Ə.T. Azərbaycan psixologiya elmi XX yüzillikdə, Bakı, 2005.
29 Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin inkişafı. Bakı: Maarif, 1991, 292 s.
30 Baxşəliyev Ə.T.Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı: Nurlan, 2007, 528 s.

31 Cabbarov R.V. Yeniyetmələrdə dərketmə prosesinin psixoloji əsasları. Psix.elm.nam.dis. avtoreferat Bakı, 2004, 35 s.

32 Etnopsixologiya və etnopedaqogika: məsələlər və müasir problemlər (Respublika elmi konfransı), Bakı, 1992.

33 Əliyev B.H. Şəxsiyyətyönümlü təhsil sistemində şəxsiyyət və təhsilin qarşılıqlı əlaqəsinin psixopedaqoji problemləri. Bakı Universiteti xəbərləri, Sosial-siyası elmlər seriyası, 2008, № 3.

34 Əliyev B.H. Şəxsiyyətə yeni baxış nəzəriyyəsi.

35 Əliyev. R.İ. Azərbaycan etnopedaqogikası. Bakı: Elm və Təhsil, 2009.

36 Əliyev R.İ. Etnopsixologiya: qloballaşma və millilik, Bakı, 2007, 215s.

37 Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasinin etnopsixoloji əsasları. Dok. diss., Bakı, 2005, 270 s.

38 Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması, Bakı, 1995.

39 Əliyev R.İ Şəxsiyyətin təşəkkülünün etno-psixoloji məsələləri, Bakı, 2003.

40 Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixloji əsasları. Bakı: Araz, 2000, 195 s.

41 Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları, Bakı, 2003.

42 Əliyev R.İ. Psixologiya. Bakı: Nurlan, 2008, 351 s.

43 Əliyev R.İ. Psixologiya tarixi,Bakı: Nurlan,2006,384 s.

44 Əliyev R.İ.Mentalitet, Bakı:Elm və Təhsil,2009,229 s.

45 Əliyeva K.R.Şəxsiyyətin yaradıcı potensialının formalaşmasının psixoloji problemləri, (Dok. dis. avt.), Bakı, BDU, 2008 .

46 Əliyev R.İ. Təhsil sistemində milli xüsusiyyətlərin nəzərə alınması, Azərbaycan məktəbi jurnalı №5, 1996.

47 Əliyev R. İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 196 s.

48 Əlizadə Ə.Ə Alqışlar və qarğışlar: Şəxsiyyətlərarası münasibətlər və özünüqiymətləndirmə. Etnopsixologiya və etno-

pedaqogika: mənbələr və müasir problemlər. Respublika elmi konfransının tezisləri. Bakı, ADPU, 1992 .

49 Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş, Bakı, 2003.

50 Əlizadə Ə.Ə. Azərbaycan güzəran psixologiyası məsələləri, Bakı, 1994.

51 Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri, Bakı: Pedaqogika, 2004, 431 s.

52 Əlizadə Ə.Ə. Etnik psixologiyanın müasir dövrdə əsas problemi, ənənə və müasirlik. Etnik psixologiya məsələləri, Bakı, 1996.

53 Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı: Adiloğlu, 2001.

54 Əlizadə H.Ə. Demoqrafik amillərin şəxsiyyətin inkişafına təsiri. Azərbay-can məktəbi jurnalı, 1991, № 6-7.

55 Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Bakı: “MBM”, 2007, 200 s.

56 Əzimli Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri, Bakı, 2006.

57 Əzimov Q.E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı: ADPU, 2006, 169 s.

58 Göyüşov Z. Azərbaycan maarifçilərinin əsərlərində əx-laq məsələləri, Azərnəşr, Bakı, 1964, 190 s.

59 Həşimov Ə.Ş. Təlim-tərbiyə işində milli xüsusiyyətləri nəzərə almağın zəruriliyi, Azərbaycan məktəbi jurnalı №9, Bakı, 1989.

60 Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən, Bakı, 2007 (tərcümə), 400 s.

61 Qasımzadə F. Şəxsiyyət: formalaşması və inkişafı. Azərbaycan məktəbi jurn. 1989, № 10.

62 Qədirova R.H. Azərbaycanlı uşaq və yeniyetmələrin milli identikliyinin inkişafının sosial-psixoloji xüsusiyyətləri (Dok. dis. avt.), Bakı, 2008.

63 Qədirova R.H. Şəxsiyyətin formalaşmasında milli stereotiplərin rolu. Etnopsixologiya və etnopedaqogika: mən-

bələr və müasir problemlər. Respublika elmi konfransının tezisləri. Bakı, ADPU, 1992.

64 İbrahimova R. Azərbaycan maarifçiləri şəxsiyyətin formalaşmasında ictimai mühitin rolu haqqında //Azərbaycan məktəbi, 1982.

65 Mehdizadə M.M. Şagird şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafı haqqında// Azərbaycan məktəbi, 1982, № 11.

66 Mehrabov A.O., Əliyev R.İ., Demokratik cəmiyyətdə rəqabətəqabil şəxsiyyətin formalaşması // Təhsil, mədəniyyət, incəsənət, 2003, № 3, s. 3-8.

67 Məhərrəmov M.C. A.A. Bakıxanovun psixoloji görüşləri, Azərbaycan Məktəbi, 1966, №10.

68 Məhərrəmov M.C. Məktəblilərin xarakterini tərbiyə etmək haqqında, Bakı, Maarif, 1967.

69 Məhərrəmov M.C.Şagirdlərdə xarakter tərbiyə etmək haqqında, Azərbaycan məktəbi, Bakı, 1955, №12.

70 Məhəmməd Nəsirəddin Tusi. Əxlaqi Nasiri. Bakı: Elm, 1989.

71 Məktəbəqədər yaşlı uşaqlarda milli hisslərin formalaşmasına adət-ənənələrin təsiri, (Respublika ali məktəblər arası elmi konfransının materialları).

72 Məmmədov Ə.S., Quliyev N.S. Azərbaycanın adət və ənənələri, Bakı, 1966.

73 Məmmədova G.K. Psixologiya və bədii ədəbiyyatda şəxsiyyətin tipoloji problemləri (Dok. dis. avt.), Bakı, 2006.

74 Məmmədov S. Pedaqogikada şəxsiyyətin sosializasıyaşı problemi // Azərbaycan məktəbi, 2002 №2.

75 Məmmədov T.M. Azərbaycan psixoloji fikir tarixində şəxsiyyət problemi. Bakı: Mütərcim, 2011.

76 Mirzəyeva S.S Psixologiyada şəxsiyyət problemi və onun tədqiqi istiqamətləri Psixologiya jurnalı №4, 2007.

77 Nəsrəddin Tusi Əxlaqi Nasiri, Bakı, 2005, 278 s.

78 Orucova C.V. Azərbaycan ailəsində oğlan-qız tipli münasibətlərin etnopsixoloji xüsusiyyətləri , (Nam. dis. avt.), Bakı, 2001.

79 Piriyeva E. Siyasi proseslərdə milli psixologiya amili, (Nam. dis. avt.), BDU, Bakı, 2006.
80 Rzayev M. Fəlsəfənin tədrisində şəxsiyyət probleminin təhlili metodikası. Bakı, 2009.
81 Rzayeva N. Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası, Bakı, BDU, (Nam. dis. avt.), 2002.
82 Rzayeva N. Əcdadların izi ilə, Bakı, Azərnəşr, 1992.
83 Seyidov S., Həmzəyev M. Və b. Psixologiya, Bakı, 2007.
84 Seyidov Ə. Pedaqogika tarixi, Bakı, 1958, 418 s.
85 Sultanova İ.H. Məktəbəqədər yaşlı uşaqlarda milli hisslərin formalaşması, (Nam. dis. avt.), Bakı, 2000.
86 Talıbov Y.R., Sadıqov F., Quliyev S. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi Ünsiyyət nəşr, Bakı, 2000.
87 Talıbov Y., Sadıqov F., Quliyev S. Gənclərin milli tərbiyə problemi, Bakı, 1998.
88 Vəliyev M.V. A. Bakıxanovun əsərlərində psixoloji məsələlər”. “Elm XXI- əsrin astanasında mövzusunda elmi-praktik konfransın materialları, Bakı, 1999, Səhifə 22-23.
89 Zeynalova N.Uşaq şəxsiyyətinin formalaşmasında müəllim şagird münasibətinin rolu. “Azərbaycan məktəbi”. jurnalı 1999 №3.
90 Zəkuyev Ə.K. Füzulinin psixoloji görüşləri, Bakı, APİ elmi əsərləri, IX cild, 1959.

*Няшриййатын директору: Щцсейн Щажыйев*
*Техники редактор: Gülbəniz Məmmədova*
*Korrektor: Sevinc Mamoyeva*
*Дизайн: Мцшфиг Щажыйев*
*Жилдчи: Азад Щямзяйев*
*Монтаъчы: Елмира Исмайылова*

---

*Чапа имзаланмыш 10.11.2016-cı ил*
*Каьыз форматы 60х84 1/16, чап vərəqi 6,5*
*Сифариш 472, сайы 500*

---

*АДПУ-нун мятбяяси*
*Бакы, Ц.Щажыбяйli кçчяси, 68*
*Тел: (+912) 493-74-10*
*E.mail. Poliqrafiya@mail.ru*